RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



100

№ 240 (9407) 2 NOYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ləyaqətli müharibə, möhtəşəm zəfər

AZƏRBAYCAN LƏYAQƏTLİ MÜHARİBƏ APARDI.

Müharibədə ölüm, dağıntı, əsir və girov düşmə, qaçqınlar və köçkünlər ordusunun yaranması təbii haldır.

Müharibədə mülki obyektlərə, dinc əhaliyə də ziyan dəyə bilər.

Şübhəsiz, əsas hədəf hərbi obyektlər, atəş nöqtələri, canlı qüvvə və hücum silahları sayılır.

*Lakin bəzən müharibə edən tərəflər əhali arasında qorxu və çaxnaşma yaratmaq məqsədilə yaşayış məntəqələrinə hücumlar təşkil edir, dinc insanları və onların yaşadıqları evləri hədəf seçirlər.*

I Qarabağ müharibəsi dövründə ermənilər Azərbaycana qarşı hərbi əməliyyatlarda şəhər və kəndləri sistemli şəkildə "Qrad" və mərmi atəşinə tutdular, dinc əhalini girov götürərək olmazın işgəncələr verdilər, yaşayış məntəqələrini xarabalığa çevirdilər, XX əsrin ən dəhşətli faciəsi sayılan Xocalı soyqırımını törətdilər.

**Beləliklə, vəhşi, barbar, murdar simalarını öz əməlləri ilə nümayiş etdirdilər.**

*II Qarabağ müharibəsində yenə eyni əməllər törətməyə cəhdlər etsələr də, gücləri və imkanları çatmadı.*

Yalnız hərbi əsirlərə qarşı vəhşiliklər törətdilər.

**Azərbaycan nə qədər güclü, hər növ silahlara və imkanlara malik olsa da, erməni barbarlığını təkrarlamadı.**

**Azərbaycan ləyaqətli müharibə apardı!**

**Azərbaycan düşməndən qisasını hərb meydanında, onun ordusunu darmadağın edərək aldı!**

*Sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri isə 23 saatda başa çatdırılaraq müharibələr tarixinə ən qısa hərbi əməliyyat və bir mülki vətəndaşa belə zərər vurulmayan yüksəksəviyyəli təmizləmə prosesi kimi düşdü!*

Beləliklə, 44 günlük hərbi əməliyyat və 23 saatlıq lokal xarakterli antiterror tədbirləri zamanı yerlərdəki erməni əhaliyə qarşı heç bir zorakılıq, etnik təmizləmə halları və mülki əhalinin hədəf seçilməsi baş vermədi.

Azərbaycan ərazisini tərk edənlərə isə nə döyib-dolaşan, nə təzyiq göstərən, nə də maneçilik törədən oldu!

Bunu Azərbaycana gələn BMT missiyası da təsdiq etdi!

**Ləyaqətli xalq müharibəni də ləyaqətlə aparmağı bacarır.**

→ 4

## Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür

### Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Abdelmacid Tebbuna



Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

1 Noyabr - İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Əlcəzair xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Amansız müstəmləkəçilik siyasətinə qarşı xalqınızın azadlıq mübarizəsinə başladığı bu əlamətdar gün Əlcəzairin qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Yüz ildən artıq dövr ərzində əsarətə və kütləvi zorakılığa məruz qalan, misli görünməmiş qəddarlıq, insanlıq əleyhinə cinayətlərlə üzləşən Əlcəzair xalqı müstəqilliyini bir milyon yarım şəhidin canı bahasına əldə etmiş və bununla da iradəsinin sarsılmazlığını, yenilməzliyini, mətinliyini və azadlıq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Otuzillik işğaldan əziyyət çəkmiş Azərbaycan xalqı Əlcəzair xalqının hisslərini yaxşı başa düşür. Şadam ki, bu gün ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan ölkələrimiz arasında əlaqələr dinamik inkişaf edir. Eyni zamanda çoxtərəfli müstəvidə qarşılıqlı faydalı birgə fəaliyyətimiz məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2023-cü il*

## Prezident İlham Əliyevin müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müraciətində Azərbaycanın XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından narahatlığını vurğulayıb, Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyduğunu diqqətə çatdırıb, Fransa kolonializminin utancverici yeni metodlarının bu gün də davam etməsindən təəssüfünü bildirib. Prezident İlham Əliyev, eyni zamanda Fransanın dünyada ən çox mina istifadə etmiş ölkələrdən biri olduğuna, Azərbaycanın mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutduğuna diqqət çəkib.

Dövlət başçısı, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəklədiyini diqqətə çatdırıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin sözügedən müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması dövlətimizin başçısının, eyni zamanda Azərbaycanın beynəlxalq proseslərdə oynadığı mühüm rolun, o cümlədən dünyada kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər edilməsinə, bəşəriyyətin rifahı, dünyanın kolonializmdən xilas olması məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfələrinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin əyani təzahürüdür.

## Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlıq genişlənir

### Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlət başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlət başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.

Dövlət başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

## Bir inamın tarixi

### Ümummilli Lider 2 noyabr 1993-cü ildə Azərbaycan xalqına müraciət etmişdir

Ulu Öndərin 2 noyabr 1993-cü il tarixli müraciəti ilk növbədə, mövcud vəziyyətə ümumi baxış, qiymətləndirmənin aparılması və proseslərin gələcək axarı ilə bağlı insanların məlumatlandırılması niyyəti daşıyırdı.

Heydər Əliyevdən əvvəl hakimiyyət rəhbərliyində olan təsadüfi şəxslərin ciddi yanlışlıqları ucbatından o zaman cəbhə bölgəsində vəziyyət xüsusilə kritik idi. Ən pisi də o idi ki, Qarabağ məsələsi Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan bir çox qrupların əlində siyasi alətə çevrilmişdi. O dövrdəki mövcud siyasi qruplaşmaların çoxu əslində elə Qarabağ münaqişəsi zəminində meydana gəlmişdi və mütəmadi şəkildə bu mövzudan istifadə edərək öz hakimiyyət iddialarını gerçəkləşdirməyə çalışırdılar. Müstəqillik yollarında ilk kövrək addımlarını atan Azərbaycan dövlətinin gələcək aqibəti, xalqın ağır vəziyyəti belələrinin marağında deyildi.

Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışından sonra da bu vəziyyətdən sui-istifadə cəhdləri yenə aktuallığını qoruyurdu. AXC-Müsavat cütlüyünün hakimiyyəti iflasa uğrasa da, ayrı-ayrı siyasi qüvvələr yaranmış fürsətdən öz məqsədləri, siyasi avantüraları, hikkələri üçün istifadə etməyə çalışır, Heydər Əliyevin Azərbaycanın xilası üçün yürütdüyü siyasətə, gördüyü işlərə qara yaxır, ləkə salmaq istəyir, eyni zamanda aramsız manipulyasiya cəhdləri edirdilər. Bütün bunlar isə daha çox ermənilərin əlinə fürsət verirdi.

→ 5

## Neokolonialist Fransa hansı haqla başqasını ittiham edir

Fransa öz sərhədlərini müstəmləkəçilik məqsədilə aşmağı, işğal etdiyi ölkələrin təbii sərvətlərini talayıb varlanmağı özünün məkrli ənənəsinə çevirib. Görmək istəmir ki, artıq əvvəlki vaxtlar deyil. Fransanın dünya ictimaiyyətindən, beynəlxalq qanunlardan belə çəkinmədən işğal etdiyi, illər, əsrlər boyu qarət etdiyi ölkələrin sakinləri bu gün artıq haqq səslərini ucaldırlar.

→ 6

## Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib

Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib. Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Xatırladaq ki, Zəngilan şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il oktyabrın 29-da işğal olunub. Vətən müharibəsində şanlı Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də şəhəri işğalçılardan azad edib.

→ 3

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 905-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431, № 5, maddə 860, № 6, maddə 1044, № 12, maddə 1927; 2020, № 7, maddə 882; 2021, № 5, maddə 439; 2022, № 1, maddə 29, № 4, maddə 332, № 8, maddə 871; 2023, № 4, maddə 478) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 16.20-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2023-cü il*

# Azərbaycanın xarici işlər naziri BƏƏ Prezidenti ilə görüşüb

Oktyabrın 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfəri çərçivəsində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Görüş zamanı Azərbaycan və BƏƏ arasında əməkdaşlıq gündəliyinin genişləndirilməsində ali və yüksək səviyyəli siyasi dialoqun əhəmiyyəti vurğulanıb.

Diplomatik münasibətlərin qurulmasından ötən müddət ərzində iki ölkənin islam həmrəyliyi, dostluq, qardaşlıq prinsipləri əsasında əməkdaşlıq əlaqələrinin inkişafı üçün səy göstərdiyi məmnunluqla qeyd olunub. Həmçinin Azərbaycan və BƏƏ arasında mövcud çoxşaxəli nümunəvi əməkdaşlıq gündəliyinin davam etdirilməsi, turizm, təhsil, yüksək texnologiyalar kimi sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulanıb.

Görüş zamanı, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vətəndaşlara hüquqi yardım aksiyası təşkil edilib

Noyabrın 1-də "Heydər Əliyev İli" çərçivəsində Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevin təşəbbüsü və Vəkillər Kollegiyasının dəstəyi ilə şəhid ailələri, qazilər, habelə 20 saylı Nərimanov II seçki dairəsinin əhatə etdiyi ərazidə yaşayan vətəndaşlar üçün ödənişsiz hüquqi yardım aksiyası təşkil edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə vitse-spiker Adil Əliyevin Nərimanov rayonunda yerləşən deputat ofisində keçirilən aksiyada müraciət etmiş çoxsaylı vətəndaşlara "Femida" vəkil bürosunun 12 nəfər vəkili tərəfindən lazımi hüquqi yardım göstərilib.

Aksiyada müraciətlərlə əlaqədar vətəndaşlara hüquqi məsləhətlər verilib, məhkəmələrdə təmsilçiliklə bağlı müvafiq iddia ərizələri hazırlanıb. Bununla yanaşı, ayrı-ayrı dövlət orqanlarına müraciətlər hazırlanaraq göndərilib.

Qəbulda iştirak edən vətəndaşlar onlara göstərilən hüquqi yardımdan razılıqlarını bildiriblər. Vətəndaşlara hüquqi yardımın göstərilməsi ilə əlaqədar tədbirlərin mütəmadi olaraq davam etməsi nəzərdə tutulur.

*"Azərbaycan"*

# Azərbaycanın multikulturalizm modeli Astanada keçirilən beynəlxalq konfransda müzakirə olunub

Qazaxıstanın paytaxtı Astana şəhərində "Qazaxıstan Respublikasında vətəndaş identikliyi - mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərkəzin Tədris şöbəsinin müdiri İrina Kunina konfransın Almaniya, Qazaxıstan, Gürcüstan, Türkiyə və Polşanın beyin mərkəzlərinin mütəxəssislərinin və araşdırmaçıların qatıldıqları "Vahid millətin formalaşmasına əsas yanaşmalar" mövzusundakı panel iclasında "Multikultural cəmiyyətdə vətəndaş identikliyinin formalaşmasında Azərbaycanın təcrübəsi" adlı məruzə ilə çıxış edib. Məruzədə Azərbaycanın multikulturalizm modeli və onun əsas prinsipləri haqqında məlumat verilib, azərbaycançılığın ölkəmizdə vətəndaş kimliyinin formalaşması prosesinin əsasını təşkil edən dəyərlərin birləşdirici sistemi olduğu vurğulanıb. Qeyd edilib ki, vətəndaş kimliyi mürəkkəb prosesdir və ölkədəki etnik azlıqların hüquqlarının qorunmasına həssas yanaşılmalıdır.

Konfransda, həmçinin "Vətəndaş kimliyi: mövcud vəziyyət və meyillər", "Vətəndaş kimliyi terminologiyası problemləri" və digər mövzularda müzakirələr aparılıb.

# Azərbaycan Cənubi Qafqazda Koreya Respublikasının əsas ticarət tərəfdaşıdır

**Milli Məclisin Sədri Sahibə Qafarova Koreya Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 1-də bu ölkənin Milli Assambleyasının Sədri Jin-pyo Kim ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Jin-pyo Kim Azərbaycan parlament rəhbərinin bu səfərinin son 6 ildə Milli Məclis Sədri səviyyəsində Koreya Respublikasına ilk səfər olduğunu bildirib. O, Milli Assambleyanın keçmiş sədrinin 2021-ci ildə Azərbaycanda səfərdə olduğunu xatırladaraq, Milli Məclis Sədrinin bu səfərinin iki ölkə arasında münasibətlərin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Koreya Respublikasının Azərbaycanın müstəqilliyinin ilk günlərindən sıx əlaqələr qurduğu ölkələrdən biri olduğu, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulanıb. İkitərəfli münasibətlərin inkişafında siyasi təmasların - yüksək səviyyəli səfərlərin, görüşlərin müstəsna rolu qeyd edilib.

Bildirilib ki, ölkələrimiz arasında münasibətlərdə iqtisadi əməkdaşlıq mühüm yer tutur. Azərbaycan Cənubi Qafqaz regionunda Koreyanın əsas ticarət tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsi durmadan artır, lakin iqtisadi əməkdaşlığı daha da gücləndirmək və şaxələndirmək üçün daha böyük potensial mövcuddur.

Jin-pyo Kim Azərbaycanla Koreya arasında bənzərliklərin, ümumi cəhətlərin olduğunu qeyd edərək, hər iki ölkənin coğrafi mövqelərinin əhəmiyyətini vurğulayıb. O deyib ki, həm Azərbaycan, həm də Koreya dənizləri, qitələri birləşdirən ölkələrdir. Bu da hər iki ölkə üçün eynilik təşkil etməklə, əlaqələrimizin dinamik inkişafına, dövlətlərimizin bir-birinə daha da yaxınlaşmasına töhfə verir.

Görüşdə Azərbaycanın qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi planları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, Azərbaycanın su təchizatı sistemlərinin inkişafı, ölkəmizin bərpa olunan enerji sahəsində həyata keçirdiyi proqramlar və bu sahələrdə Koreya şirkətlərinin iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında müxtəlif formatlarda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı imkanlar var. Onun sözlərinə görə, ölkələrimiz ənənəvi format və təşkilatlarla yanaşı, yeni əməkdaşlıq formatlarında da birgə fəaliyyət göstərə bilər. Bunlardan biri Azərbaycanı, Mərkəzi Asiya ölkələrini və Koreya Respublikasını əhatə edən, müxtəlif sahələrdə mühüm imkanlar və üstünlüklər verə bilən əməkdaşlıq mexanizmi ola bilər. Spiker Sahibə Qafarova mədəni oxşarlıqlara və dil yaxınlığına görə Koreya Respublikasının Türk Dövlətləri Təşkilatı ilə tərəfdaş ölkə kimi əməkdaşlığının mühüm nəticələrin əldə olunmasına gətirib çıxara biləcəyinə inamını ifadə edib.

Görüşdə humanitar sahədə əməkdaşlığın əhəmiyyəti vurğulanıb, təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Hazırda Koreyada 200-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığı, Azərbaycan və Koreya universitetləri arasında müxtəlif beynəlxalq tələbə mübadiləsi və ikili diplom proqramlarının mövcud olduğu diqqətə çatdırılıb. Həmçinin Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) və Koreya Ticarət İnvestisiya Agentliyinin (KOTRA) ofislərinin fəaliyyəti təqdir edilib və bu fəaliyyətlərin daha da genişləndirilməsi yolları müzakirə olunub.

Görüşdə nəqliyyat sahəsində əməkdaşlıq imkanları da nəzərdən keçirilərək qeyd edilib ki, Transxəzər Şərq-Qərb Orta Dəhlizi Şərqlə Qərbi birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolu artmaqdadır. Zəngəzur dəhlizinin açılması ilə bu axın daha da genişlənəcək. Sahibə Qafarova Koreya şirkətlərinin bu imkanlardan istifadə edə biləcəklərini diqqətə çatdırıb.

Görüşdə parlamentlər arasında əməkdaşlıq, son 2 ildə bu istiqamətdə intensivliyin artması müsbət hal kimi qiymətləndirilib və bu sahədə münasibətlərin daha da genişləndirilməsinə dair müzakirələr aparılıb.

Sahibə Qafarova regionda mövcud olan vəziyyət, Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində öz torpaqlarını Ermənistanın işğalından azad etməsi, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri, cari ilin 19-20 sentyabr tarixlərində Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri barədə geniş məlumat verib. Azərbaycanın regionda sülh və təhlükəsizliyin təmin olunmasında maraqlı olduğunu deyən Milli Məclisin Sədri bildirib ki, sülh müqaviləsinin imzalanması regionda daimi sülhü təmin edəcək. O, təəssüflə vurğulayıb ki, bəzi ölkələr Cənubi Qafqazda sülhün yaranmasını istəmirlər.

Milli Assambleyanın Sədri Jin-pyo Kim beynəlxalq hüquqa əsaslanmağın vacibliyini vurğulayaraq deyib ki, Azərbaycan regiona sülh gətirmək üçün böyük səylə işləyir. O, ümid etdiklərini bildirib ki, bu, nəticə verəcək və Azərbaycan sülhün əldə edilməsinə nail olacaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da inkişaf etdirilməsi yollarına dair müzakirələr aparılıb.

Sonra Azərbaycan parlament nümayəndə heyəti Milli Assambleyanın inzibati binası ilə tanış olub.

*"Azərbaycan"*

# Azərbaycanla Pakistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

Noyabrın 1-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Asim Munirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdən əvvəl Pakistan nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətən övladlarının xatirələrini ehtiramla anıblar.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov qonaqları salamlayaraq onları Azərbaycanda görməkdən məmnunluğunu bildirib. Nazir Azərbaycan-Pakistan-Türkiyə arasında həyata keçirilən ikitərəfli və üçtərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.

General A.Munir Azərbaycanın suverenliyi uğrunda canını fəda edən şəhidlərimizlə bağlı başsağlığı verib. Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsində belə görüşlərin əhəmiyyətini xüsusi vurğulayıb. İki ölkə ordularının qoşun növləri qərargahları arasında danışıqların aparılması və əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Pakistan nümayəndə heyəti ilə görüşüb.

Baş Qərargahda keçirilən görüşdə ölkələrimiz arasında hərbi əlaqələrin və strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb. İkitərəfli və üçtərəfli birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi bildirilib.

Daha sonra Hərbi Hava Qüvvələrinin qərargahında müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovla görüş keçirilib. Qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Keçirilən görüşlərin sonunda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Fransalı hüquq müdafiəçiləri Qarabağda etnik təmizləmənin olmadığını təsdiqləyiblər

Fransanın "Coordination des Associations et des Particuliers pour la Libert? de Conscience" ("CAP Freedom of Conscience" - CAP-LC) hüquq müdafiə təşkilatı Azərbaycan tərəfindən Qarabağın erməni sakinlərinə qarşı etnik təmizləmə aparılmadığını təsdiqləyib.

Bu barədə CAP-LC-nin "Avropa Hüquq və Ədalət mərkəzinin" Azərbaycanın Avropa Şurasında üzvlüyünün dayandırılmasını tələb edən petisiyasına cavabında deyilir.

Təşkilatın apardığı monitorinqin nəticələrinə əsasən vurğulanır ki, dinc əhaliyə qarşı təhlükənin olmadığını Ermənistanın baş naziri Nikol Paşinyan özü də təsdiqləyib.

"Bütövlükdə vəziyyət sabitdir. Mülki əhali arasında kütləvi itkilər barədə məlumatlar reallığa uyğun gəlmir. Bu gün Qarabağın mülki əhalisinə qarşı birbaşa təhlükə yoxdur", - N.Paşinyanın bunu sentyabrda dediyi xatırladılıb. Öz növbəsində, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ermənistandakı nümayəndəsi Kavita Bilan deyib ki, Qarabağın erməni sakinlərinə qarşı heç bir insident və ya kobud rəftar halları qeydə alınmayıb.

CAP-LC-nin bəyanatında qeyd olunub ki, Azərbaycan hakimiyyəti Qarabağda qalmaq istəyən ermənilər üçün təhlükəsizlik zəmanətlərini elan edib və geri qayıtmaq istəyənlər üçün xüsusi elektron vasitəni istifadəyə verib: "Veb-portalda (http://reintegration.gov.az) bir neçə dildə, o cümlədən erməni dilində Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının sosial, iqtisadi və hüquqi aspektləri haqqında məlumatlar var".

Müəlliflərin qənaətinə görə, obyektiv təhlil onu göstərir ki, insanların buradan məcburi şəkildə köçürülməsi, onların geri qayıtmasının qarşısının alınması və "etnik təmizləmə" ilə bağlı iddialar əsassızdır.

Qeyd edilib ki, "Avropa Hüquq və Ədalət Mərkəzi" Rusiyanın üzvlüyünə xitam verilməsinə dair əsaslarla Azərbaycanın Avropa Şurasına üzvlüyünün dayandırılmasını tələb edən petisiyaya başlayıb. CAP-LC isə bu tələbin ədalətsiz və əsassız olmasına dair sübutlar göstərir.

"Rusiyanın Ukraynaya hücumundan fərqli olaraq, Azərbaycan öz ərazisində və beynəlxalq hüquq normalarına uyğun hərəkət edib. Əməliyyat bir gündən az davam edib. Vizual məlumatlar Qarabağda yüzlərlə ağır texnikanın, artilleriya və hava hücumundan müdafiə sistemlərinin, milyonlarla döyüş sursatının və onlarla möhkəmləndirilmiş bölgələrin olmasını təsdiqləyib. Eyni zamanda bölgəyə iki dəfə səfər edən BMT missiyası heç bir mülki infrastrukturun dağılmadığını bildirib. Belə ki, əməliyyatın hədəfi yalnız qeyri-qanuni silahlı birləşmələrin hərbi infrastrukturu olub", - CAP-LC təşkilatının nümayəndələri bildiriblər.

Xatırladaq ki, BMT-də məşvərətçi statusu olan "Cap Freedom of Conscience" 1995-ci ildə yaradılıb. Avropanın bu qeyri-hökumət təşkilatı din və inanc azadlığı hüququnun qorunması ilə məşğuldur. Təşkilat ayrı-seçkiliyin bütün formaları ilə mübarizə aparır, bu barədə Avropanın, eləcə də digər beynəlxalq qurumlara məlumat verir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 389 **QƏRAR** Bakı şəhəri, 30 oktyabr 2023-cü il

## "Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 390 **QƏRAR** Bakı şəhəri, 31 oktyabr 2023-cü il

## "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Səsyazma Evinin tabeliyində olan Niyazi adına Dövlət Simfonik Orkestrinin, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin və Cahangir Cahangirov adına Xorun Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Səsyazma Evində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestri ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Heydər Əliyev Sarayına, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri və Cahangir Cahangirov adına Xor ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki Beynəlxalq Muğam Mərkəzinə verilsin.

2. Bu Qərarın 1-ci hissəsinə əsasən həmin kollektivlərin cari ildə maliyyələşdirilməsi Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsindən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə ayrılan maliyyə yardımının strukturunda həmin musiqi kollektivlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuş hədd çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi əsasında həyata keçirilsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üçün dövlət büdcəsi layihəsinin tərtibi zamanı aparılan islahatları nəzərə alsınlar və bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 391 **QƏRAR** Bakı şəhəri, 31 oktyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğulolma Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 502; 2022, № 6, maddə 674; 2023, № 3, maddə 435) ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğulolma Qaydası"na əlavə aşağıdakı redaksiyada verilsin:

**"Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) ümumi təhsil pilləsində tədris olunan fənlərə uyğunluğu**

| Sıra №-si | İxtisasların (proqramların) adı | İxtisasın uyğun gəldiyi ümumtəhsil fənni |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Filologiya (dil və ədəbiyyat göstərilməklə)* | dil və ədəbiyyat |
| 2. | Tarix* | tarix |
| 3. | Coğrafiya* | coğrafiya |
| 4. | Riyaziyyat* | riyaziyyat |
| 5. | Kimya mühəndisliyi | kimya |
| 6. | Biologiya* | biologiya |
| 7. | Tətbiqi biologiya** | biologiya |
| 8. | Kimya* | kimya |
| 9. | Tətbiqi kimya** | kimya |
| 10. | Mexanika | fizika |
| 11. | Fizika* | fizika |
| 12. | Tətbiqi fizika** | fizika |
| 13. | Tətbiqi riyaziyyat** | informatika |
| 14. | İnformatika** | informatika |
| 15. | Kompüter elmləri | informatika |
| 16. | Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi** | informatika |
| 17. | Kompüter mühəndisliyi | informatika |
| 18. | İnformasiya təhlükəsizliyi | informatika |
| 19. | Texniki sistemlərdə idarəetmə və informatika** | informatika |
| 20. | Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı** | informatika |
| 21. | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** | informatika |
| 22. | Hesablama maşınları kompleksləri, sistemləri və şəbəkələri** | informatika |
| 23. | İnformasiya emalının və idarəetmənin avtomatlaşdırılmış sistemləri** | informatika |
| 24. | Avtomatlaşdırılmış layihə sistemləri** | informatika |
| 25. | Hesablama texnikasının və avtomatik sistemlərin proqram təminatı** | informatika |
| 26. | İnformasiya texnologiyaları | informatika |
| 27. | Sistem mühəndisliyi** | informatika |
| 28. | Bədən tərbiyəsi və idmanda reabilitasiya | fiziki tərbiyə |
| 29. | Bədən tərbiyəsi və idman** | fiziki tərbiyə |
| 30. | Məşqçi (idman növü üzrə)** | fiziki tərbiyə |
| 31. | İnstrumental ifaçılıq** | musiqi |
| 32. | İnstrumental ifaçılıq (sahələr üzrə) | musiqi |
| 33. | Solo oxuma** | musiqi |
| 34. | Dirijorluq** | musiqi |
| 35. | Dirijorluq (sahələr üzrə) | musiqi |
| 36. | Bəstəkarlıq | musiqi |
| 37. | Musiqişünaslıq | musiqi |
| 38. | Estrada sənəti** | musiqi |
| 39. | Xalq çalğı alətləri ifaçılığı** | musiqi |
| 40. | Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri** | musiqi |
| 41. | Vokal sənəti (sahələr üzrə) | musiqi |
| 42. | Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) | musiqi |
| 43. | Xor dirijoru** | musiqi |
| 44. | İnstrumental ifaçılığı, orkestr alətləri, Azərbaycan xalq çalğı alətləri** | musiqi |
| 45. | Dekorativ sənət** | təsviri incəsənət |
| 46. | Dekorativ-tətbiqi sənət (sahələr üzrə) | təsviri incəsənət |
| 47. | Dekorativ-tətbiqi incəsənət və xalq sənəti (sahələr üzrə)** | təsviri incəsənət |
| 48. | Rəngkarlıq | təsviri incəsənət |
| 49. | Qrafika | təsviri incəsənət |
| 50. | Monumental-dekorativ sənət** | təsviri incəsənət |
| 51. | Kompozisiya** | təsviri incəsənət |
| 52. | Rəssamlıq** | təsviri incəsənət |
| 53. | Dizayn** | təsviri incəsənət |
| 54. | Dizayn (sahələr üzrə) | təsviri incəsənət |
| 55. | Dizayner-rəssam** | təsviri incəsənət |
| 56. | Heykəltəraşlıq | təsviri incəsənət |
| 57. | Xalçaçı-rəssam** | təsviri incəsənət |
| 58. | Modelyer-rəssam** | təsviri incəsənət |
| 59. | Memarlıq | təsviri incəsənət |

* 2010/2011-ci tədris ilinədək bu ixtisaslar üzrə ali təhsilin bakalavriat səviyyəsinə qəbul olunanlar pedaqoji təhsilə malik olan şəxslər hesab edilirlər.

** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı" qüvvəyə minənədək mütəxəssis hazırlığı aparılmış ixtisaslar (proqramlar) nəzərdə tutulur.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Nazir Vilayət Eyvazov Ağcabədidə vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də və noyabrın 1-də Ağcabədi Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Ağcabədi şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən aldığımız məlumata görə, rayon polis şöbəsinin inzibati binasında Ağdam, Bərdə, Laçın, Zərdab və Ağcabədi şəhər və rayonlarından qəbula gələn 96 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Ağcabədidə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və kazarma-məişət şəraiti ilə maraqlanıb.

Sonra daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib. Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 42-si Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla, xidmətə qəbulun şərtlərinə uyğun gələn 202 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Avropa Parlamentinin nümayəndələri regiona xaos və qeyri-sabitlik gətirməyə çalışırlar

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin deputatları Nikolas Bay, Mariyon Marişal və Vinçenzo Sofonun riayət etməli olduqları bütün qayda və davranış normalarını pozaraq, özünü ləğv etmiş və Azərbaycanın Qarabağ regionundan qaçmış keçmiş separatçı rejimin nümayəndələriylə birbaşa əlaqə yaratması ilə bağlı təxribat xarakterli, qeyri-etik və faktiki olaraq qanunsuz, davamlı olaraq təkrarlanan hərəkətlərinə görə dərin narahatlığını və narazılığını ifadə edərək qəti şəkildə etirazını bildirir.

Bu barədə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Avropa Parlamentindən olan bir sıra deputatların Ermənistana səfəri ilə bağlı bəyanatında deyilir.

" Bu hərəkətlər 30 il ərzində cinayətləri xarici havadarları tərəfindən ört-basdır edilən separatçılara açıq dəstək verməklə yanaşı, qondarma "demokratiya" carçılarının həqiqi niyyətlərinin bariz nümunəsidir.

Təəssüflər olsun ki, öz ənənəvi siyasətlərini davam etdirən Avropa Parlamentinin nümayəndələri hələ 1988-ci ildə Ermənistanın azərbaycanlıları kütləvi şəkildə qovduğu zaman "Sovet Ermənistanında vəziyyət" adlı qətnamə qəbul edərək, Ermənistanın ərazi iddialarına dəstək ifadə etmiş və bu ölkədə yaşayan azərbaycanlıların hüquqlarının pozulmasına göz yummuşlar.

Ümumbəşəri insan haqlarını, qanunun aliliyini və demokratiya dəyərlərini pərdələməyə çalışan fransız deputatlar başda olmaqla, Avropa Parlamentinin nümayəndələri Cənubi Qafqaz bölgəsinin daxili işlərinə kobud şəkildə müdaxilə edir, həmçinin regiona xaos və qeyri-sabitlik gətirməyə çalışırlar.

Özünü ləğv etmiş rejimin keçmiş "lideri" ilə görüşən Avropa Parlamentinin bir sıra üzvləri daha əvvəl qeyd edilən məqsədi güdərək, "xristian dəyərlərini" qorumaq pərdəsi arxasında nə dərəcədə riyakar olduqlarını bir daha beynəlxalq ictimaiyyətə nümayiş etdirmişlər.

Baş verən hadisələr bir daha onu göstərir ki, bu qurumun parlamentarilərinin islamofobiya, Azərbaycana, Türkiyəyə, ümumiyyətlə dünyadakı insanlığa qarşı nifrət və xristianlığın "üstünlüyünü" aşkar şəkildə nümayiş etdirməsi Avropa Parlamentinin hansı səviyyədə olduğunun birbaşa göstəricisidir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi təəssüf hissi ilə bildirir ki, avropalı parlamentarilərin artıq tendensiyaya çevrilən bu cür davranışları nəinki qəbuledilməzdir, həm də Azərbaycanla Ermənistan arasında gedən sülh prosesini ilk mərhələdəcə məhv etməyə yönəlmişdir. Həmin dağıdıcı qüvvələr öz mənfəətlərini güdərək, regionumuzu yenidən müharibə və xaos vəziyyətinə sürükləmək istəyirlər.

Biz Avropa Parlamentinin rəhbərliyindən təkcə regionda bu təxribatçı fəaliyyətə müvafiq qiymət verməyi deyil, həm də humanitar məsələlərdən siyasi və təxribatçı məqsədlər üçün istifadənin dayandırılmasını, həmçinin Cənubi Qafqaz bölgəsinin daxili işlərinə qarışmamağı və bununla da sülh prosesinə zərər verməməyi tələb edirik" -deyə bəyanatda bildirilir.

*"Azərbaycan"*

# Bakıda I Beynəlxalq TÜRKSOY Teatr Festivalının açılışı olub

Noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında I Beynəlxalq TÜRKSOY Teatr Festivalının açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, festival Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə gerçəkləşir.

Açılış mərasimində çıxış edən mədəniyyət naziri Adil Kərimli Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsindən sonra bir çox silsilə tədbirlərin keçirildiyini bildirib. Onun sözlərinə görə, bu gün işə başlayan I Beynəlxalq TÜRKSOY Teatr Festivalı da bu silsilənin davamıdır.

Nazir qarşıdakı illərdə də davamlı olaraq Türk dünyasında bu festivalın təşkil ediləcəyinə inamını ifadə edib.

TÜRKSOY-un Baş katibi Sultan Raev festivalın əhəmiyyətindən söz açıb. Qeyd edib ki, bu festival altı fərqli türk dövlətini və onların sənətçilərini bir araya gətirib.

"Festivalın əsas məqsədi bir- birimizi daha da yaxından tanımaq və incəsənətimizi daha da inkişaf etdirməkdir. Teatr sənəti bunu yaşadır və gələcək nəsillərə ötürür", - deyə Baş katib vurğulayıb.

Qeyd edilib ki, festival noyabrın 4-dək davam edəcək. Festivalda TÜRKSOY-a üzv ölkələrdən - Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı və Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının kollektivləri iştirak edirlər.

Diqqətə çatdırılıb ki, festival çərçivəsində Şuşada TÜRKSOY-a üzv ölkələrin dövlət teatrları rəhbərləri Şurasının 9-cu toplantısı keçirilib.

Sonra İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşası təqdim olunub. Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən bəhs olunur.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Səhnə əsərində rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Elşən Cəbrayılov, Elnar Qarayev, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Nigar Güləhmədova, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Corc Qafarov və Tural İbrahimov ifa ediblər.

Tamaşanın quruluşçu rəssamı İsmayıl Məmmədov, geyim rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Həmid Kazımzadədir. Tamaşada Xalq artistləri Polad Bülbüloğlu və Vasif Adıgözəlovun musiqi əsərlərindən istifadə olunub.

Qeyd edək ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında tamaşa ilk dəfə 1996-cı ildə nümayiş olunub. Tamaşa böyük müvəffəqiyyət qazanıb və 1997-ci il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyev Milli Dram Teatrının səhnəsində tamaşanı maraqla izləyib.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Ləyaqətli müharibə, möhtəşəm zəfər



*Dünya müharibələr meydanına çevrilib!*

*Dövlətlər bir-biriləri ilə silah dili ilə danışmağa başlayıblar!*

*Tökülən qanlardan torpaq doymur!*

*Dağıdılan şəhər və kəndlərin, uçurulan evlərin sayı-hesabı bilinmir...*

Artıq insan ölümü faciə sayılmır, gündəlik statistikaya çevrilib.

Daha qaçqınların gedəcəkləri yer, tapacaqları çörək, yaşayacaqları çadır şəhərcikləri də qalmayıb.

**BMT aciz duruma düşüb, Avropa İttifaqı ikili standartlarla işləyir, AŞ PA qərəzli, sifarişli bəyanatlar qəbul edir.**

*Beynəlxalq hüququ saya salan, onunla hesablaşan yoxdur!*

*İndi haqlılar yox, həm də güclü olanlar qalib gəlirlər!*

❖ ❖ ❖

Qarabağ müharibəsi qurtardı, Rusiya-Ukrayna müharibəsi başladı.

Rusiya-Ukrayna müharibəsi qurtarmamış Həmas-İsrail müharibəsi başladı.

**Son müharibələrdə ən çox narahatlıq doğuran cəhət mülki obyektlərin hədəfə alınması, yaşayış binalarının dağıdılması, şəhər və kəndlərin xarabalıqlara çevrilməsi, dinc əhalinin daha çox ziyan çəkməsi, qurban getməsidir.**

Müharibələr hələ də davam edir:

* Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanmayıb!
* Rusiya ilə Ukrayna danışıqlara gəlmir!
* Həmasla İsrail isə hərbi əməliyyatlara təzə başlayıblar!

*Lakin müəyyən təhlil aparmaq, nəticəyə gəlmək, müharibə meydanında baş verənləri ilkin qiymətləndirmək mümkündür.*

*Ən azı Qarabağ müharibəsi ilə müqayisəli şəkildə.*

❖ ❖ ❖

AZƏRBAYCAN ƏDALƏTLİ MÜHARİBƏ APARDI.

1988-ci ildə keçmiş SSRİ-də "yenidənqurma" adlı bir oyunbazlıqla başlanan və 1991-ci ildə qırmızı imperiyanın dağılması ilə başa çatan prosesdən bəhrələnən Ermənistan Azərbaycana məxsus keçmiş DQMV-ni və ona bitişik 7 rayonu işğal etdi.

**Bu işğala SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov gizli və açıq şəkildə dəstək verdi.**

**Bu işğalın baş tutmasına 366-cı sovet alayı kömək göstərdi.**

*Bu işğala şərait yaradan bir sıra səbəblər - həmin dövrdə Azərbaycana maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz insanların başçılıq etmələri, vaxtında ordu qurulmaması, torpaqların müdafiəsinin təşkil olunmaması, xəyanətkar əməllər, Azərbaycan xalqının əsl rəhbərindən uzaq düşməsi oldu.*

**BMT Azərbaycan torpaqlarının işğalı faktını qəbul etdi və bununla bağlı Təhlükəsizlik Şurasının dörd qətnaməsi qəbul olundu.**

Həmin qətnamələrdə açıq şəkildə göstərilirdi ki, "Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməlidirlər".

Beynəlxalq hüquq da Azərbaycanın tərəfində idi.

**Odur ki, Azərbaycanın öz torpaqlarını azad etmək uğrunda müharibəsi ədalətli müharibə sayılır!**

❖ ❖ ❖

AZƏRBAYCAN PEŞƏKAR MÜHARİBƏ APARDI.

*Artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə ATƏT-in Minsk qrupu yaradıldı.*

Azərbaycan bu qurum tərəfindən problemin dinc yolla həll ediləcəyinə inanırdı.

Lakin ...

**Otuz il müddətində ATƏT-in Minsk qrupu Bakıya və İrəvana saysız-hesabsız səfərlər etdi, çoxsaylı görüşlər keçirdi, həmsədr dövlətlər və qurum tərəfindən bir xeyli bəyanatlar və açıqlamalar verildi.**

**Nəticə isə nəticəsizlik idi.**

Azərbaycan sülh danışıqlarını aparmaqla bərabər, ordu quruculuğuna da mühüm diqqət və vəsait ayırırdı:

* Yeni vətənpərvər gənclər nəsli tərbiyə olundu;
* Ölkənin və xarici ölkələrin hərbi məktəblərində savadlı hərbi kadrlar, mütəxəssislər hazırlandı;
* Xüsusi təyinatlı qüvvələr formalaşdırıldı;
* Müntəzəm hərbi təlimlər keçirildi;
* Hərbi əməliyyatların yüksək peşəkarlıq səviyyəsində aparılması üçün zəruri işlər görüldü və vaxtdan səmərəli istifadə olundu!

*Hərbi əməliyyatın başlandığı ilk günlərdən Azərbaycan Ordusunun düşmən ordusundan peşəkarlıq baxımından nə qədər üstün olduğu açıq-aydın görünürdü.*

❖ ❖ ❖

AZƏRBAYCAN XXI ƏSRİN ƏN YENİ MÜHARİBƏSİNİ APARDI.

Azərbaycan Ordusu təkcə ən yeni texnologiyalara əsaslanan silahlarla təchiz edilməmişdi.

O, həm də ən yeni strategiya və taktika tətbiq edirdi.

**Hücum planlarının hazırlanması və hücum əməliyyatlarının həyata keçirilməsi, hədəflərin irəlicədən təyin edilərək dəqiq zərbələrlə vurulması, döyüş əməliyyatlarının idarə olunması, ordunun ruh yüksəkliyi ən yüksək səviyyədə idi.**

*Düşmənin hücum cəhdlərinin elə başlanğıcda iflasa uğradılması, atəş nöqtələrinin və müdafiə mövqelərinin sürətlə müəyyənləşdirilərək mərmi və PUA-larla darmadağın edilməsi, düşmən ordusunda arxa cəbhə ilə əlaqələrin iflic vəziyyətinə salınması, canlı qüvvə arasında qorxu və panika yaradılması, düşmənin gözləmədiyi, I Qarabağ müharibəsindən tam fərqli yeni döyüşlər aparılması qələbəni təmin edən ən mühüm amillər oldu.*

❖ ❖ ❖

AZƏRBAYCAN HÜCUM MÜHARİBƏSİ APARDI.

Müharibənin öz qanunları var: yazılmış və yazılmamış!

Yazılmamış qanunlar uzun illərin, çoxsaylı müharibələrin təcrübəsi əsasında formalaşıb.

Belə qanunlardan biri hücum əməliyyatı ilə bağlıdır.

Hər bir ordu hərbi əməliyyata başlayanda onu ən qısa müddətdə başa çatdırmağa can atır.

Bu halda müharibə tez başa çatır və itkilər də nisbətən az olur.

Lakin arzu bir şeydir, reallıq isə bambaşqa.

**Sürətli və qısamüddətli müharibə aparmaqdan ötrü güclü ordun, müasir silahların, peşəkar, yüksək hazırlıqlı şəxsi heyətin, fasiləsiz təminatın və təchizatın olmalı, ön cəbhə ilə arxa cəbhənin daimi və möhkəm əlaqəsi qurulmalıdır.**

Əsas məqamlardan biri isə zəngin kəşfiyyat bilgilərinə, düşmənin atəş nöqtələri, müdafiə sistemi, malik olduğu silahlar, habelə hücum zamanı qarşılaşa biləcəyin digər maneə və çətinliklər barədə məlumata malik olmaqdır!

*Azərbaycan hərbi əməliyyatlara başlayandan sonadək dayanmadan hücuma keçdi, daim irəli getdi.*

* Bu, tətbiq edilən yeni taktika və strategiya sayəsində mümkün oldu!
* Bu, ordunun sərəncamındakı ən müasir silahların sayəsində mümkün oldu!
* Bu, əsgər və zabitlərimizin yüksək peşəkarlığı, ruh yüksəkliyi, qorxmazlığı və igidliyi sayəsində mümkün oldu!
* Bu, hərbi əməliyyatların yüksək səviyyədə və bacarıqla idarə edilməsi sayəsində mümkün oldu!

*Beləliklə, 27 illik işğala ən qısa müddətdə - 44 gündə son qoyuldu!*

*44 gün ərzində Ermənistan ordusu darmadağın edildi, qorxaqlar və fərarilər yığnağına çevrildi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u qarşısında tab gətirə bilməyən düşmən silah-sursatını, tank və toplarını, zirehli texnikasını və avtomobillərini ataraq qaçmağa üz qoydu!**

**Əsl hücum müharibəsi baş tutdu!**

❖ ❖ ❖

AZƏRBAYCAN LƏYAQƏTLİ MÜHARİBƏ APARDI.

Müharibədə ölüm, dağıntı, əsir və girov düşmə, qaçqınlar və köçkünlər ordusunun yaranması təbii haldır.

Müharibədə mülki obyektlərə, dinc əhaliyə də ziyan dəyə bilər.

Şübhəsiz, əsas hədəf hərbi obyektlər, atəş nöqtələri, canlı qüvvə və hücum silahları sayılır.

*Lakin bəzən müharibə edən tərəflər əhali arasında qorxu və çaxnaşma yaratmaq məqsədilə yaşayış məntəqələrinə hücumlar təşkil edir, dinc insanları və onların yaşadıqları evləri hədəf seçirlər.*

I Qarabağ müharibəsi dövründə ermənilər Azərbaycana qarşı hərbi əməliyyatlarda şəhər və kəndləri sistemli şəkildə "Qrad" və mərmi atəşinə tutdular, dinc əhalini girov götürərək olmazın işgəncələr verdilər, yaşayış məntəqələrini xarabalığa çevirdilər, XX əsrin ən dəhşətli faciəsi sayılan Xocalı soyqırımını törətdilər.

**Beləliklə, vəhşi, barbar, murdar simalarını öz əməlləri ilə nümayiş etdirdilər.**

*II Qarabağ müharibəsində yenə eyni əməllər törətməyə cəhdlər etsələr də, gücləri və imkanları çatmadı.*

Yalnız hərbi əsirlərə qarşı vəhşiliklər törətdilər.

**Azərbaycan nə qədər güclü, hər növ silahlara və imkanlara malik olsa da, erməni barbarlığını təkrarlamadı.**

**Azərbaycan ləyaqətli müharibə apardı!**

**Azərbaycan düşməndən qisasını hərb meydanında, onun ordusunu darmadağın edərək aldı!**

*Sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri isə 23 saatda başa çatdırılaraq müharibələr tarixinə ən qısa hərbi əməliyyat və bir mülki vətəndaşa belə zərər vurulmayan yüksəksəviyyəli təmizləmə prosesi kimi düşdü!*

Beləliklə, 44 günlük hərbi əməliyyat və 23 saatlıq lokal xarakterli antiterror tədbirləri zamanı yerlərdəki erməni əhaliyə qarşı heç bir zorakılıq, etnik təmizləmə halları və mülki əhalinin hədəf seçilməsi baş vermədi.

Azərbaycan ərazisini tərk edənlərə isə nə dəyib-dolaşan, nə təzyiq göstərən, nə də maneçilik törədən oldu!

Bunu Azərbaycana gələn BMT missiyası da təsdiq etdi!

**Ləyaqətli xalq müharibəni də ləyaqətlə aparmağı bacarır.**

❖ ❖ ❖

AZƏRBAYCAN BİR NEÇƏ CƏBHƏDƏ MÜHARİBƏ APARDI.

Keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlanan gündən Azərbaycan təkcə düşmənə, onun müdafiəçilərinə və havadarlarına qarşı deyil, həm də ikili standartlarla çarpışmalı olub!

İlkin vaxtlarda həm beynəlxalq qurum və təşkilatlarda, həm də informasiya müharibəsində uduzub.

*Çünki dünya erməniliyinin əli hər yerə çatdığından, müxtəlif dövlətlərdəki, habelə Avropa İttifaqı və AŞ PA-dakı deputatları, senator və konqresmenləri korrupsiya və rüşvət yolu ilə ələ aldığından Ermənistan işğalçı və ədalətsiz tərəf sayılsa da, müdafiə edilirdi.*

**Hücum diplomatiyasına keçdikdən, Azərbaycan-Türkiyə diasporunun əlbir fəaliyyəti təmin olunduqdan sonra vəziyyət yaxşılığa doğru xeyli dəyişdi.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev II Qarabağ müharibəsinə hazırlaşarkən bütün bu məqamları irəlicədən nəzərə almışdı.**

Hər şey gözlənildiyi kimi oldu: Hərbi əməliyyatlar başlayan kimi dünya erməniliyi tərəfindən maliyyələşdirilən və pulla ələ alınan xarici KİV-i, o cümlədən informasiya agentlikləri, televiziya kanalları aktiv fəaliyyətə başladılar.

**44 günlük müharibə dövründə təkcə cənab İlham Əliyev 30-dan çox telekanala, informasiya agentliyinə və qəzetə 4 dildə müsahibə verdi.**

*Bir-iki jurnalist istisna olunmaqla qalan müxbirlərin sual və yanaşmalarında tərəfkeşlik, qeyri-obyektivlik, hətta bəzən qərəz də açıq-aydın hiss edilirdi.*

**İlham Əliyev bütün bu sualları təmkinlə, soyuqqanlılıqla cavablandırır, əsl həqiqətləri söyləyir, faktiki olaraq Azərbaycana qarşı yönləndirilən ermənipərəst mətbuatın öz tribunasından Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması yönündə istifadə edirdi.**

Diplomatiya sahəsində də gərgin çarpışma gedirdi.

Ermənistanın ağır məğlubiyyətə uğradığını görənlər status-kvonun qorunması üçün hərbi əməliyyatların dərhal dayandırılmasına can atır, fasiləsiz olaraq Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngləri edir, hətta hərdən təsir və ya təzyiqə də can atırdılar.

*Lakin Müzəffər Ali Baş Komandan qarşıya qoyduğu şərtlər yerinə yetirilməyənədək hərbi əməliyyatları dayandırmadı, Ermənistanı kapitulyasiya aktını imzalamağa vadar etdi!*

❖ ❖ ❖

AZƏRBAYCAN DAİM SÖZÜNƏ SAHİBLİK EDİR.

**Azərbaycan Prezidenti İlham Əliyev sözünün sahibi, dediyini edəndir.**

**Bütün dünya onun sözünün imzası qədər etibarlı olduğuna şahiddir.**

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatını Rusiya Prezidenti V.Putinlə Azərbaycanın dövlət başçısı İlham Əliyev televiziya kameraları qarşısında, Ermənistanın baş naziri Paşinyan isə haradasa gizlində imzaladı.

*Paşinyanın kapitulyasiya aktını bu sayaq imzalaması, əslində, onun mahiyyətinə tam uyğundur. Çünki Ermənistanın baş naziri gündə bir söz söyləyib sonra arxasından qaçmağa, dediyini danmağa, yalan söyləməyə meyillidir.*

Azərbaycan Prezidenti bu günədək kapitulyasiya aktındakı bütün razılaşmalara sadiq qaldığını sübut edib.

Paşinyan isə gah sözünü danır, gah özünə təzə ağa axtarır, gah da arabir revanşizmdən dəm vuraraq məğlub ordusunu yenidən silahlandırır.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev məqsədinə, hədəflərinə doğru inamla, dayanmadan gedir.**

Həm də nəyi nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirməklə!

Ermənistan Azərbaycanın təbii sərvətlərini oğurlayıb aparmaqda, ərazimizə Laçın yolu ilə mina, silah-sursat daşımaqda, qanunsuz hərbi birləşmələrinin rotasiyasını həyata keçirməkdə davam edirdi.

*Azərbaycan 23 aprel 2023-cü ildə Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaradaraq bütün bu yaramazlıqların qarşısını aldı.*

Ermənistan Xankəndidəki 11 min nəfərlik qanunsuz silahlı birləşmələrini çıxarmaq, terror və minalama əməllərinə son qoymaq istəmirdi.

*Azərbaycan 19-20 sentyabrda 23 saatlıq lokal xarakterli antiterror tədbirləri keçirərək Ermənistan ordusunun qalıqlarını ləğv, silah-sursatlarını və hərbi texnikalarını isə müsadirə etdi.*

Azərbaycan Xankəndidəki separatçı qurumun özünü buraxmasını tələb etdi.

*9 oktyabrda separatçı qurumun yeni "prezidenti" Şahramanyan qondarma qurumun fəaliyyətinə son qoyulduğu barədə "fərman" imzaladı.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində dövlət bayrağımızı ucaltmaqla Azərbaycan ərazisində separatizmin tam məhv edildiyini və ikiəsrlik Qarabağ probleminə son qoyulduğunu bütün dünyaya bəyan etdi.**

Azərbaycan sülh müqaviləsinin imzalanmasında, Zəngəzur dəhlizinin açılmasında, sərhədlərin delimitasiya və demarkasiya olunmasında da israrlıdır.

Seçim Ermənistanındır: könüllü və ya vadaretmə yolu ilə!

❖ ❖ ❖

AZƏRBAYCAN BAĞIŞLAMAĞI DA, CƏZALANDIRMAĞI DA BACARIR.

Azərbaycan qalib tərəfdir!

Qalibləri isə mühakimə etmirlər - bu, qədim misaldır!

**Amma qaliblər mühakimə edirlər, üstəlik, qanunun bütün sərtliyi ilə, həm də cəzalandırırlar.**

Azərbaycan 44 günlük Zəfər müharibəsindən sonra separatçılardan könüllü təslim olanların və silahı yerə qoyanların amnistiyası məsələsinə baxa biləcəyini bəyan etmişdi.

Azərbaycan həm də dinc əhaliyə qarşı qəddarlıq törədənlərin, separatçılıq hərəkatına rəhbərlik edənlərin və müharibə cinayətləri törədənlərin bir qismi barədə cinayət işi açaraq onları beynəlxalq axtarışa vermişdi.

*23 saat çəkən lokal xarakterli antiterror tədbirlərindən sonra qanunsuz erməni hərbi birləşmələri tərkibində döyüşənlər silahlarını yerə qoyduqdan sonra Laçın nəzarət-buraxılış məntəqəsindən keçərək Ermənistana getmələrinə heç bir maneə yaradılmadı.*

Nə onları incidən oldu, nə sorğu-suala çəkən, nə də zorakılıq törədən.

**Qondarma qurumun keçmiş "prezidentləri" həbs edilərək Bakıya gətiriliblər. Onlardan Arkadiy Qukasyan və Bako Sahakyan separatçı quruma rəhbərlikləri dövründə törətdikləri cinayətlərin hesabını verəcəklər.**

**Arayik Harutyunyan həm də Gəncənin ballistik raketlə vurulması əmrinə görə məsuliyyət daşıyır.**

**Ruben Vardanyan və Laçın nəzarət-buraxılış məntəqəsindən keçib qaçmağa cəhd edərkən yaxalanan Vaqif Xaçatryan isə terrorçuluqla bağlı əməllərinə görə sorğu-suala çəkilirlər.**

*Dustaqların hər biri vəkillə təmin olunub və saxlanma şəraitlərindən narazı deyillər.*

**İnanırıq ki, törətdikləri əməlləri araşdırılıb sübuta yetirildikdən sonra onlar verilən cəzadan da razı qalacaqlar.**

**Bəli, heç kim unudulmur, heç nə yaddan çıxmır!**

❖ ❖ ❖

AZƏRBAYCAN BÖYÜK QAYIDIŞI UĞURLA HƏYATA KEÇİRİR.

*Təkcə biz torpağımız üçün deyil, torpağımız da bizim üçün darıxıb!*

* Çünki torpaq da bilir ki, o, bizim doğma, əzəli və əbədi Vətənimizdir!
* Çünki torpaq da bilir ki, biz yaradan, quran, sülhsevər xalqıq!
* Çünki torpaq da bilir ki, onu əkib-becərib, qoynunu laləzarlığa yalnız biz çevirəcəyik!

Odur ki, artıq "məcburi köçkün" adını "itirən"lər tezliklə, lap tezliklə doğma yurda qovuşmağa can atırlar.

Bu istəkdə dövlət də onların yanındadır!

**Dövlət başçısı İlham Əliyev isə xalqın ən böyük arzusunu yerinə yetirdikdən sonra növbəti arzusunun - Böyük qayıdışın tezliklə baş tutması üçün hər bir şərait yaradır.**

Otuz il ərzində xarabalıqlara çevrilən, "ölüm toxumları" basdırılan, "tələ minaları" qurulan ərazidə quruculuq aparmaq asan deyil.

Əsas maneə minaların təmizlənməsidir və bu sahədə işin sürətlə getməsindən ötrü bütün tədbirlər görülür.

**İlham Əliyev keçmiş məcburi köçkünləri keçmiş kəndlərinə qaytarmır.**

**Bütün infrastrukturu, yeni iş yerləri, sahibkarlıqla məşğul olmaq üçün əlverişli imkanları, hər cür rahatlığı, təmirli mənzilləri olan, bağ-bağçalı "ağıllı" şəhər və kəndlərə qaytarır.**

İnsanlar toy-bayramla, gülə-gülə, həm də sevinclərindən ağlaya-ağlaya geri dönürlər.

Məktəblər, uşaq bağçaları, xidmət sahələri bütün yaş qrupundan olanların yolunu gözləyir.

Artıq 2 şəhər və 3 kənddə məskunlaşma olub.

2026-cı ilədək işğaldan azad edilən ərazilərə 34 min 500 ailənin köçürülməsi nəzərdə tutulub.

*Bu isə növbəti illərdə 160 min insanın ata-baba yurduna qayıtması deməkdir.*

❖ ❖ ❖

* Azərbaycan ləyaqətli müharibə apardı.
* Azərbaycan heç zaman mülki obyektləri, yaşayış binalarını hədəf götürmədi.
* Azərbaycan I Qarabağ müharibəsində Ermənistanın ona qarşı etdiklərini təkrarlamadı.
* Azərbaycan indiyədək görünməmiş sürət və peşəkarlıqla lokal xarakterli antiterror tədbirləri keçirdi.
* Azərbaycan kütləvi amnistiya tətbiq etdi, terrorçuların, qanunsuz hərbi birləşmələrdə ona qarşı vuruşanların ölkədən maneəsiz çıxmasına imkan yaratdı.

Halbuki bütün bunların əksini çox asanlıqla edə bilərdi.

**Bununla Azərbaycan ortaya alicənab müharibə nümunəsi də qoydu!**

**Bəxtiyar SADIQOV**



# Heydər Əliyev İli 2023

**Müstəqil Azərbaycan dövləti, möhkəm özülə söykənən dövlətçiliyimiz, dünyaya açılan qapılar, millətimizi uğurlu gələcəyə doğru aparan aydın, nurlu yol - bütün bu reallıqların hər birində Ulu Öndər Heydər Əliyevin imzası var. Bizlər hər addımda bu fenomen şəxsiyyətin nəcib əməllərinin gerçək nəticələri ilə qarşılaşır və Ümummilli Liderin öz xalqına, dövlətinə böyük sevgisinin şahidi oluruq.**


BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ!
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLIKASI ALI SOVETININ ORQANI
№ 214 (738) 4 NOYABR 1993-cü il CÜMƏ AXŞAMI Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur İNDEKS 66868 Qiyməti 2 manat
АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫНЫН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВИН 1993-ҹү ИЛ НОЈАБРЫН 2-дә ТЕЛЕВИЗИЈА ВӘ РАДИО ИЛӘ
ХАЛГА МУРАҸИӘТИ

# Bir inamın tarixi

## Ümummilli Lider 2 noyabr 1993-cü ildə Azərbaycan xalqına müraciət etmişdir

Tarixi hadisələrin ciddi təhlili zamanı görürük ki, ən mümkünsüz ideyalar məhz belə dahi insanlarda təcəssüm olur. Onlar ideyaların rəmzinə - nişanına çevrilirlər. Heydər Əliyev bütün ömrünü bu ideyaların gerçəkləşməsinə həsr etmişdir... Elə möhtəşəm tariximiz də belə şəxsiyyətlərin irəli sürdüyü ideyalardan güc alır. Onların gələcəklə bağlı arzu və amalları işığında formalaşır, bu insanların səfərbəredici qüdrəti, qətiyyəti ilə həyata keçir.

Ötən əsrin 80-ci illərinin sonlarından Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində məruz qaldığımız münaqişə 30 ildən sonra parlaq Zəfərimizlə başa çatdı. Vətən müharibəsindəki ardıcıl qələbələrimiz işğalçı Ermənistanı faktiki kapitulyasiya sənədini imzalamaq məcburiyyətində qoydu. Azərbaycanın möhtəşəm qələbəsi, Qarabağdakı separatçı yuvasının dağıdılması ilə regionumuzda yeni tarix başlandı. Ali Baş Komandan İlham Əliyevin 2023-cü ilin 15 oktyabrında Xankəndidə ucaltdığı üçrəngli bayrağımızla xalqımızın ağrı-acıları ilə dolu səhifə birdəfəlik qapandı. Azərbaycan dövləti özünün ərazi bütövlüyünü təmin etdi.

Bütün bunlar böyük bir tarixdir. Onun hər anı diqqətlə öyrənilməli, gələcək nəsillərə də ötürülməlidir. Azərbaycanın bu möhtəşəm əlamətdar günlərə necə gəlib çıxdığını aydın anlamaq üçün bu tarixi təxminən 30 il əvvəlin hadisə və prosesləri ilə bütöv halında götürmək lazım gəlir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda - ölkənin ağır böhranla, parçalanma təhlükəsi ilə üz-üzə qaldığı ağır günlərdə xalqın təkidli tələbini nəzərə alaraq hakimiyyət rəhbərliyinə qayıdışından sonrakı proseslər də bu tarixdə xüsusi yer tutur.

### Şəffaf siyasət

Ümummilli Lider həmin dövrdə Azərbaycanı qardaş qırğınından, vətəndaş müharibəsi təhlükəsindən qorumuş, ölkədə vəziyyətin nizama salınmasına doğru ilkin addımlarını atmağa başlamışdı. Təcrübəli dövlət adamının ən böyük uğurlarından biri heç nəyi xalqdan gizli saxlamaması, mövcud vəziyyət haqqında ictimaiyyətlə açıq kommunikasiyaya keçməsi, mütəmadi şəkildə televiziya, radio efirindən xalqa müraciət edərək mövcud duruma aydınlıq gətirməsində idi. Bu şəffaf siyasət, dürüstlük, dövlət rəhbərliyinin vətəndaşlarla səmimi və açıq dildə danışması cəmiyyətdə böyük rəğbətlə qarşılanır, xalq proseslərin hansı mərhələdə olduğundan, vəziyyətin nizama salınması üçün hansı addımların atılmasından xəbər alır və bütün bunlar Heydər Əliyevə ümumxalq dəstəyini daha da gücləndirirdi. Ümummilli Liderin Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti bu baxımdan mühüm tarixi əhəmiyyət kəsb edirdi.

Ulu Öndərin 2 noyabr 1993-cü il tarixli müraciəti ilk növbədə, mövcud vəziyyətə ümumi baxış, qiymətləndirmənin aparılması və proseslərin gələcək axarı ilə bağlı insanların məlumatlandırılması niyyəti daşıyırdı.

Heydər Əliyevdən əvvəl hakimiyyət rəhbərliyində olan təsadüfi şəxslərin ciddi yanlışlıqları ucbatından o zaman cəbhə bölgəsində vəziyyət xüsusilə kritik idi. Ən pisi də o idi ki, Qarabağ məsələsi Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan bir çox qrupların əlində siyasi alətə çevrilmişdi. O dövrdəki mövcud siyasi qruplaşmaların çoxu əslində elə Qarabağ münaqişəsi zəminində meydana gəlmişdi və mütəmadi şəkildə bu mövzudan istifadə edərək öz hakimiyyət iddialarını gerçəkləşdirməyə çalışırdılar. Müstəqillik yollarında ilk kövrək addımlarını atan Azərbaycan dövlətinin gələcək aqibəti, xalqın ağır vəziyyəti belələrinin marağında deyildi.

Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışından sonra da bu vəziyyətdən sui-istifadə cəhdləri yenə aktuallığını qoruyurdu. AXC-Müsavat cütlüyünün hakimiyyəti iflasa uğrasa da, ayrı-ayrı siyasi qüvvələr yaranmış fürsətdən öz məqsədləri, siyasi avantüraları, hikkələri üçün istifadə etməyə çalışır, Heydər Əliyevin Azərbaycanın xilası üçün yürütdüyü siyasətə, gördüyü işlərə qara yaxır, ləkə salmaq istəyir, eyni zamanda aramsız manipulyasiya cəhdləri edirdilər. Bütün bunlar isə daha çox ermənilərin əlinə fürsət verirdi.

### Ordu quruculuğu zərurəti

1993-cü ilin yayında Azərbaycanın ağır vəziyyətindən istifadə edən Ermənistan 5 rayonumuzu bir-birinin ardınca işğal etdi. Son olaraq 1993-cü ilin 29 oktyabrında Zəngilan rayonu işğal olundu, insanlar həyatlarını itirdi, on minlərlə vətəndaşımız yurdlarından didərgin düşərək qaçqına çevrildi. Onların çox hissəsi başqa yol olmadığına görə Araz çayı vasitəsilə İran ərazisinə keçdi və oradan çox çətinliklə respublikamızın digər rayonlarına gəlib çıxa, müvəqqəti sığınacaqlarda məskunlaşa bildi.

Heydər Əliyev müraciətində, ilk növbədə, vəziyyətin ağırlığını xalqla bölüşür, müharibə dövrünün faciəvi statistikasına diqqət yönəldirdi. Qeyd edək ki, Ulu Öndərin 2 noyabr tarixli müraciətinə qədər Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 16 min vətəndaşımız şəhid olmuş, 22 minə qədər adam yaralanmış, qaçqın və məcburi köçkünlərin sayı 1 milyon nəfəri keçmişdir. Ermənilər işğal etdikləri abad yurd yerlərimizi viran qoymuşdular. Əlbəttə, Ermənistan Azərbaycan torpaqlarını bizim həqiqi müstəqillik əzmimizi hiddətlə qarşılayan, ölkə rəhbərliyində öz emissarlarının olmasını istəyən havadarlarının əli ilə tutmuşdu. Amma bütün hallarda vəziyyətin bu qədər dramatik şəkil almasında ordu amilinin çox böyük rolu vardı: müstəqilliyini yenicə qazanmış Azərbaycanda ordunun formalaşmasında iştirak edən hərbi hissələr müxtəlif siyasi qrupların təsiri altında idilər. Bu isə cəbhə xəttində müdafiə potensialını zəiflədir, Azərbaycan silahlı birləşmələrinin bəzən döyüşmədən mövqelərindən geri çəkilməsinə səbəb olurdu.

Heydər Əliyev 2 noyabr 1993-cü il tarixli müraciəti zamanı problemin belə miqyas almasında ordu amilinin rolunu xüsusi vurğulamış, müstəqillik illərində ordu quruculuğu istiqamətində lazımi nəticələr ortaya qoya bilməyən əlaqədar hakimiyyət orqanlarının səmərəsiz fəaliyyəti barədə danışmış, eyni zamanda bütün ictimaiyyəti silahlı qüvvələrin gücləndirilməsinə yardım etməyə çağırmışdı.

Ümummilli Lider müraciətində qeyd edirdi ki, uğursuzluqlar, məğlubiyyətlər beş ildən artıq müddətdə Azərbaycanda gedən proseslərin məntiqi nəticəsidir. Təəssüf ki, bu müddətdə Azərbaycan Respublikasını idarə edən şəxslər, müvafiq orqanlar dövlətimizi qorumaq, onun ərazi bütövlüyünü təmin etmək üçün lazımi tədbirlər görməmişlər. Nəticədə təcavüzkar qüvvələr sürətlə irəliləmiş, respublikamızın mövqeləri itirilmiş və bütün bunlar indi bizi bu faciəli vəziyyətə gətirib çıxarmışdır. Heydər Əliyev vurğulayırdı ki, müstəqillik əldə etdikdən sonrakı iki il müddətində Azərbaycan dövləti öz müdafiə qüvvələrini, ordusunu yaratmalı idi. Bundan ötrü imkanlar vardı. Lakin mövcud fürsətlər əldən verilmiş, ölkənin müdafiə imkanları get-gedə möhkəmlənmək əvəzinə daha da zəifləmişdir: "Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan ayrı-ayrı döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olmamışdır. Belə hallar bəzən Azərbaycan ictimaiyyəti arasında cürbəcür əsassız təbliğatların yayılmasına gətirib çıxarmışdır. Əslində isə Azərbaycanın müdafiə qüvvələri, dediyim kimi, günbəgün, aybaay zəifləmişdir".

### Qəti mövqe

Həmin çıxışında Ümummilli Lider nizami ordunun qurulmasının vacibliyini qeyd edir, ordu quruculuğu ilə yanaşı, münaqişənin sülh yolu ilə həlli istiqamətində cəhdlərin davam etdiriləcəyini də bildirirdi. Böyük rəhbər Heydər Əliyev dünyanın bütün müdrik dövlət adamları kimi ruhən sülhpərvər insan idi. Ulu Öndər heç bir tərəfdən qan tökülməsini, itkilərin olmasını istəmirdi. Məsələnin sülh yolu ilə nizama salınması, Ermənistanın beynəlxalq hüquq normalarına, ölkələrin ərazi bütövlüyü prinsipinə əməl edərək torpaqlarımızdan çıxması üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. BMT-nin, indiki ATƏT-in, ABŞ, Rusiya, Türkiyə kimi dövlətlərin təşəbbüsləri, imkanları ilə münaqişənin yoluna qoyulmasına ardıcıl cəhdlər göstərirdi. Eyni zamanda Ermənistan rəhbərliyi ilə danışıqları davam etdirirdi. İstifadə edilən vasitə və imkanlar, sınanan yollar hər nə qədər müxtəlif və çoxşaxəli olsa da, Ümummilli Liderin mövqeyi, hədəfi dəyişməz idi. Respublikanın rəhbəri erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxması məsələsini bütün danışıqlarda, görüşlərdə qəti surətdə qoyurdu. Eyni zamanda istisna etmirdi ki, əgər danışıqlar bir nəticə verməzsə, Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir.

Ulu Öndər Azərbaycanın etibarlı müdafiə potensialının formalaşdırılmasının son dərəcə vacibliyini qeyd edərək bildirirdi ki, biz işğalçılıq, qəsbkarlıq siyasəti yeritmirik. Biz sadəcə olaraq torpaqlarımızı özümüzə qaytarmalıyıq, işğal edilmiş ərazilərimizi geri almalıyıq, Azərbaycanın ərazi bütövlüyünü təmin etməliyik. Bu, haqq işidir və bu yolda bütün imkanlardan istifadə edilməlidir.

### Milli birlik zamanı

Ümummilli Lider xalqımızda belə bir potensialı görürdü. Bəzi rayonlarımızın döyüşsüz düşmənə təslim edilməsinin, bəzi yaşayış məntəqələrimizi qorumaq üçün lazımi qədər müqavimət göstərilməməsinin günahını isə sadə vətəndaşlarda deyil, o dövrün naşı rəhbərlərində, içimizdəki xəyanətkarlarda görür və onlara qarşı barışmaz mövqe tuturdu: "Bəli, Azərbaycan xalqı qəhrəman xalqdır. Onun tarixində igidlik ənənələri həmişə güclü olmuşdur. Xalqımız öz qəhrəmanları ilə daim fəxr etmişdir. Azərbaycan xalqının qüdrəti bu gün də itməmişdir. Ancaq qeyd etdiyim kimi, son illərdə gedən mənfi proseslər insanların bir çoxunun mənəviyyatını pozmuş, onların bəzilərində vətənpərvərlik hissini tamamilə kütləşdirmişdir. Vətəni qorumaq, torpağa bağlı olmaq hissini, "ölsəm də, öz torpağımda şəhid olum" hissini çoxları itirmişdir. Bu, onların günahı deyil, onlara rəhbərlik edən adamların təqsiridir".

Sözügedən müraciətində Heydər Əliyev böyük təəssüf hissi ilə ordu birləşmələrimizdəki neqativ hallar haqqında da danışır, bir neçə il ərzində yığılmış nöqsan və çatışmazlıqların, ayrı-ayrı yerlərdə mənəviyyat pozğunluğuna, cinayətkarlığın artmasına, cinayətkar ünsürlərin üstün mövqe tutmasına, bütün bunların isə qəhrəman, mərd, mətanətli, cəsarətli Azərbaycan xalqının belə ağır, çətin vəziyyətə düşməsinə gətirib çıxardığını qeyd edirdi.

Ümummilli Lider yaranmış vəziyyətdən çıxmaq üçün xalqı milli birliyə, eyni məqsədlərə xidmət göstərməyə çağırırdı: "Bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları var. Lakin bundan ötrü gərək xalq bir məqsədə xidmət etsin. Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular, qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır". Bu böyük dövlət adamının müraciəti, səsləndirdiyi fikirlər həmin dövrdə hakimiyyət iddiasından əl çəkməyənlərə, yaranmış gərgin vəziyyəti fürsət bilib daha da ağırlaşdıranlara, su bulandıranlara da ibrət dərsi idi.

Ulu Öndər ölkəmizin müdafiə qüvvələrini möhkəmləndirmək üçün Azərbaycanda bütün mənəvi-psixoloji vəziyyətin dəyişməli olduğunu vurğulayır, bildirirdi ki, mövcud əhvali-ruhiyyə ilə Azərbaycanın bütövlüyünü təmin etmək mümkün olmayacaqdır: "Bir tərəfdə torpaqlarımız əldən gedib, yüz minlərlə adam qaçqın düşüb, ağır vəziyyətdə, yersiz-yurdsuz, çadırlarda (bəzən bunlar da çatışmır) yaşayır, o biri tərəfdə isə Azərbaycan torpağında yaşayan, onun çörəyini yeyib suyunu içən, havası ilə nəfəs alan, sərvətlərindən istifadə edən adamlar eyş-işrət içərisindədirlər. Hələlik onlarda Azərbaycanı qorumaq, müdafiə etmək əhvali-ruhiyyəsi yoxdur. Şübhəsiz ki, belə vəziyyətdə biz bu uğursuzluqların təbii olduğunu qeyd etməliyik. Ona görə də gərək bütün qüvvələrimizi toplayaq".

### Dönüş anı

Bu müraciətdən sonra, Azərbaycan ordusunun hazırlığı və imkanları çox qısa müddət ərzində gücləndirildi. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində böyük dəyişikliklər yaşandı. Bu dövrdə Azərbaycan Silahlı Qüvvələri, Ermənistan hərbi birləşmələrinə qarşı uğurlu hücum əməliyyatları ilə işğal olunmuş bəzi rayonların ərazilərinin bir hissəsini geri aldı. Bu uğurlu əməliyyatlardan sonra Ermənistan ordusu Azərbaycan ərazilərinə qarşı yeni işğal planlarını dayandırmaq məcburiyyətində qaldı. 1994-cü ilin 14 mayında atəşkəs elan edildi. Atəşkəsdən sonra Azərbaycanda ordu quruculuğu geniş vüsət aldı. Azad bazar iqtisadiyyatı yolunda mühüm nailiyyətlər qazanan, demokratik, hüquqi dövlət quruculuğu proseslərini uğurla həyata keçirən, milli birliyi gücləndirən Azərbaycan müstəqil dövlətçiliyinin əsaslarını da, müdafiə potensialını da möhkəmləndirdi. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik dərsləri işığında yetişən vətənpərvər nəsil illərlə aparılan məqsədyönlü hazırlıqla Qarabağın, Şərqi Zəngəzurun azadlığına nail oldu, erməni vandallarının tar-mar etdikləri yurdlarımızın yenidən qurulmasına başlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün tarixinin ən qüdrətli çağlarına yetişmiş dövlətimizin tarixi nailiyyətləri Ümummilli Lider Heydər Əliyevin bu Vətənin gələcəyi haqqında 30 il əvvəl dilə gətirdiyi ümidlərin, xalqımızın sarsılmaz milli ruhuna, qəhrəmanlıq və qurub-yaratmaq əzminə inamının təntənəsidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev diaspor hərəkatının əsasını qoymuşdur

Bu il 100 illik yubileyi qeyd olunan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müasir tarixini yaradan dahi şəxsiyyətdir. Böyük rəhbər dövrünün əsl əfsanəsi olmaqla dövlət quruculuğu kimi çətin tarixi vəzifəni üzərinə götürmüş və bu işi uğurla yerinə yetirmişdir. Heydər Əliyevlə görüşən hər kəs onun fantastik xarizmasından, qeyri-adi, güclü təxəyyülündən danışır. Azərbaycançılıq ideologiyasını həmrəylik simvoluna çevirən Ulu Öndər xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanmasına da mühüm töhfələr vermişdir.

Ümummilli Lider Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərində başladığı böyük azərbaycançılıq məfkurəsinin kökündə, 20 ildən sonra öz müstəqilliyini bərpa edən Azərbaycanın diaspor hərəkatının təməli qoyulmuşdu. Həmin illərə qədər azərbaycanlıların Rusiyada təhsil alması prosesi pərakəndə şəkildə təşəkkül tapmışdır. Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsi bu məsələdə ciddi dönüş yaratdı. Rusiyanın müxtəlif şəhərlərində ali təhsil almaq üçün kvotalar alındı. Minlərlə azərbaycanlı bu siyasətdən bəhrələnə bildi. Onların böyük əksəriyyəti vətənə dönsə də, müəyyən hissəsi Rusiya cəmiyyətinə inteqrasiya etdi. Bu siyasətin bəhrəsini biz ötən əsrin 90-cı illərində SSRİ-nin süqutundan sonra daha aydın gördük...

Müstəqilliyimizin bərpasından sonra məhz o illərdə təhsil alan kadrlar diaspor hərəkatımızın ilk qaranquşları oldular. Eyni zamanda Rusiyada hərbi təhsil alıb xidmət keçən zabitlərimiz vətənə dönüb yenicə formalaşan Azərbaycan Ordusunda xidmətə başladılar...

2001-ci ildə Rusiyada yaşayan azərbaycanlıların hüquq və mənafelərinin qorunması məqsədilə Ümumrusiya Azərbaycanlılar Konqresi yaradıldı. Bu məsələdə incə bir məqam var idi. Əslində, iki il əvvəl 1999-cu ildə Rusiyada azərbaycanlıların federal milli-mədəni muxtariyyatı qeydiyyatdan keçmişdi. Onda ikinci təşkilatın yaradılmasına nə lüzum var idi? Rusiyanın federal qanununa əsasən, federal milli-mədəni təşkilat yalnız RF-nin vətəndaşı olan azərbaycanlıların hüquq və mənafeyinin müdafiəsi və təbliği ilə məşğul ola bilirdi. 2000-ci illərdə isə RF-də yaşayan azərbaycanlıların böyük əksəriyyəti Azərbaycan Respublikasının vətəndaşları idi. Onlar yalnız bu ölkədə müvəqqəti yaşayış statusunda idilər. Məhz bu incə məqamı Ümummilli Lider sezərək öz nüfuzundan istifadə edib Ümumrusiya Azərbaycanlılar Konqresinin yaradılmasına nail oldu. Axı bu kateqoriyadan olan insanların da mənafeyi qorunmalıdır. Qısa zamanda Rusiyada müxtəlif dairələrdə fəaliyyət göstərən istər elm, istərsə də biznes sahəsində çalışan nüfuzlu azərbaycanlılar bir araya gəldilər.

Təsis konfransında RF prezidenti Vladimir Putin və Heydər Əliyev şəxsən iştirak etdilər. Bir ömür Moskvada yaşayan, bir-birini tanımayan neçə-neçə azərbaycanlının bir araya gəlməsi Heydər Əliyev şəxsiyyətinə hörmətin nəticəsi idi. Həmin təşkilat fəaliyyət göstərdiyi illərdə Azərbaycan mədəniyyəti ilə bağlı möhtəşəm layihələrə imza atmışdır. Rusiya subyektlərində Azərbycan mədəniyyəti günləri keçirilmişdir. Bu, RF-də Azərbaycan diaspor hərəkatının vüsət almasına böyük təkan verdi. Vilayətlərdə qubernator yanında Millətlər Şurasına Azərbaycan diaspor rəhbərləri üzv seçildilər. Məhz həmin kadrların sayəsində Rusiyada müasir Azərbaycan diasporunun intibah dövrü başladı.

Ümummilli Lider Heydər Əliyevin Moskvadakı böyük fəaliyyəti dövründə RF-nin bir çox vilayətində regionlarla bağlı mühüm strateji layihələrin həyata keçirilməsində mühüm rolu olmuşdur. Məsələn, 1973-1978-ci illərdə Arxangelsk vilayətində ərzaq təhlükəsizliyi ilə bağlı problem yaşanırdı. Arxangelsk vilayəti Rusiyanın şimal-şərq qütbündə yerləşir. İqlim şəraiti kənd təsərrüfatı üçün bir o qədər də əlverişli deyil. Həmin illərdə məhz Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin cənub respublikaları Rusiyanın şimal vilayətinin bir neçə subyektlərini himayəyə götürdü. Azərbaycanın da payına Arxangelsk vilayəti düşdü. O illərdə 5 il müddətində mütəmadi olaraq meyvə-tərəvəz məhsulları ilə Arxangelsk vilayəti Azərbaycan Respublikası tərəfindən təmin olundu. 1975-ci ildən başlayaraq müxtəlif obyektlərin, o cümlədən M-8 federal magistralının tikintisi ilə məşğul olan Pomorska ixtisaslı mütəxəssislər, mühəndislər, inşaatçılar və tələbə dəstələri də göndərildi.

Bu gün də o yanaşma həmin dövrün insanları tərəfindən xoş təəssüratla xatırlanır. Arxangelsk vilayətinin inkişafı üçün bu işlər indi də davam edir. Vilayətdəki Azərbaycan diasporunun bir çox üzvü üçün Pomorsk ikinci vətənə çevrilib. Azərbaycanlılar burada yaşlı insanlara, hərbçilərin ailələrinə dəstək verir, abadlıq işlərində iştirak edir, xeyriyyə tədbirləri təşkil edirlər.

Eynilə Ulyanovsk vilayətində 1984-cü ildə bu gün "Prezident körpüsü" adlanan layihənin reallaşdırılmasında Ulu Öndərin müstəsna xidmətləri olub. Sonralar həmin layihə Prezident İlham Əliyev tərəfindən davam etdirilərək tamamlanmışdır. Ümumiyyətlə, Rusiya Federasiyasının bir çox subyektində Heydər Əliyevlə bağlı parlaq bir qürurverici xatirənin izini görmək mümkündür. SSRİ-də istər Sov.İKP Siyasi Büro üzvləri, istərsə də o zamanının yetişdirdiyi siyasi fiqurların heç biri Heydər Əliyev zirvəsinə yüksələ bilmədi. Bunu biz yox, yerli ictimaiyyətin insanları bu gün də yüksək ehtiramla ifadə edirlər.

Hazırda Rusiya Federasiyasının regionlarında Azərbaycan diaspor təşkilatları aktiv şəkildə fəaliyyət göstərərək dövlətimizi və xalqımızı layiqincə təmsil edirlər. Bu baxımdan "Arxangelsk vilayətində Azərbaycan diasporu" regional ictimai təşkilatı da öz fəaliyyətində qarşıya qoyulan vəzifələri yerinə yetirməyə çalışır. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini hər bir vətənpərvər soydaşımız, eləcə də Arxangelskdəki diasporumuz da böyük sevinc hissi ilə qarşılayıb.

Diaspor olaraq tərəfimizdən "Heydər Əliyev İli" çərçivəsində bir çox tədbir keçirilib. Rusiyanın nüfuzlu "Arqumentı i Faktı" qəzetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə məqalələr dərc olunub. Rusiya Federasiyasının Arxangelsk vilayətində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan mini-futbol turniri keçirilib. Yeri gəlmişkən, turnirdə iştirak edən "Azərbaycan" komandası ikinci yerə çıxıb. Qarşıda "Heydər Əliyev İli" çərçivəsində keçiriləcək bir sıra tədbirlərimiz var.

Heydər Əliyev bütün ömrünü Azərbaycan üçün yaşamışdı. Ulu Öndər həyatının ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanmasında görürdü.

***Tərlan QASIMOV,***
***"Arxangelsk vilayətində Azərbaycan diasporu" regional ictimai təşkilatının idarə heyətinin sədri***

# Kanada sülhə əngəl törətməyə çalışır

Azərbaycanın 23 saatlıq antiterror tədbirlərindən sonra ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi Ermənistanın havadarlarını narahat edib.



Bədnam qonşumuza hamilik edən bir sıra dövlətlərin rəsmi nümayəndələrinin İrəvana səfər edərək ölkəmiz əleyhinə əsassız ittihamlar səsləndirmələri bunu təsdiqləyir. Bir neçə gün əvvəl Ermənistanda səfərdə olan Kanadanın xarici işlər naziri Melani Colinin obyektivlikdən tamamilə uzaq, qərəz dolu açıqlamaları bunun bariz nümunəsidir.

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, bir sıra Avropa ölkələri ilə yanaşı, regionla heç bir coğrafi yaxınlığı olmayan Kanada dövləti də Qafqazda cərəyan edən proseslərə müdaxilə edir və Azərbaycanın daxili işlərinə qarışmağa cəhd göstərir: "Kanadanın xarici işlər naziri Melani Colinin İrəvan səfəri zamanı səsləndirdiyi fikirlər də bu dövlətin Cənubi Qafqazda sülhün bərpasına mane olduğunu sübuta yetirir. Ümumiyyətlə, regionla coğrafi yaxınlığı olmayan bir ölkənin hökumət nümayəndəsinin bir neçə dəfə Qafqaza gəlməsi, burada absurd açıqlamalar verməsi, sülhü və birgəyaşayışı təhdid etməsi həqiqətən də anlaşılan deyil".

Deputatın sözlərinə görə, Kanadanın Aİ-nin Ermənistandakı missiyasına qoşulması da sual doğurur. Gedişat onu göstərir ki, Kanadanın bu prosesdə iştirakı ABŞ-nin oyunundan başqa bir şey deyil. "Ölkəmizə qarşı bu cür qərəzli, ədalətsiz bəyanatlar vermək mənasız bir işdir. Azərbaycan hansısa ölkələrin sanksiya hədələrindən çəkinmir. Nəzərə almaq lazımdır ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Zənnimizcə, bu həqiqətləri bütün dünya, eləcə də Kanada gözəl bilir. Yox, əgər doğrudan da bilmirsə, onda öyrənsin. Və bilsin ki, Qarabağ Azərbaycandır, bu torpaqlar bizimdir və ona nəzarəti də dövlətimiz həyata keçirir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Ona görə də xüsusilə bununla bağlı mövqe bildirərkən hər bir dövlət diqqətli olmalıdır", - deyə müsahibim bildirib.

Ceyhun Məmmədov əlavə edib ki, Ermənistanın havadarlarının cəfəng fikirləri bizi heç zaman narahat etməyib: "Onların bəyanatları boş kağız parçasından başqa heç nə deyil. Həm də 30 il ərzində erməni daşnaqlarının vəhşiliyi ucbatından öz doğma el-obasından didərgin düşmüş 1 milyona yaxın azərbaycanlının vaxtında dərdinə şərik olmayan dövlətlərin bu gün ermənilərin guya etnik təmizlənməsindən narahatlıq keçirmələri absurddur. Şübhəsiz ki, bu ölkələr öz maraqları naminə regionda gərginliyin dərinləşməsində maraqlıdırlar. Ona görə də İrəvandan oyuncaq kimi istifadə edirlər".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Yamsılama siyasəti

"Fransanın dünyada iki bacısı var, bunlardan biri Ermənistan, digəri isə Kanadadır. Fransa Ermənistanla hansı isti siyasəti həyata keçirirsə, Kanada da oxşar siyasəti yürütməkdədir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. O bildirib ki, Fransanın siyasi hakimiyyəti nə qədər ermənidən çox erməni olmaq istəyirsə, Kanada da onu yamsılamağa çalışır və analoji addım atır. Fransanın xarici işlər naziri Ermənistana gəlib Azərbaycan əleyhinə hansı ittihamlar səsləndirirsə, nə qədər yalan yayırsa, eyni yanaşmanı Kanadanın XİN rəhbəri də reallaşdırır. Bu, həmin Kanadadır ki, dünyanın pandemiya ilə üzüzə qaldığı, milyonlarla insanın həyatına bu xəstəlik ucbatından son qoyulduğu vaxtda "vaksin millətçiliyi" məsələsini gündəmə gətirdi. Bir çox inkişaf etmiş dövlətlər vaksinləri əhalisinin sayından dəfələrlə çox alaraq ehtiyat toplayırdılar. Belə ölkələrin sırasında öndə gedən dövlət Kanada idi. Kasıb ölkələrin insanları peyvənd çatışmazlığından dünyasını dəyişirdi, ancaq Kanada əhalisindən 3-4 dəfə çox vaksin ehtiyatı toplamışdı.

O dövrdə Prezident İlham Əliyevin beynəlxalq kürsülərdən "vaksin millətçiliyi"ni tənqid etdiyini, peyvəndlərin ölkələr üzrə bərabər, ədalətli bölgüsünü vacib saydığını xatırladan deputat qeyd edib ki, dövlət başçısı bununla bağlı BMT-nin müvafiq qətnaməsinin qəbuluna da nail oldu: "Bütün bunlar yəqin ki, Kanadanın yaddaşındadır. Bu ölkə ilk fürsətdə Azərbaycana qarşı təzyiq siyasətini həyata keçirməyə çalışır. Ancaq bunların heç bir mənası, faydası yoxdur. Azərbaycan qalib ölkədir və Kanada, Fransa kimi dövlətlərin regionda sülhün və təhlükəsizliyin əleyhinə fəaliyyət göstərdiklərini gözəl bilir. Bu gün Fransa Ermənistanı silahlandırır. Ermənistanı silahlandıran ölkə regionda sülh istəyərmi? Təbii ki, yox. Sabah Kanadanın da analoji addım atdığını görsək qətiyyən təəccüblənmərik".

E.Nəsirov hesab edir ki, 2024-cü ilin dövlət büdcəsində hərbi xərclərin daha da artırılması tam məntiqidir. Nə qədər ki, Ermənistanın Fransa, Kanada və onlar kimi bir çox xarici havadarları var, Azərbaycan həmişə güclü olmalıdır. "Hər zaman səfərbər olunmuş cəmiyyəti, vətəndaş birliyini qoruyub saxlamalıyıq. Dövlətimiz, Prezidentimiz ətrafında monolit birlik nümayiş etdirməliyik. Bu reallıqlar fonunda bizə qarşı istənilən təzyiqin öz hədəfinə çatma ehtimalı sıfıra bərabərdir", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Neokolonialist Fransa hansı haqla başqasını ittiham edir

Paris rəsmiləri ölkədəki iqtisadi böhran səbəbindən yaranan narazılıqlardan, müstəmləkəçilik siyasətində son zamanlar üzləşdikləri uğursuzluqlardan həm vətəndaşlarının, həm də dünya ictimaiyyətinin diqqətini yayındırmaq məqsədilə özlərinə hər mənada uzaq olan Cənubi Qafqazda oyunlar qurmaq fikrindədirlər. Bu müstəmləkəçi dövlətin Ermənistana "qayğıkeşliyi" də sevgisindən irəli gəlmir. Görünür, Cənubi Qafqazda məskunlaşmağa çalışan Fransa Ermənistandan yalnız vasitə kimi istifadə etmək niyyətindədir.



Məsələni o həddə çatdırıb ki, özü məğlubiyyətini boynuna almış, Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etmiş Ermənistan rəsmilərinin yerinə də düşünməyə, fikirlər səsləndirməyə səy göstərir. Fransa unudur ki, özü barədə başqa bir xalqın canıyananı kimi təsəvvür yarada bilməsi mümkünsüzdür. Əksinə, bununla işğalçı və saxtakar olduğunu bir daha təsdiq edir.

Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlamış, minlərlə vətəndaşını evindən, yurdundan didərgin salmış, girov götürmüş, xəsarət yetirərək sağlamlığını əlindən almış, şəhid etmiş Ermənistanın müdafiə ediləcək heç bir tərəfi yoxdur. Əgər Fransa dövləti doğrudan da demokratikdirsə, ədalət tərəfdarıdırsa, o zaman işğalçılıq, terrorçuluq etmiş Ermənistanın əməllərinə görə beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunmasına, layiq olduğu şəkildə cəzalandırılmasına çalışmalıdır. Haqq da, ədalət də o vaxt təsəlli edər. Paris rəsmiləri isə buna nəinki cəhd etmirlər, hətta edilməməsi üçün əllərindən gələni əsirgəmirlər. Səbəbi də hər kəsə bəllidir...

Həqiqət göz önündədir. Özü əsrlərdir işğalçılıq edən, müstəmləkə əsarətində saxladığı xalqları işgəncələrə məruz qoyan Fransa hansı haqla özü kimi işğalçını ittiham etsin? Bu, əlbəttə, məsələnin bir tərəfidir. Başqa səbəblər də var ki, onların ən əsaslarından biri rəsmi Parisin Cənubi Qafqazda münaqişə alovunun sönməsindən, sülhün bərqərar ola biləcəyindən narahatlığıdır.

Azərbaycan dövlətinin isə məqsədi sülhə nail olmaqdır. Həm də yalnız ölkəsində, yerləşdiyi regionda deyil, bütün dünyada sülhün, əmin-amanlığın bərqərar olmasının tərəfdarıdır və buna səy göstərir.

Oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan XXI əsrdə neokolonializmin artmasından olduqca narahatdır. Dövlətimizin başçısı qeyd etdi ki, Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən neokolonializmi hələ də davam etdirən ölkələr var, belə ölkələrdən biri və birincisi Fransadır. Müraciətdə Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkəni işğal və sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, fransız silahlı qüvvələrinin etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırıma məruz qoyduğu vurğulanıb: "XX əsrdə 30 il ərzində fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqı tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir".

Fransa öz sərhədlərini müstəmləkəçilik məqsədilə aşmağı, işğal etdiyi ölkələrin təbii sərvətlərini talayıb varlanmağı özünün məkrli ənənəsinə çevirib. Görmək istəmir ki, artıq əvvəlki vaxtlar deyil. Fransanın dünya ictimaiyyətindən, beynəlxalq qanunlardan belə çəkinmədən işğal etdiyi, illər, əsrlər boyu qarət etdiyi ölkələrin sakinləri bu gün artıq haqq səslərini ucaldırlar. Müstəmləkəsi altında saxlamaq üçün onlara dəhşətli işgəncələr vermiş, kütləvi qırğınlar, soyqırımları həyata keçirmiş Fransadan haqlarını tələb edirlər. Rəsmi Parisin isə həmin xalqlara deməyə sözü, özünə haqq qazandırmağa üzü yoxdur.

Fransanın müstəmləkə siyasətindən ən çox əziyyət çəkən ölkələrdən olan Əlcəzairin ali təhsil və elmi-tədqiqatlar nazirinin müşaviri Youcef Hourinin "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda keçirilən konfransda söylədiyi bu fikirlər olduqca ibrətamiz oldu: "Fransa hər kəsə insan hüquqları, beynəlxalq hüquq sahəsində dərs vermək istəyir. Lakin Fransa bizim planetimizdə dərs verə biləcək ən son ölkədir. İnsan haqları sahəsində onun dərs verməyə haqqı yoxdur".

Təəssüf ki, Paris rəsmiləri bu həqiqəti "yaddan çıxarırlar". Oktyabrın 27-də Fransa prezidenti Emmanuel Makron Avropa İttifaqı Şurasının Brüsseldə keçirilmiş iclası çərçivəsində Azərbaycana qarşı səsləndirdiyi əsassız və qərəzli iddialarla bunu bir daha təsdiq etdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin bu barədə açıqlamasında bildirildiyi kimi, onilliklər ərzində vasitəçi olarkən ölkəmizin 20 faiz ərazisinin Ermənistan tərəfindən işğalına göz yuman və ərazilərimizdə separatizmi təşviq edən Fransanın Azərbaycan tərəfini Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid yaratmaqda ittiham etməsi gülünc və qəbuledilməzdir. Fransa heç vaxt uğurlu vasitəçilik səyləri aparmayıb və onun keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə vasitəçiliyi Minsk qrupu ilə birlikdə başa çatıb.

Bildirildi ki, məhz Fransanın iştirak etdiyi vasitəçilik səylərinin nəticə verməməsi və Ermənistanın işğalçı siyasətinin qarşısının alınmaması Azərbaycanı öz torpaqlarını hərbi yolla azad etməyə sövq edib: "Bu xüsusda, Fransanın mövqeyi onun keçmiş müstəmləkə bölgələrindəki mövcud vəziyyətdən dərs almaqdan imtina etdiyini nümayiş etdirir. Bunun əksinə, Fransa inadkarcasına Afrika və digər regionlardakı uğursuzluqlarını bölgəmizə əvvəlcədən uğursuzluğa məhkum olmuş müdaxiləsi ilə kompensasiya etməyə çalışır. Əgər Fransa keçmiş müstəmləkələrindəki kövrək mövcudluğundan irəli gələn məsələləri daha az ağrısız həll etmək istəsə, Azərbaycan bu istiqamətdə vasitəçilik xidmətlərini təqdim edə bilər".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"`***

# Ermənistanın "qaçqın" səhnəciyi

"Azərbaycan Vətən müharibəsində şanlı qələbəsini qazandıqdan sonra təkcə ölkəmizdə deyil, bölgədə yeni geosiyasi reallıqlar formalaşdırdı. Hazırda postmüharibə dövründə rəsmi Bakı sülh gündəliyini elan edib və bu istiqamətdə bütün vacib addımları atmaqdadır. Ermənistan isə hələ də sülhə gedən yolda bu və ya digər formada əngəllər yaradaraq hər hansı əməli addımlar atmamaqdadır".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputat bildirib ki, Ermənistan hazırkı situasiyada digər qüvvələrin təsiri altında qeyri-rasional siyasət həyata keçirir. Azərbaycanın Qarabağ bölgəsini - Xankəndini və ətraf rayonları öz istəkləri ilə tərk edib Ermənistana gedən ermənilər başlı-başına buraxılıblar. Onlar Ermənistan hökumətindən müvafiq məbləğ alaraq müxtəlif ərazilərə səpələniblər. Rəsmi İrəvanın məqsədi humanitar böhran obrazı yaratmaq və bununla da beynəlxalq təşkilatlardan, dövlətlərdən maliyyə yardımı almaqdır. Ümumiyyətlə, Ermənistan Qarabağdan ermənilərin guya qovulması mənzərəsini dünyaya göstərməyə çalışır. Lakin fakt faktlığında qalır. Azərbaycan tərəfi erməni vətəndaşlarının ərazidə qalmaları, yaşamaları üçün reinteqrasiya proqramını elan edib və təbii ki, Qarabağdan gedən insanlar qaçqın və digər statuslar ala bilməzlər.

V.İsgəndərovun sözlərinə görə, Qaçqınların statusu haqqında Konvensiyaya əsasən, o şəxslər qaçqın hesab edilir ki, onlar 1926-cı il 12 may, 1928-ci il 30 iyun sazişlərinə, 1933-cü il 28 oktyabr, 1938-ci il 10 fevral konvensiyalarına və onun protokollarına və ya Beynəlxalq Qaçqınlar Təşkilatının Nizamnaməsinə görə qaçqın sayılsınlar: "Qaçqınlar fərdi, yaxud qrup şəklində evlərini tərk etmək məcburiyyətində qalan insanlardır. Onlar irqi mənsubiyyətlərinə, dini etiqadına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olduqları üçün vətəndaşı olduğu ölkədən kənarda qalan, təqiblərin qorxusundan bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı yerdən kənarda qalan, qorxduğu üçün ora qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxslərdir. Qeyd etmək lazımdır ki, qaçqın və məcburi köçkün probleminin siyasi kökləri beynəlxalq münasibətlər sistemində gərginləşən situasiyalarda siyasi-hərbi konfliktlərlə birbaşa bağlıdır".

Deputat vurğulayıb ki, beynəlxalq qurumlar öz missiyasını lazımi şəkildə yerinə yetirmədikdə problemin həlli qeyri-mümkün olur. Azərbaycan 30 il bunun şahidi olub. Hazırkı situasiyada Azərbaycan ərazisini tərk edən ermənilər beynəlxalq hüquqla qaçqın sayıla bilməzlər, çünki onlar Azərbaycan tərəfindən heç bir təqibə, təhqirə, qovulmaya məruz qalmayıb, irqi, dini və digər hüquqlarının əlindən alınması faktları mövcud deyil. Digər tərəfdən, əgər Ermənistan tərəfi onlara qaçqın statusu verirsə, bu, Azərbaycanın ərazi bütövlüyünün tam tanınması deməkdir. Çünki o statusda onlar digər bir ərazidən, yəni Azərbaycanın Qarabağ iqtisadi zonasından gəlmiş sayılır, bu da o deməkdir ki, Ermənistan de-fakto və de-yure olaraq Qarabağı Azərbaycanın suveren ərazisi sayır.

V.İsgəndərov vurğulayıb ki, ümumiyyətlə, beynəlxalq konvensiyalara görə, Qarabağdan gedən ermənilər bu statusdan yararlanmalı deyillər. "Təbii ki, Ermənistan qaçqın statusunu onlara verməklə beynəlxalq humanitar, donor, lobbiçiliklə məşğul olan təşkilatlardan pul qoparmaq məqsədi güdür. Lakin hazırkı vəziyyətdə heç bir ciddi beynəlxalq təşkilat bu insanları qaçqın saymır və onlar qaçqın sayıla da bilməzlər", - deyə o əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# 5 prinsipin yerinə yetirilməsi dəyişməz şərtdir

"Lokal antiterror tədbirləri nəticəsində Xankəndidə Azərbaycan bayrağının dalğalandırılması ilə suverenliyimiz tam bərpa olundu. Bundan sonra əsas gündəm sülh müqaviləsinin imzalanmasıdır. İndiyədək sülh danışıqları müxtəlif platformalarda, Rusiya və Avropanın vasitəçiliyi ilə keçirilib. Bu gün artıq elə bir vəziyyət yaranıb ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün heç bir əngəl yoxdur. Müqaviləyə imza atmaq üçün Azərbaycan tərəfinin təklif etdiyi beş baza prinsipinə əməl etmək kifayətdir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat qeyd edib ki, sentyabrın 19-20-də reallaşdırılan antiterror tədbirləri sülh sazişinin imzalanması üçün yeni imkanlar yaradıb. Bu imkanlardan yaxşı mənada faydalanıb regionda sülh və əmin-amanlığın bərpasına qısa zamanda nail olmaq lazımdır.

Arzu Nağıyev bildirib ki, yeni reallıqlar fonunda Ermənistan tərəfi bir daha başa düşməlidir ki, sülhün bərqərar olmasının onların özlərinə daha çox xeyri dəyər. Təklif etdiyimiz 5 prinsipin yerinə yetirilməsi şərtdir. Bu qəbul olunandan sonra vəziyyət normallaşacaq, Zəngəzur dəhlizi açılacaq, digər məsələlər də həllini tapacaq. Ona görə də vaxtı uzatmadan ən düzgün və optimal yolu seçib sülhə gəlməyin tam zamanıdır.

"Sadəcə olaraq Ermənistanda baş verən daxili çəkişmələr, həyata keçirilən uğursuz daxili və xarici siyasət, revanşist ideyalar sülhə əngəl törədərək onların tərəqqi yolunu bağlayır. Bundan başqa, Qarabağdan gəlmiş ermənilərlə yerli ermənilər arasında yaranan narazılıqlar, onlara "qaçqın" statusunun verilməsi ilə bağlı absurd işlərlə məşğul olmaq ermənilərin bu fürsəti əldən qaçırmalarına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, hazırkı mövcud vəziyyət Ermənistan üçün əsl fürsətdir. Çünki antiterror tədbirləri nəticəsində Azərbaycan istəyinə nail olub, üstəlik, Zəngəzur dəhlizinə alternativ yol çəkilir. Yəni bundan sonrakı mərhələdə Ermənistanın sülhdən yayınması Azərbaycanı maraqlandırmaya bilər. Azərbaycan özü təkbaşına haqq-ədaləti bərpa etmək gücündədir", - deyə deputat vurğulayıb.

Arzu Nağıyev onu da deyib ki, Ermənistan Fransa və digər havadarlarının əlində alətə çevrilib. Onlara hamilik edən təşkilat və ölkələr lazım gələndə regionda öz maraqlarını təmin etmək üçün Ermənistandan sui-istifadə edirlər.

"Ermənistan rəhbərliyi düşünməlidir ki, bu gün sülh sazişinin imzalanmaması, kommunikasiyaların açılmaması onu nə qədər geri atır. Boş vədlər verilməsinə baxmayaraq, kimsə onların iqtisadiyyatını dirçəldən deyil. Nəzərə almaq lazımdır ki, hər ölkənin öz maraqları var. Eyni zamanda erməniləri silanlandırmaq da onları boyunduruğa salmaq, gələcəkdə asılı vəziyyətə qoymaq niyyətindən irəli gəlir. Ermənistan bu gedişlə müstəmləkə siyasətinin qurbanına çevrilə bilər. Ona görə də onun yeganə yolu Azərbaycanla sülh müqaviləsi imzalamaqdır", - deyə deputat qeyd edib.

Arzu Nağıyev söyləyib ki, sərhədlərimizdən çox da uzaqda olmayan ərazilərdə müharibələrin baş verməsi də sülh müqaviləsinin imzalanması üçün əsl məqamın yetişdiyini sübut edir: "Əks halda, ermənilər əbədi olaraq problemlər və çətinliklərlə yaşamağa məhkum olacaqlar. Azərbaycan bu gün diktə edən, qalib tərəfdir və sülhün bərqərar olması üçün bütün humanist addımları atır. Ermənistan hakimiyyəti də buna adekvat addımlar atmalıdır".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 384** **QƏRAR** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1429; 2017, № 4, maddə 674; 2018, № 4, maddə 812; 2019, № 6, maddə 1158; 2020, № 11, maddə 1411) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin üçüncü cümləsində "1 aydan" sözləri "30 (otuz) gündən (arxeoloji ekspedisiyalarda 60 (altmış) gündən)" sözləri ilə əvəz edilsin və həmin cümlədən "hər ay" sözləri çıxarılsın;

1.2. 2.3-cü bəndə "30 (otuz) gün" sözlərindən sonra "(arxeoloji ekspedisiyalarda ən çox 60 (altmış) gün)" sözləri əlavə edilsin;

1.3. 2.9.3-cü yarımbəndə "3" rəqəmindən sonra "(arxeoloji ekspedisiyalarda 10)" sözləri əlavə edilsin;

1.4. həmin Qaydalara əlavə - "Azərbaycan Respublikasında elmi ekspedisiyalar və çöl işlərinin aparılması üzrə xərc normaları" üzrə:

1.4.1. 2-ci hissə üzrə:

1. birinci abzasa "Görüləcək (aparılacaq) işlərin adı" sütununa "3" rəqəmindən sonra "(arxeoloji ekspedisiyalarda 10)" sözləri əlavə edilsin;

2. dördüncü abzasda "Məbləğ (manatla)" sütununda "8" rəqəmi "25" rəqəmləri ilə əvəz edilsin;

1.4.2. 3-cü hissənin "Məbləğ (manatla)" sütunu üzrə:

1. ikinci abzasda "12" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

2. üçüncü abzasda "10" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin;

3. beşinci abzasda "5" rəqəmi "25" rəqəmləri ilə əvəz edilsin.

2. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 385** **QƏRAR** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## "Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı"nın təsdiq edilməsi haqqında

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

## Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin

## SİYAHISI

1. Bu siyahı "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinə əsasən hazırlanmışdır.

2. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlər aşağıdakılardır:

2.1. məhkəmə ekspertizası və kriminalistika ixtisasları üzrə xarici ölkələrdə verilmiş elmi dərəcələri və elmi adları təsdiq edən diplomlar, attestatlar və ya digər sənədlər (nostrifikasiya olunmuş (ekvivalentliyi müəyyən edilmiş və tanınmış) və ya təkrar attestasiya əsasında tanınmış);

2.2. aşağıdakı beynəlxalq təşkilatlar tərəfindən verilən və tam təlim proqramının bitirməsini təsdiq edən sertifikatlar və ya digər sənədlər:

2.2.1. Diplomlu Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA - Association of Chartered Certified Accountants) tərəfindən verilən sertifikatlar və ya digər sənədlər;

2.2.2. Amerikanın Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (AICPA - American Institute of Certified Public Accountants) tərəfindən verilən Sertifikatlaşdırılmış İctimai Mühasib (Certified Public Accountant) sertifikatı;

2.2.3. Psixoloqlar Assosiasiyalarının Avropa Federasiyası (EFPA - European Federation of Psychologists Associations) tərəfindən verilən Psixologiya üzrə Avropa Sertifikatı (EuroPsy - European Certificate in Psychology);

2.2.4. CFA İnstitutu tərəfindən verilən Diplomlu Maliyyə Analitiki (CFA - Chartered Financial Analyst) sertifikatı;

2.2.5. Odlu Silah və Alət İzləri üzrə Ekspertlər Assosiasiyası (AFTE - Association of Firearm and Toolmark Examiners) tərəfindən verilən sertifikatlar və ya digər sənədlər;

2.2.6. Elektronika Sahəsində Mütəxəssislər Assosiasiyası (ETA - Electronics Technicians Association) tərəfindən verilən sertifikatlar və ya digər sənədlər;

2.2.7. Sistem Mühəndisliyi üzrə Beynəlxalq Şura (INCOSE - International Council on System Engineering) tərəfindən verilən Sistem Mühəndisliyi Sahəsində Yüksək İxtisaslı Mütəxəssis (ESEP - Expert Systems Engineering Professional) sertifikatı;

2.2.8. İdentifikasiya üzrə Beynəlxalq Assosiasiya (IAI - International Association for Identification) tərəfindən verilən sertifikatlar və ya digər sənədlər;

2.3. məhkəmə ekspertizası fəaliyyəti və kriminalistika sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq keçirilən məhkəmə ekspertizası ixtisası üzrə tam proqramı əhatə edən təlimlərin bitirməsini təsdiq edən sertifikatlar və ya digər sənədlər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 387** **QƏRAR** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 388** **QƏRAR** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## "Azərbaycan Respublikasının mülki donanmasının gəmilərinin şəxsi heyətinin hərbi-dəniz hazırlığı Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının mülki donanmasının gəmilərinin şəxsi heyətinin hərbi-dəniz hazırlığı Qaydaları" təsdiq edilsin (əlavə olunur, məxfi).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 386** **Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

**QƏRAR**

## "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1139 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 17.5-1-ci bəndinə uyğun olaraq hazırlanmışdır və aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsinə dair tələbləri və icra mexanizminin əsaslarını müəyyən edir, habelə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və digər beynəlxalq mülki aviasiya təşkilatlarının beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi nəzərə alınmaqla, aviasiya subyektləri, həmçinin aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə üzərinə öhdəliklər götürmüş digər subyektlər (bundan sonra - yoxlanılan subyektlər) tərəfindən təhlükəsizlik sisteminin tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təşkilati və hüquqi məsələləri tənzimləyir.

1.2. Bu Qaydanın müddəaları mülki aviasiya sahəsində aviasiya təhlükəsizliyinin təmini məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən (bundan sonra - Aviasiya Agentliyi) yoxlanılan subyektlərə münasibətdə aparılan yoxlamalara şamil olunur.

1.3. Bu Qaydanın məqsədi mülki aviasiya fəaliyyətinin qanunsuz müdaxilə aktlarından qorunması üzrə tətbiq edilən tədbirlərin səmərəliliyinin artırılması, yoxlanılan subyektlərdə aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində tətbiq olunan qayda və prosedurların Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"na (bundan sonra - Dövlət Proqramı) və Qaydalara uyğunluğunun müəyyən edilməsindən, aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə qabaqlayıcı tədbirlərin təkmilləşdirilməsi və aviasiya təhlükəsizliyinin təmini sistemində aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılmasına yönəldilmiş tədbirlərin müəyyən edilməsindən ibarətdir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayış-lardan istifadə edilir:

2.1.1. aviasiya personalı - ali, texniki və ya xüsusi hazırlıq keçmiş və ixtisas qeydləri əks olunmuş şəhadətnamələrə, vəsiqələrə (sertifikatlara) malik olan və aviasiya sahəsində müəyyən işlərin yerinə yetirilməsinə buraxılan mütəxəssislər;

2.1.2. aviasiya subyekti - aviasiya müəssisəsi, hava limanı (aeroport), aerodrom, istismarçı;

2.1.3. aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə üzərinə öhdəliklər götürmüş digər subyektlər - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq nizamnaməsinə və ya müqaviləyə görə mülki aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə öz üzərinə öhdəliklər götürmüş aviasiya subyekti olmayan müəssisələr;

2.1.4. aviasiya təhlükəsizliyi - insanlardan və maddi resurs-lardan istifadə etməklə, aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması üzrə tədbirlər kompleksi;

2.1.5. aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar - mülki aviasiyanın təhlükəsizlik sisteminin vəziyyətinin qiymətləndirilməsi, Dövlət Proqramı və Qaydaların tələblərinə uyğunluğunun müəyyən edilməsi və aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üzrə keçirilən tədbirlərin məcmusu;

2.1.6. təhlükəsizlik sisteminin sınağı - qanunsuz müdaxilə aktına cəhdi süni şəkildə yaratmaqla aviasiya təhlükəsizliyinin təmini üzrə istənilən tədbirin gizli və ya aşkar yolla yoxlanılması;

2.1.7. təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlaması - aviasiya subyektlərinə və aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə üzərinə öhdəliklər götürmüş digər subyektlərə əvvəlcədən məlumat verilməklə və ya belə məlumat verilmədən aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə sahəvi tələblərin tətbiqinin yoxlanılması;

2.1.8. təhlükəsizlik vəziyyətinin audit yoxlaması - aviasiya subyektləri, həmçinin aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə üzərinə öhdəliklər götürmüş digər subyektlər tərəfindən Qaydaların tələblərinin yerinə yetirilməsinin təfərrüatlı yoxlanılması.

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda, Dövlət Proqramında və Qaydalarda, habelə bu sahəni tənzimləyən digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

### 3. Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi üzrə vəzifələr

3.1. Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamalar (bundan sonra - müvafiq sahədə yoxlamalar) Aviasiya Agentliyi tərəfindən həyata keçirilir.

3.2. Aviasiya Agentliyinin müvafiq sahədə yoxlamaların təşkil edilməsi üzrə vəzifələri aşağıdakılardır:

3.2.1. mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi sahəsində bu Qayda ilə müəyyən edilmiş tələblərin yerinə yetirilməsini təmin etmək;

3.2.2. yoxlanılan subyektlər tərəfindən aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində qayda və prosedurların icra edilməsinə nəzarəti həyata keçirmək;

3.2.3. yoxlanılan subyektlərdə aviasiya təhlükəsizliyinin ICAO-nun beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğunluğunun müəyyən edilməsi məqsədilə müvafiq sahədə yoxlamaların təşkilini təmin etmək;

3.2.4. müvafiq sahədə yoxlamaların illik qrafikini hazırlamaq və mülki aviasiyanın təhlükəsizliyi üzrə təhdidlərin və risklərin qiymətləndirilməsi əsasında nəzarət tədbirlərinin prioritetliyini və dövriliyini müəyyən etmək;

3.2.5. müvafiq sahədə yoxlamaların qeydiyyatı sistemini yaratmaq və müvafiq sənədlərin saxlanılmasını və mühafizəsini təmin etmək;

3.2.6. müvafiq sahədə yoxlamaların nəticələrini təhlil etmək, aşkar edilmiş uyğunsuzluqların səbəblərini müəyyən etməklə, pozun-tuların və uyğunsuzluqların aradan qaldırılmasına nəzarət etmək;

3.2.7. müvafiq sahədə yoxlamaların keçirilməsinə cəlb edilən müfəttişlərin uçotunu aparmaq;

3.2.8. aviasiya təhlükəsizliyi sahəsində aviasiya subyektlərindən əldə edilən məlumatların təhlil edilməsi üçün konfidensial hesabatlar sistemini yaratmaq;

3.2.9. müvafiq sahədə yoxlamaların həyata keçirilməsi zamanı hava limanı (aeroport) və ya aerodromlarda fəaliyyət göstərən dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyəti təşkil etmək;

3.2.10. yoxlanılan subyektlərdən aşkarlanmış nöqsanların aradan qaldırılmasına dair tədbirlər planının hazırlanmasını və Aviasiya Agentliyinə təqdim edilməsini tələb etmək;

3.2.11. aviasiya təhlükəsizliyinin Dövlət Proqramı və Qaydaların tələblərinə, ICAO-nun beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğunluğunun tələb edilən səviyyəsinin təmin olunması tədbirləri üzrə tövsiyələr hazırlamaq və metodiki göstərişlər vermək;

3.2.12. Dövlət Proqramı və Qaydaların tələblərinə, ICAO-nun beynəlxalq standartlarının və tövsiyə olunan təcrübəsinin tələblərinə riayət etməyən yoxlanılan subyektlərə münasibətdə bu Qaydanın 8-ci hissəsinə əsasən müvafiq tədbirlər görmək.

3.3. Yoxlanılan subyektlərin müvafiq sahədə yoxlamaların keçirilməsi üzrə vəzifələri aşağıdakılardır:

3.3.1. bu Qaydanın tələblərini yerinə yetirmək;

3.3.2. Aviasiya Agentliyi tərəfindən keçirilən yoxlamalarla bağlı qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi üçün səlahiyyətli nümayən-dələrini təyin etmək və yoxlamalar zamanı cavabdeh olan yoxlanılan subyektlərin məsul şəxslərinin iştirakını təmin etmək;

3.3.3. Aviasiya Agentliyinin yoxlamaları həyata keçirən şəxslə-rinin xidməti otaqlara daxil olması, texniki vasitələrlə, yoxlanılan subyektlərin fəaliyyətinə dair bütün sənədlərlə (məlumatlarla) tanış olmasına şərait yaratmaq;

3.3.4. Aviasiya Agentliyi tərəfindən keçirilmiş yoxlamaların nəticələrini təhlil etmək və bu Qaydanın 3.2.10-cu yarımbəndində nəzərdə tutulmuş planı tərtib etmək, aşkar olunmuş uyğunsuzluqların yoxlamaya dair tərtib edilmiş hesabatda müəyyən olunmuş müddətdə aradan qaldırılmasını təmin etmək.

### 4. Müvafiq sahədə yoxlamaları həyata keçirən şəxslərə dair tələblər, onların hüquq və vəzifələri

4.1. Müvafiq sahədə yoxlamaları aviasiya təhlükəsizliyi üzrə iş yerində hazırlıq, o cümlədən müvafiq sahə üzrə müfəttişlər üçün nəzərdə tutulan təlimlərdə iştirak edərək nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnmiş peşəkar müfəttişlər həyata keçirir.

4.2. Müvafiq sahədə yoxlamaları həyata keçirən peşəkar müfəttişlərin seçimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 dekabr tarixli 320 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoxlamaların aparılmasına cəlb edilən şəxslərin anket məlumatlarının toplanması, yoxlanması və onların seçilməsi Qaydası"na əsasən həyata keçirilir.

4.3. Müvafiq sahədə yoxlamaları həyata keçirən peşəkar müfəttişlərin vəzifələri aşağıdakılardır:

4.3.1. müvafiq sahədə yoxlamaları həyata keçirmək;

4.3.2. hava limanının (aeroportun) ərazisində və fəaliyyəti birbaşa hava limanının (aeroportun) təhlükəsizliyi ilə bağlı olan idarə, müəssisə və təşkilatların hava limanında (aeroportda) və hava limanından (aeroportdan) kənarda yerləşən sahələrini yoxlamaq;

4.3.3. yoxlanılan subyektlərin təhlükəsizliyinin təmin edilməsi üzrə standart istismar prosedurlarının yerinə yetirilməsi istiqamətində müşahidələr aparmaq;

4.3.4. aviasiya təhlükəsizliyinin təmini ilə bağlı yoxlanılan subyektlər tərəfindən həyata keçirilən fəaliyyətlə əlaqədar bütün halları yazılı, elektron və ya fotoşəkillər formasında qeydə almaq və rəsmiləşdirmək.

4.4. Müvafiq sahədə yoxlamaları həyata keçirən peşəkar müfəttişlərin hüquqları aşağıdakılardır:

4.4.1. yoxlanılan subyektlərin xidməti ərazilərinə, binalarına sərbəst daxil olmaq;

4.4.2. yoxlanılan subyektlər tərəfindən aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində tətbiq olunan qayda və prosedurları yoxlamaq və effektivliyini təhlil etmək;

4.4.3. aviasiya təhlükəsizliyi və uçuşların təhlükəsizliyi qayda-larına riayət olunmasının yoxlanılması məqsədilə hava gəmilərinə daxil olmaq;

4.4.4. müvafiq sahədə yoxlama zamanı hava limanına (aeroporta) və (və ya) təhlükəsizlik zonalarına radioqəbuledicilər, kamera, audio və videoyazıların aparılması üçün qurğuları, sınaqların keçirilməsi zamanı isə həmçinin silahın və ya partlayıcı qurğuların mulyajını və digər avadanlığı keçirmək;

*Ardı 8-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi QAYDASI

*Əvvəli 7-ci səh.*

4.4.5. aviasiya təhlükəsizliyinin təmini və təhlükəsizlik prosedu-runun icra edilməsi səviyyəsini qiymətləndirmək üçün yoxlanılan subyektlərin məsul şəxslərinə suallar vermək;

4.4.6. yoxlanılan subyektlərdən müvafiq sahədə yoxlamaların icrası ilə əlaqədar sənədləri, audio-video materialları (canlı videogörüntü izləmək imkanı daxil olmaqla) tələb etmək;

4.4.7. müvafiq sahədə yoxlama zamanı silahın və ya partlayıcı qurğuların mulyajını və hava gəmisinin bortunda daşınması qadağan edilmiş digər əşyaları əl yükünə, baqaj, yük və ya poçt göndərişlərinə yerləşdirmək;

4.4.8. təhlükəsizliyə real təhdid yaradan uyğunsuzluqların aradan qaldırılmasını tələb etmək.

4.5. Yoxlamanın aparılmasına və nəticələrinə dair məlumatların yayılması qadağandır.

### 5. Müvafiq sahədə yoxlamaların əsas istiqamətləri, həyata keçirilməsinə dair tələblər və növləri

5.1. Müvafiq sahədə yoxlamalar aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

5.1.1. yoxlanılan subyektlərdə mülki aviasiyanın təhlükəsiz-liyinin təmin edilməsi sahəsində tədbirlərin icrası;

5.1.2. Dövlət Proqramı və Qaydaların müddəalarının icra vəziyyətinə nəzarət;

5.1.3. aviasiya təhlükəsizliyi üzrə tədbirlərin həyata keçirilməsi və bu sahədə personalın fəaliyyəti;

5.1.4. yoxlanılan subyektlər tərəfindən daxili yoxlamaların keçirilməsi üzrə bu Qaydanın 6-cı hissəsində nəzərdə tutulmuş daxili yoxlamalar üzrə müvafiq proqramlarına aid tədbirlərin yerinə yetirilməsi;

5.1.5. aviasiya personalının müvafiq hazırlıq keçməsinin və təlimatlandırılmasının təmin edilməsi;

5.1.6. yüksək riskli reyslər üçün və təhdidlərin artması hallarında xüsusi təhlükəsizlik tədbirləri;

5.1.7. qanunsuz müdaxilə aktlarının araşdırılması imkanının təmin edilməsi;

5.1.8. qanunsuz müdaxilə aktları ilə bağlı təhlükəsizlik tədbirləri;

5.1.9. aviasiya təhlükəsizliyinin təmini sahəsində istifadə olunan avadanlıq.

5.2. Müvafiq sahədə yoxlamaların keçirilməsi üzrə aşağıdakıları özündə ehtiva edən illik fəaliyyət planı Aviasiya Agentliyi tərəfindən hazırlanır və təsdiq edilir:

5.2.1. yoxlanılan subyektlərin siyahısı;

5.2.2. yoxlamanın növü;

5.2.3. yoxlamanın aparılma müddəti.

5.3. İllik fəaliyyət planına uyğun olaraq, müvafiq yoxlanılan subyektlərə xəbər verilərək təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlamasının keçirilməsindən 3 (üç) iş günü, təhlükəsizlik vəziyyətinin audit yoxlamasının keçirilməsindən isə 10 (on) iş günü əvvəl Aviasiya Agentliyi tərəfindən məlumat göndərilir.

5.4. Aviasiya təhlükəsizliyinin təmini sahəsi üzrə aşağıdakı növbəti və növbədənkənar yoxlamalar həyata keçirilir:

5.4.1. təhlükəsizlik vəziyyətinin audit yoxlaması;

5.4.2. təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlaması;

5.4.3. sertifikatlaşdırma üzrə yoxlamalar;

5.4.4. təhlükəsizlik sisteminin sınağı.

5.5. Bu Qaydanın 5.10-cu bəndi nəzərə alınmaqla yoxlamanın keçirilməsi, aşağıdakı amillərdən asılı olaraq müəyyən edilir:

5.5.1. təhdidlərin sayı və risklərin səviyyəsi;

5.5.2. hava limanının (aeroportun) fəaliyyətinin növü və miqyası;

5.5.3. yerinə yetirilən uçuşların sayı;

5.5.4. sərnişin, baqaj, yük və poçt daşımalarının həcmi;

5.5.5. yüksək riskli reyslərin sayı;

5.5.6. keçirilmiş əvvəlki yoxlamaların nəticələri;

5.5.7. aviasiya təhlükəsizliyi sahəsində tələblərin yoxlanılan subyektlər tərəfindən yerinə yetirilməsinin səviyyəsi;

5.5.8. aviasiya təhlükəsizliyinin təmini sahəsinə aid insidentlər barədə əvvəlki illərə dair hesabatlar;

5.5.9. hava limanının (aeroportun) fəaliyyətinin bərpası, yenidən qurulması və ya fəaliyyət istiqamətinin dəyişdirilməsi;

5.5.10. yoxlanılan subyektlərin müraciətləri.

5.6. Təhlükəsizlik vəziyyətinin yoxlanılması zamanı yoxlanılan subyektlərin mövcud təhlükəsizlik proqramının bütün aspektlərinə baxılır, onların Dövlət Proqramı və Qaydalara, habelə ICAO-nun beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinin tələblərinə uyğunluğu və tətbiqi vəziyyəti yoxlanılır.

5.7. Təhlükəsizlik vəziyyətinin yoxlanılması barədə yoxlanılan subyektlərə bu Qaydanın 5.3-cü bəndinə uyğun olaraq əvvəlcədən məlumat verilir.

5.8. Təhlükəsizlik vəziyyətinin audit yoxlaması zamanı sınaqların keçirilməsi nəzərdə tutulmur.

5.9. Təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlaması yoxlanılan subyektlərdə tətbiq edilən təhlükəsizlik tədbirlərinin bir və ya bir neçə sahəsi üzrə yoxlanılmasını və onların səmərəliliyinin qiymətlən-dirilməsini nəzərdə tutur.

5.10. Təhlükəsizlik vəziyyətinin audit yoxlamasının və təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlamalarının məqsədləri aşağıdakılardır:

5.10.1. Dövlət Proqramı və Qaydalarla müəyyən edilmiş təhlükəsizlik tədbirlərinin və prosedurlarının yoxlanılan subyektlərdə tətbiqinə və onlara riayət olunmasına nəzarət etmək;

5.10.2. təhlükəsizlik tədbirlərinin və prosedurlarının Dövlət Proqramı və Qaydalara, ICAO-nun beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə uyğunluğunu müəyyən etmək və aviasiya təhlükəsizliyi tədbirlərinin səmərəliliyini qiymətləndirmək;

5.10.3. aviasiya təhlükəsizliyinin təmini üçün yoxlanılan subyektlərin tətbiq etdikləri prosedurları yoxlamaq və uyğunsuzluqlar aşkar edildikdə onların aradan qaldırılmasını təmin etmək;

5.10.4. təhlükəsizlik sisteminin təkmilləşdirilməsinə və güclən-dirilməsinə ehtiyacı olan sahələri müəyyən etmək və uyğunsuzluqların aradan qaldırılmasına dair tövsiyələr vermək.

5.11. Sertifikatlaşdırma üzrə yoxlamalar sertifikatın əldə edilməsinə və ya qüvvədə olma müddətinin uzadılmasına dair aviasiya subyektlərinin müraciətləri əsasında müfəttiş yoxlamaları formasında keçirilir.

5.12. Təhlükəsizlik sisteminin sınağı real iş rejimində və konkret məkanda tətbiq edilən təhlükəsizlik və nəzarət tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə nəzərdə tutulmuşdur.

5.13. Təhlükəsizlik sisteminin sınağı Aviasiya Agentliyi və yoxlanılan subyektlərin daxili proqramlarına uyğun həyata keçirilir.

5.14. Təhlükəsizlik sisteminin sınağı aşağıdakı tələblərə riayət edilməklə həyata keçirilir:

5.14.1. sərnişinlər, yoxlanılan subyektlərin personalı, habelə cəmiyyət üçün təhlükə və narahatlıq yaratmamalıdır;

5.14.2. yoxlanılan subyektlərə məxsus olan obyektlərin təhlükəsizliyinə təhdid yaratmamalıdır;

5.14.3. yoxlanılan subyektlərin mülkiyyətinə ziyan vurmamalıdır;

5.14.4. təhlükəsizlik sisteminin sınağı təhlükəsizlik vəziyyətinin müfəttiş yoxlamasının tərkib hissəsi və yaxud müstəqil yoxlama formasında keçirilə bilər.

5.15. Konkret sahələr üzrə keçirilən təhlükəsizlik sisteminin sınaq nəticələri aşağıdakı sahələr üzrə uyğunluq səviyyəsinin müəyyən edilməsində və ya düzəliş tədbirlərinin görülməsində istifadə olunur:

5.15.1. aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı;

5.15.2. aviasiya təhlükəsizliyi sahəsində istifadə olunan avadanlığın səmərəliliyi;

5.15.3. aviasiya təhlükəsizliyi sahəsində tətbiq edilən prosedur-ların səmərəliliyi;

5.15.4. yoxlanılan subyektlərin təhlükəsizlik siyasəti.

5.16. Təhlükəsizlik sisteminin sınağının sayı, növləri və mütəmadiliyi aşağıdakı amillər nəzərə alınmaqla, risklərin qiymətlən-dirilməsi əsasında müəyyən edilir:

5.16.1. mülki aviasiya sahəsinə aid təhdidlərin səviyyəsi;

5.16.2. yerinə yetirilən uçuşların sayı;

5.16.3. əvvəlki yoxlamaların və sınaqların nəticələrinin təhlili;

5.16.4. personalın xidməti vəzifələrini düzgün yerinə yetirməsi;

5.16.5. sınaqlarla aşkar edilmiş səhvlərdən irəli gələn risklərin qiymətləndirilməsi.

5.17. Təhlükəsizlik sisteminin sınağının real təhlükə kimi qəbul edilməsini və bunun nəticəsində hava limanının (aeroportun) iş prosesinin pozulması, insanların xəsarət alması və ya təşvişə düşməsi ehtimalını istisna etmək üçün onların hər bir mərhələsi dəqiq planlaşdırılır və keçirilir.

5.18. Təşvişə səbəb ola biləcək vəziyyətin aradan qaldırılması məqsədilə dərhal əlaqə saxlamaq və sınaqların keçirilməsini təsdiq etmək üçün təhlükəsizlik sisteminin sınağının keçirilməsindən əvvəl hava limanının (aeroportunun) rəhbərliyi ilə birgə yerli koordinator təyin edilir.

5.19. Təhlükəsizlik sisteminin sınağının keçirilməsi və bitməsi barədə hava limanında (aeroportda) fəaliyyət göstərən müvafiq dövlət orqanları (qurumları) xəbərdar edilir.

5.20. Təhlükəsizlik sisteminin sınağının keçirilməsi hava gəmilərinin təhlükəsizliyinin təmini ilə əlaqəli olduqda hava gəmilərinin istismarçıları ən azı 3 (üç) iş günü əvvəlcədən xəbərdar edilir.

5.21. Təhlükəsizlik sisteminin sınağının keçirilməsi üzrə planlarda aşağıdakı gözlənilməz hallar üçün tədbirlər nəzərdə tutulur:

5.21.1. təhlükəsizlik sisteminin sınağının nümunələri üzərində nəzarətin itirilməsi;

5.21.2. təhlükəsizliyi poza biləcək fövqəladə və qəza vəziyyətlərinin yaranması;

5.21.3. aviasiya təhlükəsizliyinin təmini sahəsində real insidentlərin yaranması.

5.22. Təhlükəsizlik sisteminin sınağının nümunələri asan seçilən, nömrələnmiş olmalı və aşkar edilən zaman personalın hərəkətləri barədə üzərində qısa təlimat olmalıdır.

5.23. Təhlükəsizlik sisteminin sınağının nümunələrinin yoxlama yerlərinə çatdırılması və ya yoxlanılan subyektlərin nəzarət-buraxılış məntəqələrindən maneəsiz keçirilməsi məqsədilə icazə blankında aşağıdakı məlumatlar olmalıdır:

5.23.1. təhlükəsizlik sisteminin sınağının nümunələrinin və daşınma konteynerlərinin ətraflı təsviri;

5.23.2. təhlükəsizlik sisteminin sınağının nümunələrini daşıyan şəxsin şəxsiyyətini təsdiq edən sənəd və vəzifəsinə dair məlumatlar;

5.23.3. icazənin qüvvədə olma müddəti.

5.24. Təhlükəsizlik sisteminin sınağının keçirilməsi məqsədilə yaradılan qrupa (bundan sonra - Qrup) aşağıdakı şəxslər daxil edilir:

5.24.1. Qrupun rəhbəri;

5.24.2. Qrupun inzibati heyəti;

5.24.3. Qrupun digər üzvləri.

5.25. Təhlükəsizlik sisteminin sınağı ixtisaslı və xüsusi təlim keçmiş personalın nəzarəti altında aparılır.

5.26. Qrupa daxil olan hər bir şəxs yoxlamanın istiqamətləri üzrə müvafiq hazırlıq keçir.

5.27. Qrupa daxil edilən hər bir şəxs konfidensial məlumatların yayılmamasına dair yazılı iltizam verir.

5.28. Təhlükəsizlik sisteminin sınağının keçirilməsinə dair tərtib olunan sənədlərdə və hesabatlarda "Xidməti istifadə üçün" qeydi göstərilir və onlar mühafizə edilən yerlərdə saxlanılır.

5.29. Təhlükəsizlik sisteminin sınağının nümunələri müasir təhdidlərin səviyyəsinə (o cümlədən keramik odlu silah, qeyri-standart partlayıcı qurğular, maye partlayıcı maddələrdən hazırlanmış qurğular, elektron cihazlarda gizlədilmiş partlayıcı qurğular və s.) və baxış avadanlıqlarının funksional imkanlarına uyğun olaraq işlənilib hazırlanır və mütəmadi olaraq yenilənir.

5.30. Təhlükəsizlik sisteminin sınaq nümunələrinin tərtib edilməsi və onların istifadəsi üçün aşağıdakılar nəzərə alınır:

5.30.1. tətbiq edilməsi nəzərdə tutulan təhlükəsizlik sisteminin sınaq nümunələri ICAO-nun tələblərinə uyğun olmalıdır;

5.30.2. əhalinin təhlükəsizliyinə, hava limanlarına (aeroportlara) məxsus obyektlərə, istehsalat prosesinə və sınaqlarda iştirak etməyən şəxslərin fəaliyyətinə təhdid yaratmamalıdır;

5.30.3. əşyaların təhlükəsizlik sisteminin sınaq nümunələri olmasını təsdiq edən işarələr olmalıdır.

5.31. Odlu silahlardan sınaq nümunələri kimi istifadə edildikdə onlar atışa yararsız vəziyyətə gətirilir.

5.32. Odlu silahlardan ayrılmış vəziyyətdə olan sursatlardan sınaq nümunələri kimi istifadə edilmir.

5.33. Odlu silahların mulyajlarından o şərtlə istifadə edilir ki, baxış avadanlıqlarında yaranan təsvirlər əsl silahın fiziki və texniki xassələrini əks etdirir.

5.34. Odlu silahların sınaq nümunələrini yalnız əl yükündə istifadə etmək olar.

5.35. Qeyri-standart partlayıcı qurğuların sınaq nümunələri partlayış qabiliyyəti olmayan materiallardan hazırlanır və görünüşcə həqiqi partlayıcı qurğulara oxşadılır.

5.36. Qeyri-standart partlayıcı qurğuların sınaq nümunələrində əsas partlayıcı maddənin kütləsi və digər komponentlərin hər biri (gərginlik mənbəyi, naqillər, partlayış qabiliyyəti olmayan detonator, saat mexanizmi) və ya bir neçəsi olmalıdır.

5.37. Rentgen qurğusunun istifadəsi üzrə sınaqlar keçirildikdə, qeyri-standart partlayıcı qurğuların sınaq nümunələri sərnişinlərin adi əl yükünə bənzər xüsusi konteynerlərə yerləşdirilir.

5.38. Adi rentgen qurğusundan istifadə etməklə sınaqlar keçirildikdə, qeyri-standart partlayıcı qurğuların sınaq nümunələri təhlükəsiz materiallardan hazırlanır, lakin yaranan təsvirlərdə həqiqi partlayıcı maddə kimi əks olunur.

5.39. Alqoritmli rentgen qurğusundan istifadə etməklə sınaqlar keçirildikdə, qeyri-standart partlayıcı qurğuların sınaq nümunələri təhlükəsiz xüsusi materiallardan hazırlanmalı və yaranan təsvirlərdə həqiqiliyə uyğunluğun təmin edilməsi üçün sıxlığı və atom çəkisi həqiqi partlayıcı maddəyə uyğun olmalıdır.

5.40. Partlayıcı maddələrin izini aşkarlayan qurğulardan istifadə etməklə sınaqlar keçirildikdə, həmin qurğuların aşkaretmə və xəbərdarlıq siqnallarının verilməsi imkanlarını yoxlamaq məqsədilə qeyri-standart partlayıcı qurğuların sınaq nümunələrində kiçik miqdarda həqiqi partlayıcı maddə olmalıdır.

5.41. İnsan bədənini yoxlayan baxış avadanlıqlarından istifadə etməklə sınaqlar keçirildikdə, qeyri-standart partlayıcı qurğuların sınaq nümunələri insan bədənində elə yerləşdirilir ki, real qanunsuz müdaxilə aktının baş verməsinə şərait yaradan hal kimi qiymətləndirilsin.

5.42. Stasionar və portativ (əl) metalaxtaran qurğularından istifadə etməklə sınaqlar keçirildikdə, təşvişə və ya münaqişəyə səbəb ola biləcək amillər aradan qaldırılmalıdır.

5.43. Kəsici-deşici alətlərin sınaq nümunələri təsərrüfat və ya məişət alətlərindən ibarət ola bilər. Bu sınaq nümunələri əl yükündə rentgen qurğusundan sınaqdan keçirildikdə, həmçinin stasionar və portativ (əl) metalaxtaran qurğularından istifadə etməklə təhlükəsizlik sisteminin sınağı keçirildikdə istifadə olunur.

5.44. Təhlükəsizlik sisteminin sınağı aşağıdakı 4 mərhələdən ibarət olmaqla keçirilir:

5.44.1. sınağa hazırlıq və ilkin təlimatlandırma;

5.44.2. sınağın keçirilməsi və nəticələrin qeydə alınması;

5.44.3. keçirilmiş sınağın təhlili və ilkin nəticələrinin təqdim olunması;

5.44.4. keçirilmiş sınaq barədə hesabatın hazırlanması və düzəliş tədbirlərinin həyata keçirilməsi.

5.45. Təhlükəsizlik sisteminin sınağına hazırlıq zamanı, ilk növbədə sınaq keçiriləcək sahə və ya sahələr müəyyən olunur.

5.46. Təhlükəsizlik sisteminin sınağını keçirən qrupa rəhbər təyin olunur. Qrup rəhbəri sınağın keçirilməsi müddətində bütün tələblərin yerinə yetirilməsinə nəzarət edir, aidiyyəti dövlət orqanlarını ən azı 3 (üç) iş günü əvvəlcədən xəbərdar edir və işlərin təşkil edilməsi üçün yerli koordinatorla əlaqə yaradır.

5.47. Qrup rəhbəri təhlükəsizlik sisteminin sınaq nümunələrini seçir və onların yoxlanılan məntəqələrə çatdırılmasını təşkil edir.

5.48. Qrup rəhbəri bilavasitə təhlükəsizlik sisteminin sınağının keçirilməsində iştirak etmədiyi təqdirdə sınaq prosesini bütün müşahidə imkanlarından istifadə etməklə (o cümlədən videomüşahidə sistemlərindən və s.) nəzarətdə saxlayır.

5.49. Təhlükəsizlik sisteminin sınağının keçirilməsindən əvvəl Qrup rəhbəri ilkin təlimatlandırma keçirir. İlkin təlimatlandırma zamanı Qrupun hər bir üzvünün vəzifələri müəyyən edilir, sınaq nümunələri bölüşdürülür və tələblər barədə hər bir qrup üzvünə məlumat verilir.

5.50. İlkin təlimatlandırma zamanı hər bir Qrup üzvünə aşağıdakılar barədə məlumat verilir:

5.50.1. sınağın keçirilməsinin məqsədi;

5.50.2. sınağın keçirilməsi yeri;

5.50.3. təhlükəsizlik sisteminin yoxlanılan sahəsi;

5.50.4. sınağın keçirilməsi zamanı istifadə olunan sınaq nümunələri;

5.50.5. əvvəl keçirilmiş yoxlamaların nəticələri və verilmiş tövsiyələr.

5.51. Hər bir Qrup üzvünə aşağıdakı gözlənilməz hallar üçün hərəkət ardıcıllığı izah olunur:

5.51.1. Qrup üzvlərinin bir-birindən ayrı düşməsi;

5.51.2. Qrup üzvlərinin və ya sınaq nümunələrinin sınaqlara başlamazdan əvvəl aşkar edilməsi;

5.51.3. sınaq nümunələrinin itirilməsi, insanların həyat və sağlamlığının qorunması və ya istehsalat prosesinin pozulmaması məqsədilə sınaqların dayandırılması;

5.51.4. sınaqların keçirilməsi yerində real insidentlərin baş verməsi.

5.52. Təhlükəsizlik sisteminin sınağı yerli şərait nəzərə alınmaqla, istehsalat prosesinə və uçuşların müntəzəmliyinə xələl gətirmədən və insanlar arasında təhlükə və təşviş yaratmadan keçirilir.

5.53. Təhlükəsizlik sisteminin sınağı keçirilən zaman sınaq nümunələrinə dair aşağıdakı tələblərə riayət edilir:

5.53.1. sınaq nümunələri istifadə edilmədiyi müddətdə mühafizə olunan yerlərdə saxlanılır;

5.53.2. sınağın keçirilməsi zamanı sınaq nümunələrindən yalnız Qrup üzvləri istifadə edə bilərlər;

5.53.3. sınaq yekunlaşdıqdan sonra bütün sınaq nümunələri yığılır və Qrup rəhbərinə təhvil verilir.

5.54. Qrup rəhbəri və ya Qrup üzvləri tərəfindən keçirilən hər bir təhlükəsizlik sisteminin sınağı üçün ilkin hesabatda aşağıdakı məlumatlar qeyd edilir:

5.54.1. sınağın növü və məqsədi;

5.54.2. sınağın keçirildiyi yer;

5.54.3. sınağın başlama və bitmə vaxtı;

5.54.4. yoxlanılan subyekt və ya fəaliyyət növü;

5.54.5. ilkin nəticələrin qısa məzmunu (müsbət rəy və ya uyğunsuzluğun səbəbi);

5.54.6. yekun hesabatda istifadə edilməsi zəruri hesab edilən digər məlumatlar.

5.55. Təhlükəsizlik sisteminin sınağı yekunlaşdıqdan sonra Qrupun bütün üzvlərinin iştirakı ilə ilkin hesabatın və təkliflərin hazırlanması məqsədilə sınağın təhlili aparılır. İlkin hesabatın hazır-lanması zamanı Qrup rəhbəri müəyyən edilmiş uyğunsuzluqlar və mümkün düzəliş tədbirləri barədə yoxlanılan subyektin rəhbərliyinə məlumat verir.

5.56. Təhlükəsizlik sisteminin sınağı yekunlaşdıqdan sonra Qrup rəhbəri yekun hesabat hazırlayır. Yekun hesabatda aşağıdakılar göstərilir:

5.56.1. sınağın məqsədi;

5.56.2. sınağı keçirən Qrupun tərkibi;

5.56.3. sınağın nəticəsi, müəyyən edilmiş uyğunsuzluqlar;

5.56.4. müəyyən edilmiş uyğunsuzluqlar üzrə müvafiq düzəliş tədbirləri.

5.57. Hesabatda sınaq zamanı təhlükəsizlik sistemində aşkar edilmiş uyğunsuzluqların səbəbləri göstərilməlidir. Uyğunsuzluqlar aşağıdakı kimi qruplaşdırıla bilər:

5.57.1. hazırlıq səviyyəsinin məqbul olmaması və lazımi nəzarətin olmaması;

5.57.2. təhlükəsizlik tədbirlərinin düzgün tətbiq edilməməsi;

5.57.3. avadanlıqların xüsusiyyətləri;

5.57.4. təhlükəsizlik prosedurlarındakı uyğunsuzluqlar;

5.57.5. personalın səhlənkarlığı.

5.58. Təhlükəsizlik sisteminin sınaq nəticələri 2 (iki) nüsxədə tərtib olunmuş hesabatla rəsmiləşdirilir. Yoxlama hesabatının və ona əlavə edilmiş sənədlərin 1 (bir) nüsxəsi 3 (üç) iş günü ərzində yoxlanılan subyektə və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir, digər nüsxəsi isə Aviasiya Agentliyində saxlanılır.

### 6. Daxili yoxlamaların həyata keçirilməsi

6.1. Yoxlanılan subyektlər müvafiq sahədə daxili yoxlamaların keçirilməsini hazırlanmış illik plana uyğun təşkil etməlidirlər.

6.2. Yoxlanılan subyektlər tərəfindən daxili yoxlamalar üzrə müvafiq proqram hazırlanır və onun həyata keçirilməsi təmin edilir.

6.3. Daxili yoxlamalar yoxlanılan subyektlər tərəfindən təyin edilmiş müfəttişlər tərəfindən həyata keçirilir.

6.4. Daxili yoxlamaların cari və illik hesabatı tərtib olunur.

6.5. Daxili yoxlamaların cari və illik hesabatları Aviasiya Agentliyinin müraciətinə əsasən Aviasiya Agentliyinə təqdim olunur.

### 7. Aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə uyğunluq səviyyəsinin qiymətləndirilməsi

7.1. Bu Qaydanın 5.4-cü bəndində qeyd olunan yoxlamaların nəticələrinə əsasən, aviasiya təhlükəsizliyinin təmin edilməsinin uyğunluq səviyyəsi müəyyən edilir. Uyğunluq səviyyəsi aşağıdakı dərəcələr üzrə təsnifləşdirilir:

7.1.1. Kateqoriya "1" - "Tam uyğundur" - təhlükəsizliyin təmin edilməsi üzrə tətbiq edilən bütün qayda və prosedurlar mülki aviasiyanın təhlükəsizliyinə dair müddəalara tam uyğun olaraq yerinə yetirilir;

7.1.2. Kateqoriya "2" - "Uyğundur, lakin təkmilləşdirilməsi tövsiyə olunur" - təhlükəsizliyin təmin edilməsi üzrə tətbiq edilən bütün qayda və prosedurların mülki aviasiyanın təhlükəsizliyinə dair müddəalara uyğun yerinə yetirildiyini göstərir. Lakin daha yüksək səmərəliliyə nail olmaq üçün bu qayda və prosedurların yerinə yetirilməsi üsullarında qismən dəyişikliklər edilməlidir;

7.1.3. Kateqoriya "3" - "Uyğun deyil"- təhlükəsizliyin təmin edilməsi üzrə qayda və prosedurlar müvafiq tələblərə cavab vermir;

7.1.4. Kateqoriya "4" - "Uyğun deyil, ciddi uyğunsuzluqlar var"- təhlükəsizliyin təmin edilməsi üzrə qayda və prosedurlar müvafiq tələblərə cavab vermir. Yoxlanılan subyektin təhlükəsizlik sisteminə ciddi təsir göstərməsi səbəbindən uyğunsuzluq təcili aradan qaldırılmalıdır;

7.1.5. Kateqoriya "TO" - "Təsdiq olunmayıb"- təhlükəsizliyin təmini sahəsində tətbiq edilən Qaydalarda istifadə edilən qayda və prosedurların yoxlanılması obyektiv səbəblərdən mümkün olmayıb;

7.1.6. Kateqoriya "TE" - "Tətbiq edilmir"- təhlükəsizliyin təmin edilməsi sahəsində Qaydalarda istifadə edilən qayda və prosedurlar yoxlanılan subyektlər tərəfindən tətbiq edilmir.

7.2. Aviasiya təhlükəsizliyinin təmin edilməsi səviyyəsinin ilkin qiymətləndirilməsi Qrup üzvlərinin açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda Qrup rəhbərinin səsi həlledici sayılır. Qrup üzvlərinin bitərəf qalmasına yol verilmir.

7.3. Aviasiya təhlükəsizliyinin təmin edilməsi səviyyəsinin qiymətləndirilməsi sistemində konkret kateqoriyalar yoxlamanı keçirən Aviasiya Agentliyi tərəfindən Qrupun hesabatı əsasında müəyyən edilir.

7.4. Yoxlama nəticələrindən inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

### 8. Düzəliş tədbirləri

8.1. Yoxlama nəticələrinə əsasən yoxlanılan subyektlərə 3-4-cü kateqoriya uyğunluq dərəcəsinin verilməsi barədə bu Qaydanın 7.3-cü bəndinə uyğun qərar qəbul edildikdə, həmin yoxlanılan subyektlər nöqsanların aradan qaldırılması üzrə tədbirlər planını hazırlayır. Bu planda hər bir uyğunsuzluğun aradan qaldırılmasının Aviasiya Agentliyi ilə razılaşdırılmış müddəti göstərilir və nöqsanın aradan qaldırılması üzrə tədbirlərin tamamlanmasına dair qeydlər aparılır. Tədbirlər planının surəti hesabatın alındığı tarixdən etibarən 15 (on beş) iş günü müddətində Aviasiya Agentliyinə təqdim edilməlidir.

8.2. Bu Qaydanın 5.4-cü bəndində qeyd olunan yoxlamaların nəticələrinə əsasən aşkar edilmiş uyğunsuzluqların dairəsindən asılı olaraq düzəliş tədbirləri aşağıdakılardan ibarətdir:

8.2.1. təcili düzəliş tədbirləri: yoxlamaları aparan şəxslərin bilavasitə uyğunsuzluqları aşkar etdikləri andan icrasına başlanılması tələb edilən tədbirlər;

8.2.2. müəyyən müddət tələb edən düzəliş tədbirləri: aşkar edilmiş hər bir nöqsanın Aviasiya Agentliyi ilə razılaşdırılmış müddət ərzində aradan qaldırılması tələb olunan tədbirlər. Bu nöqsanların müəyyən edilmiş müddət ərzində aradan qaldırılması mümkün olmadıqda, yoxlanılan subyektlər tərəfindən alternativ təhlükəsizlik tədbirləri görülür.

8.3. Yoxlanılan subyektlər tərəfindən hazırlanan düzəliş tədbirləri planında aşağıdakılar qeyd olunmalıdır:

8.3.1. aşkar edilmiş nöqsanların siyahısı;

8.3.2. Dövlət Proqramına və Qaydalara uyğunluğa nail olmaq üçün tətbiq edilən düzəliş tədbirlərinin müfəssəl təsviri;

8.3.3. aradan qaldırılması mümkün olmayan nöqsanların siyahısı;

8.3.4. yoxlanılan subyektlərin məsul mütəxəssislərinin rəyinə əsasən maliyyə və təşkilati səbəblərdən aradan qaldırılması mümkün olmayan nöqsanların düzəliş tədbirləri tələb edən siyahıya daxil edilməməsini əsaslandıran dəlillər;

8.3.5. düzəliş tədbirlərinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyan struktur bölmələr və məsul şəxslər;

8.3.6. aradan qaldırılması mümkün olan nöqsanların aradan qaldırılmasının konkret müddəti və üsulu.

8.4. Yoxlanılan subyektlər tərəfindən planlaşdırılan düzəliş tədbirlərində aviasiya personalına qarşı intizam tədbirlərinin nəzərdə tutulması qadağandır.

8.5. Aparılan monitorinq əsasında Aviasiya Agentliyi aşkar edilmiş nöqsanların yoxlanılan subyektlər tərəfindən aradan qaldırıl-ması üzrə əsaslandırılmamış müddəti azaltmaq hüququna malikdir.

8.6. Düzəliş tədbirləri planı razılaşdırıldıqdan sonra Aviasiya Agentliyi tərəfindən yoxlanılan subyektlərdə təkrar yoxlamanın müddəti müəyyən edilir.

8.7. Təkrar yoxlama zamanı əvvəl müəyyən edilmiş nöqsanların aradan qaldırılması təsdiq edildikdə, qeyd edilən uyğunsuzluqlar aradan qaldırılmış hesab edilir.

8.8. Aviasiya Agentliyi yoxlanılan subyektlər tərəfindən planlaş-dırılan düzəliş tədbirləri həyata keçirilmədikdə, habelə yoxlamaların aparılması zamanı nöqsanlar aşkar etdiyi hallarda, yoxlanılan subyektlərdən düzəliş tədbirlərinin həyata keçirilməsini tələb etmək hüququna malikdir.

8.9. Aparılmış yoxlamaların nəticələrinə dair tədbirlər Qaydaların 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Xarici sərmayənin yeni ünvanı

## Ölkəmizdə reallaşdırılan bərpaolunan enerji layihələrinə investorların marağı artır

Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında iqtisadi əməkdaşlıq inkişaf etməkdə davam edir. Dubay Ticarət və Sənaye Palatasının MDB üzrə nümayəndəliyinin məhz Bakıda açılması da ölkələrimiz arasında əməkdaşlığa verilən dəyərin göstəricisidir.

Uzun illərdir ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafında hər iki tərəfin iş adamları yaxından iştirak edir. O cümlədən biznes dairələrinin təşkil etdikləri "dəyirmi masa"lar yeni əlaqələrin qurulmasında mühüm rol oynayır. Onu da qeyd edək ki, iki ölkə arasında iqtisadiyyatın bir sıra mühüm sahələrinə investisiya qoyuluşu üçün geniş əməkdaşlıq imkanları mövcuddur. Odur ki, ticarət əlaqələrinin genişləndirilməsi, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri daim hər iki tərəfin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, indiyədək ümumilikdə BƏƏ tərəfindən Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollar, Azərbaycan tərəfindən BƏƏ-yə 350 milyon dollardan çox sərmayə yatırılmışdır.

Bir neçə gün əvvəl açılışı olan "Qaradağ" Günəş-Elektrik Stansiyasının Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa olunması da qarşılıqlı iqtisadi əlaqələrin məzmununun dərinliyini üzə çıxarır. Açılış mərasimində Prezident İlham Əliyev 230 meqavat gücünə malik "Qaradağ"ın regionda ən böyük günəş-elektrik stansiyası, Azərbaycanda xarici sərmayə ilə tikilən ilk bərpaolunan enerji stansiyası olduğunu vurğulamış, bu tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin və geniş tərkibdə nümayəndə heyətinin iştirakını ölkələrimiz arasındakı dostluğun və tərəfdaşlığın nadir nümunəsi kimi qiymətləndirmişdir.

Bir neçə gün əvvəl isə Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında yeni sənədlərin imzalanması mərasimi olmuşdur. Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin



baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Neftçala rayonunun Bankə qəsəbəsində günəş-elektrik stansiyası layihəsi ilə bağlı investisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda günəş-elektrik stansiyası layihəsi ilə bağlı investisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı investisiya müqaviləsi"ni imzalamışlar.

Belə mühüm müqavilələrin imzalanması bir daha göstərir ki, Azərbaycan iqtisadi islahatlara və yeni texnologiyalara açıq ölkə kimi ciddi əməkdaşlığa və yüksək texnologiyaların geniş tətbiqinə inamla gedir, dünya miqyasında ciddi və etibarlı tərəfdaş kimi qəbul edilir. Bu baxımdan iki ölkənin iqtisadiyyat nazirlikləri arasında əlaqələrin getdikcə intensivləşməsi təqdirə layiqdir. Çünki iqtisadi sahədə həyata keçirilən uğurlu əməkdaşlıq həm də qarşılıqlı ticarət əlaqələrinin geniş inkişafına zəmin yaradır. Bu isə öz növbəsində Azərbaycana yeni investisiyaların cəlb edilməsini stimullaşdırır. Hər iki ölkənin Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinə qoşulması bu sahədə əməkdaşlıq üçün yeni perspektivlər açır.

2022-ci il iyunun 4-də "Bakı Enerji Həftəsi"nin Şuşa şəhərində keçirilmiş xüsusi sessiyası çərçivəsində Azərbaycanın Energetika Nazirliyi ilə BƏƏ-nin "Masdar" şirkəti arasında "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və "yaşıl hidrogen" layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" imzalanmışdır.

Prezident İlham Əliyev bu ilin yanvarında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı bildirmişdir ki, "Masdar" ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 4 qiqavatlıq külək və günəş enerjisinin istehsalına dair razılaşma imzalamışlar: "Bu, hələ qısamüddətli layihədir. Ortamüddətli layihələrin gücləri 10 qiqavata qədər artıralacaq. Bu, tamamilə icraolunandır. Bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı çox mühüm "yaşıl enerji" mənbəyinə çevirəcək. Bütövlükdə Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisi istehsal etmək imkanı yaradacaq".

Dövlət başçısı Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində oynadığı rola işarə edərək bu istiqamətdə görülən işdən də bəhs etmişdir: "Cəmi iki il əvvəl Azərbaycan "Cənub qaz dəhlizi" meqaenerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdən çoxdur. Təbii qaz ixracımız artır - ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Bu rəqəm artmaqda davam edəcək. Buna görə mən bir daha söyləmək istərdim ki, Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil. Belə ki, biz həmin işləri artıq söylədiyim başqa səbəblərə görə aparırıq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən məşğulluq tədbirləri daha da genişlənəcək

**Prezident İlham Əliyevin tapşırıqlarına əsasən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə bağlı geniş miqyaslı sosial dəstək tədbirləri bundan sonra da genişlənəcəkdir.**



Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlikdə keçirilən kollegiya iclasında bildirib. Qeyd olunub ki, tarixi zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra şəhid ailəsi üzvləri və müharibə veteranı olan 103 min şəxsə 115 min sosial ödəniş təyin olunub, 20 min şəxs üçün məşğulluq tədbirləri görülüb.

Həmin dövrdə mənzil təminatı proqramı genişləndirilərək, şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 5300-dən artıq mənzil və fərdi ev verilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib.

Sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, müharibə ilə əlaqədar əlilliyi olan 2 min şəxsə isə 44,6 min reabilitasiya vasitəsi verilib.

İşğaldan azad edilmiş ərazilərdə aparılan geniş infrastruktur layihələrinə diqqət çəkən S.Babayev bu yaxınlarda fəaliyyətə başlayan Qarabağ Regional DOST Mərkəzində 9 inzibati rayon üzrə 900 mindən çox şəxsə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində "bir pəncərə" prinsipi ilə xidmətlərin göstəriləcəyini vurğulayıb.

Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən geniş miqyaslı məşğulluq tədbirləri barədə məlumat verilib.

Bu ərazilərə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların təqribən 70 faizinin artıq məşğulluğunun təmin edildiyi diqqətə çatdırılıb. Bu tədbirlərin daha da genişlənəciyi qeyd edilib.

İclasda həmçinin nazirlik tərəfindən vətəndaşların qəbulu və müraciətlərinə baxılması, daxili nəzarət və audit, kadr məsələləri, sənədlərlə və vətəndaşların müraciətləri ilə iş və digər sahələrdə görülmüş işlər və qarşıda duran hədəflər müzakirə olunub.

## AMB-nin valyuta ehtiyatları 10,5 milyard dollara çatıb

Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 10 ayda 16,8 faiz və ya 1,5 milyard dollar artaraq 10,5 milyard dollara çatıb.




Profisitli xarici ticarət balansı şəraitində (9 ayda 13,9 milyard dollar) ilin əvvəlindən bəri Mərkəzi Bankda keçirilən valyuta hərraclarının 99 faizində təklif tələbi üstələyib. Bu səbəbdən 10 ayda Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi 1247,9 milyon dollar təşkil etməklə alışyönümlü olub.

## "Aztelekom" Şuşada 500 evdə GPON texnologiyasının tətbiqi üçün şəbəkə quraşdırıb

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin əsas tərkib hissəsi kimi "Aztelekom" MMC Şuşa şəhərində ilkin olaraq 500 evdə GPON (Gigabit Passive Optical Networks) texnologiyasının tətbiq olunması üçün layihə hazırlayıb və şəbəkə quraşdırıb. Hazırda Şuşa şəhərində 99 abunəçi GPON texnologiyası xidmətlərindən yararlanır.

Bu haqda AZƏRTAC-a "Aztelekom" MMC-nin İctimaiyyətlə əlaqələr üzrə meneceri Alidə Mustafayeva məlumat verib. "Aztelekom" sözçüsü əlavə edib ki, Azərbaycanın digər şəhər və rayonlarından "026 26" kodunu yığmaqla Şuşa şəhəri ilə əlaqə saxlanıla bilər. Beynəlxalq danışıqlar zamanı isə "+994 26 26X XX XX" yığım formatı tətbiq olunur.

"Məlumat üçün bildirək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin müasir texnologiyaların tətbiqi istiqamətində həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir. Belə ki, yeni GPON texnologiyasının tətbiqi ilə abunəçilərə yüksəksürətli (30 mbit/s-dən 100 mbit/s-dək) internet paketləri təklif olunur. Sözügedən paketləri seçən abunəçilər tək internet xidməti deyil, həm də "internet + telefoniya", "internet + televiziya (ikisi birində)" və "internet + telefoniya + televiziya (üçü birində)" paketlərini əldə edə bilərlər", - deyə Alidə Mustafayeva vurğulayıb.

## Azərbaycan startap və qurumları beynəlxalq "Uzakrota Travel Awards 2023"ün qalibi olub

Bakıda keçirilən "Uzakrota Summit Baku" tədbirində öncədən keçirimiş səsvermə əsasında Azərbaycan üç nominasiya üzrə qalib seçilib.

"World's Leading B2B Outgoing Tour Operator" nominasiyasında tədbirdə ölkəmizi təmsil edən "PASHA Travel", "World's Leading Hotel Association" nominasiyası üzrə Azərbaycan Hotellər Assosiasiyası, "World's Leading Travel Payment Platform" nominasiyası üzrə isə həmtəsisçisi azərbaycanlı olan "WeTravel" startapı qalib elan olunub.

Qeyd edək ki, qaliblərə mükafatlar noyabrın 24-də İstanbulda keçiriləcək "Uzakrota Travel Awards" çərçivəsində təqdim olunacaq.

# Dünyanın səkkizinci möcüzəsi... Xəzərdə

## Neft Daşlarının 74 yaşı tamam olur

74 yaşı tamam olan Neft Daşları özünün daimi adını almazdan əvvəl "Qara daşlar", "Yeddi gəmi adası" kimi tanınıb. Sonralar bu bənzərsiz məkanı obrazlı şəkildə "Möcüzələr adası", "Dünyanın səkkizinci möcüzəsi", "Əfsanəvi şəhər" də adlandırıblar. Xəzərin qoynunda, polad dirəklər üstündə məskən salan Neft Daşları, əslində, analoqu olmayan mədən-şəhərdir.

Neft Daşları elə bir yerdir ki, onun haqqında sözlə təsəvvür yaratmaq çətindir. Bu möcüzələr şəhəri haqqında neçə filmə baxsan, nə qədər məlumat əldə etsən də, hansı mənzərələrə malik olduğunu və necə əhəmiyyət daşıdığını yalnız onu görəndən sonra bilirsən. Ümummilli Lider Heydər Əliyev burada dəfələrlə olmuş, estakada və meydançaları gəzmiş, dənizin qoynunda hünər göstərən neftçilərlə görüşmüş, bir sözlə, Neft Daşlarını sevmişdi. Buraya səfər edəndən sonra Neft Daşları haqqında həqiqəti özünün dahiyanə fikri ilə ifadə etmişdi: "Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz".

"Neft Daşları", ilk növbədə, karbohidrogenlərlə zəngin dəniz yatağıdır. Bu yataq Xəzər dənizinin akvatoriyasında, Abşeron neftli-qazlı rayonunda, Bakı şəhərindən 110, Pirallahı adasından 50 kilometrlik məsafədə yerləşir. Yataq "Neft Daşları" NQÇİ (Neft və Qazçıxarma İdarəsi) tərəfindən istismar olunur. Burada ilk neft quyusu 1949-cu il noyabrın 7-də fontan vurub. 1951-ci ildən "Neft Daşları"nın, 1963-cü ildən isə "Palçıq Pilpiləsi"nin sənaye əhəmiyyətli işlənməsinə başlanıb. Həmin vaxtdan indiyədək bu yataqlardan fasiləsiz olaraq neft və qaz çıxarılır. Bu, Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir.

"Neft Daşları"nın ərazisini sulardan baş qaldıran çıxıntıların - qara daşların yaxınlığında müşahidə ediblər. Odur ki, ilk adı "Qara daşlar" olub. Bu yatağın kəşfi, işlənməsi, sonra da burada - dənizin açıq qoynunda oxşarı olmayan bir şəhərin salınması Azərbaycanın geoloqlarının, neft mütəxəssislərinin, sənaye tikintisi ilə məşğul olan inşaatçılarının və əlbəttə, fədakar dəniz neftçilərinin qəhrəmanlığı sayəsində mümkün olub. Əslində, dəniz neftçisi adlanan bir peşə də elə bu möcüzələr adasında yaranaraq formalaşıb.

Dəniz neftçilərinin 23 nəfərdən ibarət ilk dəstəsi 1948-ci ildə birinci quyunun kəşfiyyatına başladı. Böyük neft təşkilatçısı Sabit Orucovun, geoloq Ağaqurban Əliyevin və qazma sahəsində zəngin təcrübəyə malik mühəndis Yusif Səfərovun təklifi ilə əlavə xərclərə yol verməmək və işçi qüvvəsinə qənaət etmək üçün Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş yeddi iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırıldı. Süni buxta yaradıldı. Bu dəfə isə məkanı "Yeddi gəmi adası" adlandırmağa başladılar. Qəhrəmanlıq mücəssəməsi olan əfsanəvi "Yeddi gəmi adası" Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrildi... Usta Mixail Kaveroçkinin başçılıq etdiyi qazmaçılar briqadasının 1 nömrəli quyudan götürdüyü nümunə 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasından xəbər verirdi. Beləcə, 74 il əvvəl noyabrın 7-də quyu fontan vurdu. Bu, dünya dəniz nefti erasının başlanması demək idi.



Sonrakı dövrdə Xəzərdə tikinti işləri geniş vüsət aldı. 1951-ci ildən estakada və meydançaların tikintisinə, hidrotexniki qurğuların, kommunikasiya xətlərinin, istehsal və yaşayış təyinatlı obyektlərin inşasına başlandı. Bu isə dünyada analoqu olmayan Neft Daşları adlı şəhərin qurulmasının başlanğıcı idi. Polad dirəklər üstündə qurulan, o vaxt da, elə indinin özündə də heç yerdə bənzəri olmayan, dünyanı heyrətə gətirən bir şəhərin...

Neft Daşlarını möcüzə adlandırsalar, əfsanəyə bənzətsələr də, o, əsl həqiqətdir, işləyən, yaşayan, qurub-yaradan şəhərdir. Lakin elə bir şəhərdir ki, burada məktəblər, uşaq bağçaları, insanların ailəliklə yaşadığı mənzillər, evlər yoxdur. Beş və doqquz mərtəbəli yataqxanalar, yeməkxanalar, vertolyot meydançası, tibbi-sanitar hissə, mağazalar var. Bu şəhərdə yalnız neftçilər yaşayır, həm də təkcə əmək növbələri günlərində. Neftçilər dedikdə təkcə dənizin dərin qatlarından "qara qızıl"ı çıxaranlar deyil, böyük neftçi "ailə"sinin bütün üzvləri - geoloqlar, kəşfiyyatçılar, qazmaçılar, inşaatçılar, rabitəçilər, energetiklər, nəqliyyatçılar və xidmət sahələrində çalışanlar nəzərdə tutulur. Onlar "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin, eləcə də neçə-neçə digər müəssisə və təşkilatın nümayəndələridirlər. Növbələşərək işləyirlər - bir həftə dənizdə, növbəti həftə quruda, ev-eşiklərində olurlar.

Neft Daşları, yaşı artsa da, "qocalmır". Son illər ərzində "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarında onlarca stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, estakadalar inşa edilib. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.

Yamyaşıl parkları, gül-çiçəyi, ikimərtəbəli "Çay evi", idman zalı bu şəhərin başqa bir möcüzəsidir. Çünki bunların hamısı açıq dənizin qoynunda, polad meydançaların üstündədir.

Ulu Öndər Heydər Əliyev Neft Daşlarını "XX əsrdən XXI əsrə atılan körpü" , "Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsi"adlandırıb. Prezident İlham Əliyev dəfələrlə qəhrəmanlıq salnaməsi davam edən bu qeyri-adi şəhərdə olub, onun fədakar "sakinləri" - Xəzərin sərt fırtınalarına sinə gərən neftçilərlə görüşüb. Dövlətimizin başçısının "Neft Daşları hələ uzun illər Azərbaycana çox ləyaqətlə xidmət edəcəkdir" sözlərinin isə şərhə ehtiyacı yoxdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Erməni canilərinin Bakı mühakiməsi

## Əllərini dinc azərbaycanlıların qanına bulayan qatillər indi Azərbaycan qanunları qarşısında cavab verirlər













Milli kimliyimizə düşmən kəsilərək xalqımıza qarşı kütləvi qətliamlar, soyqırımlar törədən cinayətkar erməni separatçıları indi bir-bir Azərbaycan qanunları qarşısında cavab verirlər.

Xocalının Meşəli kəndində dinc sakinlərimizə divan tutan Vaqif Xaçatryan əsirlikdə, girovluqda işgəncə verdiyi insanlarımızın şahidliyi ilə məhkəmədə qanlı əməllərinə görə sorğulanır. Əvvəlcə məhkəmə proseslərində kimliyini, törətdiyi qatil əməlləri danan Meşəli canisi tutduğu bu iyrənc və riyakar yolla qanun qarşısında cavab verməkdən yayına bilməyəcəyini anlayaraq, çıxış yolunu yağlı dilini işə salaraq dilimizdə vaxtilə işgəncə verdiyi insanlara "qadan alım", "başına dönüm" deməkdə, xalqımızdan üzr istəməkdə, gah da ağlamaqda görür…

Lakin bütün bu kələklərinin qaniçən Xaçatryana heç bir faydası yoxdur və o törətdiyi murdar əməllərinin haqq-hesabını verəcək.

### Təlxəklərin çay dəstgahı

Qolları qandallanaraq Bakıya gətirilən qondarma qurumun oyuncaq prezidentləri, deputatları, nazirləri - David İşxanyan, Davit Manukyan, Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan və digərləri Bakıda istintaq təcridxanasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin oktyabrın 15-də Xankəndidə bayrağımızı dalğalandıran zaman dediyi kimi çay içə-içə qara aqibətlərini düşünürlər: "Bax burada oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir".

Neçə illər idi ki, xunta rejiminin kriminal ünsürləri Bakıya gəlməkdən ötrü alışıb yanırdılar. Vaxtilə Qarabağda at oynadan bu qaniçənlərin Bakı sevdası o qədər ağıllarını başlarından almışdı ki, bizə hədə-qorxu gəlir, sərsəm bəyanatlar verir, hətta xalqımıza qarşı törətdikləri qatil əməlləri dünya qarşısında etiraf etməkdən belə çəkinmirdilər.

Sələfləri, uşaq qatili Serj Sarkisyanın qanlı yolunun yolçuları olan bu quldur dəstəsi gecə-gündüz hərbi texnikalarının paytaxtımızın küçələrində şütüyəcəyinin, Bakıda çay içəcəklərinin xülyasına qapılır, hədyan-hədyan danışırdılar. Nəhayət, İlahi ədalətin bərqərar olduğu həmin zaman yetişdi və erməni quldurları da onilliklərdir istəyində olduqları kimi Bakıya gəldilər... Amma qolları qandallı, başları aşağı vəziyyətdə.

Təbii ki, separatçıların ən böyük arzusu olan - Azərbaycan çayı içmək diləkləri də gözardı edilmədi və indi istintaq təcridxanasında günün üç öyünü İşxanyana, Manukyana, Qukasyana, Sahakyana, Harutyunyana "xoruzquyruğu" çay verilir.

"Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç təlxək bax burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi", - deyə Xankəndidəki çıxışında Müzəffər Ali Baş Komandan vurğuladı ki, bu minvalla artıq separatçılar öz layiqli istəklərinə, arzularına çatıblar.

### Arayik Harutyunyan niyə azğınlaşmışdı?

Son iki yüz il ərzində, eləcə də 1990-cı illərin əvvəllərində xalqımıza qarşı ard-arda müsibətlər yaşadan, Birinci Qarabağ müharibəsində Ballıqaya, Ağdaban, Başlıbel, Meşəli kimi faciələr törədən erməni faşistləri 1992-ci il fevralın 26-da Xocalı sakinlərinə qarşı soyqırımı həyata keçirdilər. 613 günahsız insanı xüsusi amansızlıqla qətlə yetirən qatillər 8 ailəni tamamilə Yer üzündən sildilər. Həmin gün 1275 Xocalı sakini girov götürülüb və erməni cəlladları tərəfindən amansız işgəncələrə məruz qalıb.

Lakin erməni faşizmi bunlarla da kifayətlənməyib və getdikcə daha da azğınlaşıb. 44 günlük Vətən müharibəsi zamanı dəfələrlə müharibə meydanından kilometrlərlə uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə tutaraq terror törədən, mülki vətəndaşlarımızı qətlə yetirən qatil ermənilər əməllərinin cəzasız qalacağını düşünürdülər.

Buna görə idi ki, qondarma rejimin cinayətkar başçısı Arayik Harutyunyan 2020-ci ildə Gəncə şəhərini vur əmrini verdiyini, Azərbaycanın digər böyük şəhərlərinə də zərbə endirəcəklərini videokamera önündə etiraf etmişdi.

Arayiki azğınlaşdıran digər bir məqam isə beynəlxalq ictimaiyyətin erməni faşizminə göz yumması, bəzi qərəzli ölkə və təşkilatların təcavüzkar Ermənistana və qondarma separatçı quruma dəstək verməsi idi.

Lakin Azərbaycan 2020-ci il Vətən müharibəsində 44 günə, 2023-cü ildə keçirdiyi antiterror tədbirləri zamanı isə cəmi 23 saata Ermənistana, qondarma quldur rejiminə və onlara havadarlıq edən xarici qüvvələrə göstərdi ki, milli maraqlarının təmini ilə bağlı atıldığı istənilən döyüşdə bütün gücləri qarşısında diz çökdürməyə qadir ölkədir.

Eyni zamanda qüdrətli Azərbaycan xalqımıza qarşı törədilən bütün cinayətlərin qisasını layiqincə almaq iqtidarındadır.

Elə Gəncə qətliamının üçüncü ildönümü ərəfəsində qatil Arayik Harutyunyanın qandallanaraq Bakıya qanunlarımız qarşısında cavab verməyə gətirilməsi də bunun bariz göstəricilərindəndir.

### Haqq-ədalət zəfər çaldı

Azərbaycan xalqı bu günləri görməyin arzusu ilə ürəyində düşmənə qəzəb, qisas hissi ilə illərlə səbirlə dözüb yaşadı. Nəhayət, haqq-ədalət zəfər çaldı.

Ötən illər ərzində qalib lider İlham Əliyevin ardıcıl və qətiyyətlə apardığı məqsədyönlü siyasət bizi həm qalib xalq etdi, həm də onilliklərdir qəlbimizdə olan qisas hissinin üzərinə sərin su çilədi.

Xalqımızın heysiyyətini tapdalayan, əllərini dinc insanlarımızın qanlarına bulayan erməni qatilləri indi bir-bir ədalət qılıncının altından keçirilirlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## ZƏFƏR gündəliyi
## 2 noyabr 2020-ci il

Noyabrın 1-i gün ərzində və 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutur.



Döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir.

Müdafiə olunan düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənmək üzrədir. Avtomobil və digər hərbi texnika üçün ehtiyat hissələri çatışmır.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün "X" hesabında paylaşım edərək xalqa müjdəli xəbər verir:




"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən bölmələrimizin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutur.

Noyabrın 2-nə keçən gecə müxtəlif vaxtlarda Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Azərbaycanın Qazax, Tovuz və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə tutulur.

❖ ❖ ❖

Saat 06:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam və Ağcabədi rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖

Düşmən cəbhənin Zəngilan istiqamətində mövqelərimizə hücum etməyə cəhd göstərir. Bu istiqamətdə bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iriçaplı silahlardan istifadə etməklə bölmələrimizin mövqeləri atəşə tutulur.



Düşmənin hücuma keçmək niyyəti bölmələrimiz tərəfindən vaxtında aşkar edilib və həyata keçirilən uğurlu əməliyyat nəticəsində qarşı tərəf ciddi itkilərə məruz qalır.

Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən Ermənistan ərazisinə çəkilməyə məcbur edilir.

Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin Su-25 döyüş təyyarəsi də məhv edilir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər rayonunun Şıxarx qəsəbəsi, Qəzyan və Qapanlı kəndləri, Goranboy rayonunun Yenikənd kəndi intensiv artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Düşmənin daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərində yerləşən canlı qüvvəsi dəqiq zərbələrlə məhv edilir.

Eyni zamanda Qırmızı Bazar istiqamətində düşmənin qərargahı atəşə məruz qalır.

❖ ❖ ❖

Saat 18:00 radələrində Tərtər rayonunun Çardaqlı kəndində (keçmiş Ağdərə rayonunun Maqavuz kəndi) yerləşdirilmiş düşmənin KUB zenit-raket kompleksi dəqiq atəşlə məhv edilir.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# Qərbi Azərbaycan İcmasının BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına məktubu qurumun ali orqanlarının rəsmi sənədləri kimi yayılıb

Xəbər verdiyimiz kimi, Qərbi Azərbaycan İcması 2023-cü il avqustun 10-da BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə məktub göndərərək, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə aparması və onların evlərinə qayıtmasına əngəl törətməsi nəticəsində insan hüquqlarının kütləvi şəkildə pozulması barədə müfəssəl hüquqi qiymətləndirmə təqdim etmişdi.

Bu günlərdə həmin müraciət BMT-nin Təhlükəsizlik Şurasının və Baş Assambleyasının gündəliyinin soyqırımının, etnik təmizləmənin, insanlıq əleyhinə cinayətlərin qarşısının alınması, irqçiliyin və ksenofobiyanın aradan qaldırılmasına dair bəndləri altında həmin ali orqanların rəsmi sənədləri kimi yayılıb. Bu barədə AZƏRTAC-a icmadan məlumat verilib.

İcma xatırladıb ki, sənəddə BMT-nin insan hüquqları üzrə qurumları sözügedən insan hüquqları pozuntuları ilə bağlı qərəzsiz və hərtərəfli araşdırma aparmağa, Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına köməklik göstərməyə, etnik təmizləməni, mədəni-tarixi irsin məhv edilməsini həyata keçirənlərin, zorakılıq edənlərin və qovulmuş azərbaycanlıların geri qayıtmasına maneə yaradanları məsuliyyətə cəlb olunması istiqamətində səylər göstərməyə çağırılır.

Qeyd edilib ki, müraciətin BMT-nin ali orqanlarının rəsmi sənədləri kimi yayılması BMT orqanlarının Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsi ilə sistemli şəkildə məşğul olmaları üçün əsasları daha da gücləndirib.

İcma Qayıdış Konsepsiyasına uyğun olaraq, sülh yolu ilə təhlükəsiz şəkildə və ləyaqətlə qayıdış hüququnun təmin edilməsi məqsədilə beynəlxalq səylərini davam etdirəcək.

## 100 il yol keçən elm mərkəzi

# "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" və onun elmi kitabxanası

**XX əsrin 20-ci illərinin əvvəllərində fəaliyyət göstərən elmi təşkilatlar içərisində xüsusi yer tutan, elmin inkişafında əvəzsiz xidməti və çəkisi olan təşkilatlardan biri də "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"dir.**



1923-cü ilin yazında "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin yaradılması xahişi ilə Bakıda bir qrup ziyalı Xalq Maarif Komissarlığının kollegiyasına müraciət edir. Həmin il noyabrın 2-də Bakı Maarif Evində cəmiyyətin təsis yığıncağı çağırılır və burada Azərbaycanın 44 nəfər alim və mütəxəssisi iştirak edir. Cəmiyyətin nizamnaməsi və strukturu müəyyənləşdirilir. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" 3 bölmədə fəaliyyətə başlayır: Tarix-etnoqrafiya bölməsi, İqtisadiyyat bölməsi, Elmi-təbiətşünaslıq bölməsi (Sonradan Türkologiya bölməsi adı ilə fəaliyyət göstərmişdir).

Azərbaycanda 1920-ci ildən yaranmağa başlayan elmi mərkəzlərin, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (Az.DETİ) ətrafında birləşməsi, onun bazası əsasında SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Şöbəsinin (EA ZFAŞ), SSRİ EA Azərbaycan Filialının (EA AF), Azərbaycan SSR Elmlər Akademiyasının, nəhayət, Azərbaycan Milli Elmlər Akademiyasının yaranması Azərbaycan elminin keçdiyi 100 illik böyük tarixi inkişaf mərhələsi olmuşdur.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" özünün 6 illik fəaliyyəti dövründə I Ümum Azərbaycan Ölkəşünaslıq qurultayının, I Ümumittifaq Türkoloji qurultayın keçirilməsini təşkil etmiş, eyni zamanda türkləşdirmənin, latın qrafikasına keçidin təşkilatçısı olmuşdur. Cəmiyyət Azərbaycan elminin təşəkkülündə və inkişafında xüsusi rol oynamış və keçən əsrin 20-ci illərində ilk elmi-tədqiqat mərkəzlərinin yaranmasına, birgə fəaliyyətinə şərait yaradaraq elmi kadr potensialının formalaşmasında yardımçı olmuşdur.

Cəmiyyət respublikanın tarixinə, etnoqrafiyasına və iqtisadiyyatına dair materiallar toplayır, tədqiq edir və elmi şəkildə işləyərək nəşrə hazırlayırdı. Eyni zamanda bu tədqiqatların, nəşrlərin elmi ictimaiyyət arasında geniş təbliğ olunması və yayılması işinin təşkilini də cəmiyyət öz üzərinə götürürdü. Buna görə də "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin yaranmasının birinci ilində - 1923-cü ilin noyabrın 4-də Biblioqrafiya Bürosu, noyabrın 18-də isə cəmiyyətin kitabxanasının təşkil olunması haqqında qərar qəbul edildi.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin 4 noyabr 1923-cü il tarixli yığıncağında təşkilat komitəsi biblioqrafiya komissiyasının rəhbəri professor A.V.Baqrinin məruzəsini də dinləyərək qərara aldı ki, Cəmiyyətin Mərkəzi Şurası yanında Biblioqrafiya Bürosu yaradılsın.

Biblioqrafiya Bürosuna rəhbərlik etmək ədəbiyyatşünas, biblioqraf professor A.V.Baqriyə tapşırılır. Biblioqrafiya Bürosu elmi-tədqiqat işlərinə biblioqrafiya xidmətini genişləndirmək məqsədilə gərgin axtarışlar aparır. Cəmiyyətin Rəyasət Heyəti Biblioqrafiya Bürosuna ilk dövrlər üçün tam olmasa da Azərbaycan haqqında olan çap məhsullarının əlifba göstəricisinin hazırlanması işinə başlamağı tövsiyə edir. Bundan sonra büro bu yöndə işlərini qurmağa başlayır.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" Biblioqrafiya Bürosu ilə yanaşı, təsis yığıncağında öz kitabxanasının da yaranması haqqında məsələ qaldırır. Lakin Rəyasət Heyəti tərəfindən kitabxananın yaradılması hələlik məqsədəuyğun sayılmır və Baş Siyasi Maarif İdarəsinin nəzdində olan Bakı kitabxanalarından birinin fondundan istifadə etmək üçün icazə verilməsi xahiş edilir. Cəmiyyətin 1923-cü il 18 noyabr iclasında İ.F.Blinov elmi müəssisələrin nəşrlərinin pulsuz olaraq əldə edilməsi, hətta, lazım olan elmi əsərlərin pulla alınıb bir yerə yığılması və kitabxananın təşkil edilməsi təklifi ilə məruzə edir.

1923-cü il 14 dekabr tarixində cəmiyyətin fəaliyyəti barədə məlumat verən A.N.Samoyloviçin məruzəsində qeyd edilir ki, Cəmiyyətin Müvəqqəti Şurası artıq öz kitabxanasının təşkilinə başlamışdır. Belə ki, təşkil olunandan bu günə qədər kitabxanaya cəmiyyət üçün lazım olan xeyli sayda ədəbiyyat gəlməyə başlamışdır. Azərbaycanın möhtəşəm və zəngin kitabxanalarından biri olan AMEA Mərkəzi Elmi Kitabxanası, elmi-sahə kitabxanalarının ilk rüşeymi kimi həmin vaxtdan -1923-cü ilin noyabrından müasir dövrümüzə qədər müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir.

Beləliklə, elmin inkişafında kitabxanaların bir baza rolu oynadığını nəzərə alan "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" yarandığı birinci ilində özünün kitabxanasını təşkil etdi. Təşkil edilərkən kitabxananın fondu 430 nüsxə kitab və 200 qiymətli əlyazmalardan ibarət idi.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Mərkəzi Şurasının 1924-cü il 14 may tarixli iclasında Biblioqrafiya Bürosunun işi haqqında büronun rəhbəri A.V.Baqri məruzə edir. Onun məruzəsi müzakirə edildikdən sonra cəmiyyətin Mərkəzi Şurası Rəyasət Heyətinə tapşırır ki, kitabxanada aparılan kataloqlaşdırma ilə Biblioqrafiya Bürosunun işində paralelçilik olduğuna görə cəmiyyətin kitabxanası Biblioqrafiya Bürosu ilə birləşdirilsin. Rəyasət Heyətinin 1925-ci il 9 avqust tarixli iclasının qərarına əsasən kitabxana və Biblioqrafiya Bürosu birləşdirilib "Kitabxana-Biblioqrafiya Bürosu" yaradıldı və Hənəfi xan Zeynallı büronun sədri seçildi.

1925-ci ilin 29 avqustunda "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin iclası çağırıldı. Orada qeyd edildi ki, elmi işçiləri yazılı və şifahi arayışlarla vaxtında təmin etmək üçün elmi-məlumat şöbəsinin yaranması ən vacib məsələdir. Bu aparatın və ya şöbənin yaradılmasında məqsəd Azərbaycan haqqında hər növ arayışlara ehtiyacı olanların tələbini ödəməkdir. Cəmiyyətin qiymətli kitabxanası bu işdə baza rolunu oynaya bilər. Bu zaman kitabxananın fondunda 10000 ədəbiyyat toplanmışdı ki, bunların içərisində hətta nadir ədəbiyyatlar da var idi. Müzakirələr nəticəsində kitabxana bazasının mövcudluğu əsas götürülərək qərara alınır ki, "Elmi-məlumat şöbəsi"nin yaranması vacib sayılsın.

1926-cı ildə kitabxanada oxu zalı və elmi-metodik kabinə yaradılmışdı. Kitabxana fondunu həm cəmiyyətin özünün nəşr etdiyi kitablarla, həm də mübadilə yolu ilə əlaqə saxladığı SSRİ-nin bütün elmi müəssisələrinin nəşrləri ilə komplektləşdirirdi. 1928-ci ildə Azərbaycan Dövlət Kitab Palatası Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyəti vasitəsilə Amerika və Almaniyanın elmi müəssisələrindən ölkəşünaslığa dair ədəbiyyat alıb kitabxanaya verdi. Eyni zamanda "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" də öz nəşrlərini SSRİ-nin elmi cəmiyyət və kitabxanalarına göndərirdi. Məsələn, akademik A.V.Bartoldun "Xəzəryanı ərazilər və müsəlman dünyası tarixi" əsərini aldığı üçün Daşkənd Mərkəzi Asiya Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin kitabxanası cəmiyyətə öz təşəkkürünü bildirərək mübadilə üçün "Divani-Məşrəb" kitabını göndərmişdi. Kabardin-Balkar "Ölkəşünaslıq Cəmiyyəti" və s. elmi mərkəzlər və kitabxanalar da öz əsərləri ilə mübadilə üçün cəmiyyətə müraciətlər etmişdilər.

Sürətlə inkişaf edən kitabxana Biliklərin Populyarlaşdırılması bürosunun binasında yerləşirdi. Kitabxananın fondu yarıqaranlıq bir otaqda rəflərdə düzülmüşdü. Kitabxananın geniş, təmirli və yararlı otaqla təmin olunmasına ehtiyac var idi. Bu vəziyyəti nəzərə alan Rəyasət Heyəti 10 mart 1926-cı ildə kitabxanaya 4 otaq verilməsini qərara alır.

1928-ci ildə Kitabxana komissiyası yaradılır. H.Sultanov komissiyanın sədri seçilir. Kitabxana komissiyasının tərkibinə seçilən alimlər Q.S.Qubeydullin, A.R.Zifeldt, K.A.Krasusski kitabxananın işində fəal iştirak edən ziyalılar idi.

1925-1926-cı illərdə kitabxananın fondunda 20000 kitab və çoxlu əlyazmaları var idisə, 1928-ci ildə burada artıq 25000 nüsxə ədəbiyyat cəmləşmişdi. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin və onun kitabxanasının qarşısında bu əlyazmaları çap etdirib oxuculara çatdırmaq vəzifəsi də dururdu. Bu materialların çoxu Azərbaycana, Qafqaza, türkologiyaya - ümumilikdə şərqşünaslığa aid idi. Kitabxana fondunun belə bir tərkibi Azərbaycanın gənc alim və tədqiqatçılarına hərtərəfli xidmət göstərməkdə böyük rol oynayırdı. 1929-cu ildə Azərbaycanda sovet hakimiyyətinin yaranmasının 9 illiyi ilə əlaqədar olaraq kitabxana öz fondunda olan nadir və qiymətli ədəbiyyat da daxil olmaqla zəngin bir kitab sərgisi təşkil etdi.

Kitabxananın 1929-cu il hesabatında göstərilir ki, bura Azərbaycana və Şərqə aid çox qiymətli materiallarla zəngindir. Mütəmadi olaraq hətta, xarici ölkələrdən belə mətbuat alınır. Fondun belə zənginləşməsi kitabxanadan istifadə edən oxucuların da sayının getdikcə artmasına səbəb olurdu. Belə ki, 1929-cu ildə hər gün orta hesabla kitabxanadan 70 oxucu istifadə edirdi.

Öz qarşısında elm və texnikanın bütün sahələrinə xidmət etmək vəzifəsi qoyduğundan kitabxana bütün elm sahələrinə dair kitabları öz fonduna toplayaraq təbliğ edirdi.

1925-ci il 19 avqustda Cəmiyyətin Rəyasət Heyətinin iclasında A.Zifeldtin Kitabxana-Biblioqrafiya Bürosu haqqında məruzəsi dinlənildi. Məruzəni müzakirə edən iclas qərara aldı ki, Biblioqrafiya Bürosunun əvəzinə Kitabxana-Biblioqrafiya Bürosu təsis edilsin, büronun sədri H.Zeynallı, üzvləri Ş.Manatov, X.Terequlov, M.Səlimcanov, Z.Novşirvanov, A.Paxomov, A.Dalavassera olmaqla təsdiq edilsin. Beləliklə, kitab aləmində peşəkar olan görkəmli alim və ziyalılar cəmiyyətin kitabxana işinə cəlb edilmişdilər.

1928-ci il oktyabrın 13-də kitabxanaya rəhbərlik bu işdə səriştəsi olan Fərrux Şabanova tapşırılır. Eyni zamanda H.Sultanovun sədrliyi ilə Apresov, Q.Qubeydullin və A.Zifeldt kimi alimlərdən ibarət Kitabxana Komissiyası yaradılır.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti kitabxanasında 5 nəfər kitabxanaçı kadr çalışırdı.

Hələ 1924-cü ilin aprel ayında Biblioqrafiya Bürosu xeyli jurnal almışdı. Bunlar həm müxtəlif biliklərin təbliği, həm də cəmiyyətin ayrı-ayrı bölmələri üçün nəzərdə tutulan jurnallar idi. Jurnalların alınması üçün hər biri 3 rubl olmaqla 330 rubl pul vəsaiti ayrılmışdı. 1924-cü ilin axırında cəmiyyətin ilkin tələbatını ödəmək üçün 20403 rubl pul ayrılmışdı. Ayrılan vəsait cəmiyyətin ayrı-ayrı bölmə və komissiyalarına, Biblioqrafiya və Fotoqrafiya bürolarına avadanlıq və kitabxana üçün kitab alınması kimi vacib sahələrə verilmişdi. Kitabxana işinin təşkilati məsələlərinə 2500 rubl vəsait nəzərdə tutulsa da, 2250 rubl ayrılmışdı ki, bu da ancaq bəzi kitabların və müxtəlif kitabxana ləvazimatlarının alınmasına xərclənmişdi.

Cəmiyyətin kitabxanasının yararlı otaqlara və ya ayrıca binaya ehtiyacı olması demək olar ki, bütün iclaslarda müzakirə olunurdu. Təftiş Komissiyasının rəyində qeyd edilirdi ki, Leninqraddan da bir neçə min clddə kitablar daxil olacaqdır. Onları yerləşdirmək üçün ayrıca binaya ehtiyac vardır. Binadan əlavə kitabxananın düzgün kataloqlaşdırılması qayğısına qalınmalı, kitabxananın idarə edilməsi üçün hər bölmədən bir nəfər olmaqla kitabxana işində təcrübəsi olan şəxslərdən ibarət komissiya yaradılmalıdır. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" elmi kitabxananın ədəbiyyatla komplektləşdirilməsini daim diqqət mərkəzində saxlamalıdır. Bunun nəticəsi olaraq 1926-cı ildə cəmiyyət Ağaoğlunun şəxsi kitabxanasını 1000 rubla alıb kitabxanaya vermişdi. Cəmiyyətə maddi vəsait müxtəlif mənbələrdən daxil olurdu. Bu mənbələr - XKS, XMK, cəmiyyətin özünün nəşrlərindən əldə etdiyi gəlirlər və sairə idi. 1926-cı ildə cəmiyyət öz gəlirindən kitabxana üçün ədəbiyyatın alınmasına 4500 rubl ayırmışdı.

Azərbaycanda elmi fikrin inkişafı, respublikada elmi kadrların hazırlanması işində mühüm mərkəz olan ali təhsil ocaqları və elmi-tədqiqat idarələrinin yarandığı və inkişaf etməyə başladığı bir dövrdə bütün çətinliklərə baxmayaraq, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin kitabxanasının - Azərbaycanda ilk fundamental elmi və mədəni-maarif müəssisəsi kimi yaranması ölkənin elmi həyatında mühüm hadisə idi. Kitabxana Azərbaycanda təşkil edilən ilk elmi kitabxana kimi respublikada milli kadrların hazırlanmasında, böyük bir ziyalılar nəslinin dünyagörüşünün formalaşmasında və inkişafında xüsusi rol oynamışdır. 100 ildir ki, özünün milyonlarla kitab fondu ilə elmi işçilərə xidmət edən, dünyanın yüzlərlə iri kitabxanaları ilə mübadilə apararaq ölkənin ən böyük və nüfuzlu elmi kitabxanası sayılan AMEA MEK-in özülünü təşkil etmişdir.

*Aypara RÜSTƏMOVA,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Vergi Məcəlləsinin (bundan sonra - Vergi Məcəlləsi) 33.8-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması ilə bağlı təşkilati və hüquqi əsasları müəyyən edir.

1.2. Bu Qayda Vergi Məcəlləsinin 19-cu maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən qeyri-rezidentlərə şamil edilmir.

1.3. Elektron ticarəti həyata keçirən qeyri-rezidentlər ƏDV-nin məqsədləri üçün elektron qaydada vergi uçotuna (bundan sonra - vergi uçotu) alınırlar.

1.4. Bu Qaydanın məqsədləri üçün internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezident (bundan sonra - qeyri-rezident) dedikdə internet informasiya ehtiyatı vasitəsilə xidmətlərin göstərilməsi və işlərin görülməsi, o cümlədən elektron kitabların, musiqinin, audio və video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər üzrə satıcı (təchizatçı) kimi çıxış edən, Vergi Məcəlləsinin 13.2.6.6-cı maddəsində nəzərdə tutulan qeyri-rezident şəxs nəzərdə tutulur.

1.5. Qeyri-rezident tərəfindən bu Qaydanın 1.4-cü bəndində qeyd olunan iş və xidmətlər üzrə aşağıdakı şərtlərdən hər hansı biri ödənildiyi halda vergi bəyannaməsi təqdim edilir:

1.5.1. işləri və xidmətləri qəbul edən (alan) rezident şəxs ödənişi Azərbaycan Respublikasında yerləşən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı, poçt rabitəsinin milli operatoru və ya digər ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirdikdə;

1.5.2. işləri və xidmətləri qəbul edən (alan) rezident şəxs Azərbaycan Respublikasında yerləşdikdə;

1.5.3. işləri və xidmətləri almaq üçün həmin işləri və xidmətləri qəbul edən (alan) rezident şəxsin istifadə etdiyi cihazın IP ünvanı Azərbaycan Respublikasında yerləşdikdə;

1.5.4. işləri və xidmətləri almaq və ya ödənişi etmək üçün rezident şəxsin istifadə etdiyi mobil operatorların ölkə kodu Azərbaycan Respublikasına aid olduqda.

1.6. Bu Qaydada istifadə olunan anlayışlar Vergi Məcəlləsi və digər normativ hüquqi aktlar ilə müəyyən edilən mənaları ifadə edir.

1.7. Bu Qaydaya uyğun olaraq uçota alınan qeyri-rezident şəxs tərəfindən Vergi Məcəlləsinin XI fəslinin məqsədləri üçün işlərin və xidmətlərin göstərilməsi Vergi Məcəlləsinin 169-cu maddəsinə əsasən vergi agenti tərəfindən ödəmə mənbəyində vergiyə cəlb edilmir və bu əməliyyatlar üzrə yaranan vergi öhdəliyi qeyri-rezident şəxs tərəfindən Vergi Məcəlləsinə uyğun olaraq ümumi qaydada hesablanıb ödənilir.

1.8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti) ilə Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı, poçt rabitəsinin milli operatoru və ya digər ödəniş xidməti təchizatçıları arasında bu Qaydanın tələblərinin yerinə yetirilməsi, habelə həmin şəxslərin əvvəlcədən məlumatlandırılması məqsədilə bu Qaydaya uyğun olaraq vergi uçotuna alınmış, yenidən uçota alınmış və uçotdan çıxarılmış qeyri-rezidentlər barədə məlumatların mübadiləsi Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində elektron qaydada həyata keçirilir.

### 2. Qeyri-rezidentin vergi uçotuna alınması

2.1. Qeyri-rezident vergi uçotuna alınmaq üçün bu Qaydanın 2.7-ci və 2.8-ci bəndlərində qeyd olunan məlumatları və sənədləri Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsində yaradılmış Elektron ticarət iştirakçılarının vergi inzibatçılığına dair platformasına (bundan sonra - platforma) daxil edir.

2.2. Qeyri-rezident tərəfindən daxil edilmiş məlumatların və sənədlərin vergi orqanlarında mövcud olan məlumat bazalarından istifadə etməklə 20 (iyirmi) iş günü müddətində bu Qaydaya uyğunluğu yoxlanılır. Məlumatlar və sənədlər bu Qaydanın 2.7-ci bəndinə uyğun olduqda və bu Qaydanın 2.6-ci bəndində qeyd olunan imtina halları aşkar edilmədikdə qeyri-rezident şəxs uçota alınır.

2.3. Dövlət Vergi Xidməti tərəfindən qeyri-rezident uçota alınarkən ona vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra - VÖEN) verilir. Verilən VÖEN qeyri-rezidentin elektron poçt ünvanına göndərilir və qeyri-rezident bu barədə platforma vasitəsilə məlumatlandırılır.

2.4. Platformaya daxil olmaq üçün qeyri-rezidentə avtomatik qaydada login və parol təqdim edilir.

2.5. Bu Qaydanın 2.8-ci bəndində qeyd olunan sənədlərin düzgünlüyü mənbəyi bəlli olan məlumatlardan, beynəlxalq məlumat bazalarından və beynəlxalq müqavilələr çərçivəsində əldə edilən məlumatlardan istifadə etməklə Dövlət Vergi Xidməti tərəfindən yoxlanılır.

2.6. Qeyri-rezidentin uçota alınmasından aşağıdakı hallarda imtina edilir:

2.6.1. qanunla qadağan edilən fəaliyyəti həyata keçirdikdə;

2.6.2. təqdim edilən sənəd və məlumatlarda düzgün olmayan və (və ya) təhrif olunmuş məlumatlar aşkar edildikdə;

2.6.3. bu Qaydanın 1.2-ci, 1.4-cü, 2.7-ci və 2.8-ci bəndləri ilə müəyyən edilən tələblərə cavab vermədikdə.

2.7. Qeyri-rezident vergi uçotuna alınarkən onun barəsində aşağıdakı məlumatlar platformaya daxil edilir:

2.7.1. tam adı;

2.7.2. rezidenti olduğu ölkənin adı;

2.7.3. hüquqi ünvanı və baş ofisin yerləşdiyi faktiki ünvanı, poçt indeksi;

2.7.4. internet səhifəsi (mövcud olduqda);

2.7.5. elektron poçt ünvanı;

2.7.6. qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasiya) sənədinin nömrəsi;

2.7.7. qeydiyyata alındığı dövlətdə vergi uçotu nömrəsi;

2.7.8. əsas fəaliyyət sahəsi (sahələri);

2.7.9. vergi ödənişinin aparılacağı valyuta; (manat, ABŞ dolları, avro və ya funt sterlinq);

2.7.10. Azərbaycan Respublikasının vergi orqanında uçotda olan şəxs kimi fəaliyyətə başlayacağı tarix;

2.7.11. vergi öhdəliklərinin yerinə yetirilməsi üzrə azı 2 (iki) məsul şəxsin məlumatları (soyadı, adı, atasının adı, vəzifəsi, elektron poçt ünvanı və əlaqə telefonu).

2.8. Aşağıdakı təsdiqedici sənədlərin elektron nüsxəsi platforma üzərindən əlavə edilir:

2.8.1. qeyri-rezidentin qeydiyyata alındığı dövlətdə qeydiyyat (inkorporasiya) və ya vergi uçotu sənədi;

2.8.2. məsul şəxsin təyin edilməsini təsdiq edən sənəd (qərar, əmək müqaviləsi və s.).

2.9. Uçot məlumatlarında dəyişiklik qeyri-rezidentin müraciəti əsasında həyata keçirilir.

### 3. Qeyri-rezidentin yenidən uçota alınması və uçotdan çıxarılması

3.1. Qeyri-rezident aşağıdakı hallarda uçotdan çıxarılır:

3.1.1. qeyri-rezident vergi bəyannaməsini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə təqdim etməməsi barədə vergi orqanının xəbərdarlığından sonra 30 (otuz) iş günü müddətində təqdim etmədikdə;

3.1.2. qeyri-rezident vergi öhdəliyini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə təqdim etməməsi barədə vergi orqanının xəbərdarlığından sonra 30 (otuz) iş günü müddətində yerinə yetirmədikdə;

3.1.3. vergi orqanına qeyri-rezidentin uçotdan çıxarılması ilə bağlı müraciəti daxil olduqda;

3.1.4. qeyri-rezidentin fəaliyyətinə xitam verildikdə;

3.1.5. bu Qaydaya uyğun olaraq vergi uçotuna alınması üçün müraciət zamanı qeyri-rezidentin təqdim etdiyi məlumatlarda və sənədlərdə sonradan düzgün olmayan və (və ya) təhrif olunmuş məlumatlar aşkar edildikdə.

3.2. Bu Qaydanın 3.1.4-cü yarımbəndi istisna olmaqla, digər hallarda uçotdan çıxarılan qeyri-rezident bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq təkrar müraciət etdikdə, yenidən uçota alınır (bu şərtlə ki, yenidən uçota alındıqdan sonra qeyri-rezident tərəfindən əvvəlki öhdəliklər yerinə yetirilsin).

3.3. Qeyri-rezident uçotdan çıxarıldıqdan sonra yaranan vergi öhdəliyi Vergi Məcəlləsinin 169.3-cü maddəsinə uyğun olaraq yerinə yetirilir.

### 4. Qeyri-rezidentin öhdəlikləri

4.1. Qeyri-rezidentin öhdəlikləri aşağıdakılardır:

4.1.1. Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ƏDV bəyannaməsini təqdim etmək və vergiləri ödəmək;

4.1.2. bu Qaydanın 2.7-ci bəndində qeyd olunan məlumatlarda dəyişiklik baş verdikdə, bu cür dəyişiklik baş verdiyi gündən 20 (iyirmi) iş günü müddətində vergi orqanına müraciət etmək.

4.2. Qeyri-rezident bu Qaydaya uyğun olaraq təqdim etdiyi bütün sənədlərin və məlumatların, eləcə də təqdim edildikdən sonra dəyişdirilmiş (yenilənmiş) sənədlərin və məlumatların düzgünlüyünə cavabdehdir.

### 5. Məlumatların məxfiliyi

Vergi Məcəlləsinin 30.2-ci maddəsinin müddəaları nəzərə alınmaqla, qeyri-rezidentlərdən əldə edilmiş məlumatlar kommersiya və (və ya) vergi sirri hesab edilir və həmin məlumatlardan yalnız vergitutma məqsədləri üçün istifadə edilə bilər.

### 6. Borcların alınması

6.1. Qeyri-rezidentlərdən vergi borclarının alınması ilə bağlı Azərbaycan Respublikası vergi qanunvericiliyinin müddəaları tətbiq edilir.

6.2. Qeyri-rezidentin rezident olduğu dövlətlə Azərbaycan Respublikası arasında vergi borclarının alınmasını tənzimləyən ikitərəfli beynəlxalq müqavilə və ya hər iki dövlətin qoşulduğu çoxtərəfli beynəlxalq müqavilə mövcud olduqda, həmin qeyri-rezidentlərdən vergi borclarının alınması müvafiq beynəlxalq müqavilələrin müddəalarına əsasən həyata keçirilir.

### 7. Sənədlərə dair tələblər

7.1. Bu Qaydanın 2.8-ci bəndində qeyd olunan sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları (və ya həmin ölkədə Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin diplomatik nümayəndəliyi) tərəfindən leqallaşdırılmaqla təqdim edilir.

7.2. Bu Qaydanın 7.1-ci bəndindən asılı olmayaraq, qeyri-rezident şəxsin rezidenti olduğu ölkə "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən" 1961-ci il 5 oktyabr tarixli Haaqa Konvensiyasına qoşulduğu və bu Konvensiya Azərbaycan Respublikası ilə həmin dövlət arasında tətbiq edildiyi halda təqdim edilən təsdiqedici sənədlərin leqallaşdırılması tələb olunmur. Bu halda sənədlərə həmin ölkənin Haaqa Konvensiyası üzrə səlahiyyətli orqanı tərəfindən apostil vurulur.

7.3. Bu Qaydanın 7.1-ci və 7.2-ci bəndlərindən asılı olmayaraq, qeyri-rezident şəxsin rezidenti olduğu ölkə "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 2002-ci il 7 oktyabr tarixli Kişinyov Konvensiyasına qoşulduğu və bu Konvensiya Azərbaycan Respublikası ilə həmin dövlət arasında tətbiq edildiyi halda həmin dövlətin səlahiyyətli orqanı, yaxud şəxsi tərəfindən öz səlahiyyəti çərçivəsində verilmiş və gerbli möhürlə təsdiqlənmiş sənədlər leqallaşdırılmadan və apostil verilmədən qəbul edilir.

7.4. Azərbaycan Respublikasının və qeyri-rezident şəxsin rezi-denti olduğu ölkənin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdə bu Qaydanın 7.1-ci, 7.2-ci və 7.3-cü bəndlərində göstərilənlərdən fərqli qaydalar nəzərdə tutulduqda, sənədlərin rəsmiləşdirilməsi həmin beynəlxalq sazişlərə uyğun qaydada həyata keçirilir.

7.5. Bu Qaydanın 2.8-ci bəndində qeyd olunan sənədlər Azərbaycan və ya ingilis dillərində təqdim olunur. Sənədlər və ya məlumatlar digər dildə olduğu halda onların Azərbaycan və ya ingilis dilinə təsdiq edilmiş tərcüməsi də təqdim edilməlidir.

# Zəngilandan Naxçıvana...

## Yüklər rahat daşınacaq, gediş-gəliş imkanları asanlaşacaq

Şanlı zəfərimizdən ötən 3 il müddətində yeni yaranmış reallıqlar fonunda Şərqi Zəngəzur və Qarabağda böyükmiqyaslı layihələr həyata keçirən Azərbaycan həm də nəqliyyat-logistik sektorunun şaxələndirilməsi istiqamətində mühüm addımlar atır.



Həm işğaldan azad olunmuş ərazilərimizin yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur, həm də Şərqi Zəngəzurdan Naxçıvana asan gediş-gəlişin təmin edilməsi istiqamətində işlər davam etdirilir.

Bu layihələrdən biri də oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşasıdır.

Bu layihə ilə bağlı hələ ötən il iki ölkə arasında razılıq əldə edilmişdi. Anlaşma memorandumu 2022-ci ilin martın 11-də imzalanmışdı. Bu, ilk növbədə, Azərbaycanın geostrateji müstəvidə yeni qələbəsi, tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirilmişdi. Bu il sentyabrın 21-də isə Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində İranla dövlət sərhədində inşa olunacaq Ağbənd avtomobil yolu körpüsünün təməlqoyma mərasimi keçirilmişdi. Həmin zaman bildirilmişdi ki, uzunluğu 112 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunu İran İslam Respublikasının avtomobil yolları şəbəkəsi ilə Araz çayı üzərindən birləşdirəcək körpünün uzunluğu 216 metr, eni isə 24,5 metr olmaqla layihələndirilib. Yeni layihəyə əsasən, 7 gediş-gəliş xətti olacaq buraxılış məntəqəsi, eləcə də avtomobil körpüsü gündəlik ən azı 1100 yük-nəqliyyat (ixrac, idxal və tranzit malları) vasitələrini qəbul etmək imkanına malik olacaq.

Oktyabrın 6-da Azərbaycanla İran arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzurla Naxçıvan arasında yeni dəmir yolu xəttinin çəkilməsi ilə bağlı da sənədlər imzalandı. Bu sənədlərə əsasən İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu xəttinin və dəmir yolu körpüləri və Azərbaycan-İran dövlət sərhədində Ağbənd (Azərbaycan Respublikası) - Kələlə (İran İslam Respublikası) dövlət sərhədinin buraxılış məntəqələrində Araz çayı üzərində avtomobil sərhəd körpüsü və piyada keçidi tikiləcək.

Artıq tikinti işləri sürətlə aparılır. Oktyabrın 30-da Prezident İlham Əliyev sərəncam imzalayaraq Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İranla bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi məqsədilə 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan 14 milyon manat vəsait ayırıb.

Beləliklə, Zəngilanın Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Bunun üçün qarşılıqlı razılaşma əldə olunub, körpünün layihəsi hazırlanıb. Bundan başqa, Araz çayı sahilinin bərpası işləri də aparılıb və çay əvvəlki məcrasına qaytarılıb. Eyni zamanda gömrük keçid məntəqəsi infrastrukturunun da yaradılması nəzərdə tutulur. Ağbənd avtomobil yolu ilə gündəlik 1100 avtomobilin, 30 avtobusun, 15 min insanın sərhəddən keçidi təmin olunacaq.

Bu yol tranzit yüklərin daşınmasına da xidmət edəcək. Bunun həm Azərbaycan, həm İran, həm də region üçün əhəmiyyəti olacaq. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonu üçün zəruri infrastrukturdur. Bunun nəticəsində bölgə logistik mərkəzə çevriləcək. Ərazidə avtomobil yolu ilə yanaşı, dəmir yolu körpüsünün də tikintisi nəzərdə tutulub. Bütün infrastruktur bir il ərzində reallaşdırılacaq. Naxçıvana gediş-gəliş imkanları asanlaşacaq və yüklərin asan daşınması təmin ediləcək.

Ümumiyyətlə, Azərbaycan regionda nəqliyyat-logistik əlaqələrin daha da genişləndirilməsi istiqamətində hər zaman aktiv rol oynayır. Prezident İlham Əliyevin qlobal təşəbbüsləri ilə ölkəmiz Avropa ilə Asiya arasında ticarət körpüləri yaradır. "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir və bu proseslərə mühüm töhfə verir. İndi də Azərbaycan daha bir mühüm geostrateji layihə ilə bir daha Avrasiyanın həm də nəqliyyat-tranzit mərkəzlərindən birinə çevrildiyini təsdiqləyir. Bütün bu layihələr Şərqi Zəngəzurun tezliklə hərtərəfli tərəqqisinə real zəmin yaradacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Kəskin respirator infeksiyalar aktivləşir

Bir göz qırpımında dünyaya dəhşətli bəla kimi yayılan koronavirus pandemiyası bitmək bilmir. Görünən odur ki, virus hələ uzun müddət bəşəriyyətin yaxasını buraxmayacaq.

Qonşu ölkələrin statistik məlumatlarına nəzər yetirsək görərik ki, hazırda infeksiyaya gündəlik yoluxma sayı dəfələrlə artıb. Epidemioloji vəziyyətin ən ağır olduğu ölkələr ABŞ, Braziliya və Almaniyadır. Son həftədə bu ölkələrdə virusa yoluxmada kəskin artım müşahidə olunub.

Ölkəmizdə yeni ştamların aşkarlanmaması, Azərbaycanın epidemioloji vəziyyətin ağır olduğu ölkələr sırasından kənarda qalması sevindirici haldır. Lakin son zamanlar qripəbənzər kəskin respirator virus infeksiyasının yayılması bu ehtimalı və əhali arasında narahatlığı artırır.

### COVID-19 daha bir neçə il xüsusi diqqət tələb edəcək

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, son zamanlar dünya üzrə virusa yoluxma sayında müşahidə edilən artım, əsasən, "Omikron"un mutasiya olunmuş yeni subvariantları hesabına baş verib. Yeni ştamların xüsusiyyətləri tam müəyyən edilməsə də, bu ştamlar digərlərindən daha az öldürücü olsalar da, yoluxma sürətinə görə öndədirlər.

Mütəxəssislər proqnozlaşdırırlar ki, dünyada yoluxma hallarının sayının kifayət qədər yüksək olduğunu nəzərə alsaq, koronavirus daha bir neçə il gündəmdə qalacaq.

ÜST-nin baş katibi Tedros Adhanom Gebreyesus da COVID-19 pandemiyasının hər an yenidən alovlana biləcəyini qeyd edir: "Pandemiya və ya növbəti dəfə qlobal sağlamlıqla bağlı fövqəladə vəziyyət başlana bilər. 2019-cu ildə də belə oldu".

### Son bir həftədə 95 yeni yoluxma faktı qeydə alınıb

Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, Azərbaycanda 23-29 oktyabr tarixlərində COVID-19 infeksiyasına 95 yeni yoluxma faktı qeydə alınıb.

Ölkədə son həftə ərzində vaksinasiya olunmayıb. Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı isə 13 milyon 969 min 897 olub.

İndiyədək ölkədə ümumilikdə 834 min 50 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 823 min 588 nəfər müalicə olunaraq sağalıb, hazırda 106 aktiv xəstə var. Bu günə qədər 10 min 356 nəfər vəfat edib.

Azərbaycanda epidemioloji vəziyyət stabil olsa, yeni ştamlara yoluxma halı aşkarlanmasa da, son zamanlar qripəbənzər kəskin respirator virus infeksiyasının yayılması bu ehtimalı və əhali arasında narahatlığı artırır. Mütəxəssislər dünya ölkələrində, o cümlədən Azərbaycanda yoluxma sayındakı artımı payız-qış mövsümü ilə əlaqələndirirlər. Belə ki, havaların soyuması ilə kəskin respirator infeksiyalar aktivləşir.

Mütəxəssislər vurğulayırlar ki, COVID-19 uzun zaman həyatımızdan çıxmayacaq. Baş verənlər təbii prosesdir, hər il payız mövsümündə belə alovlanmalar müşahidə ediləcək.

Ölkəmizdə əhali arasında kollektiv immunitet formalaşıb. Bu da xəstəliyin daha yüngül keçməsinə şərait yaradır. Beləliklə, səhiyyə sistemi, xəstəxanalar yüklənmir, insanlar ev şəraitində müalicə olunurlar. Bu uğurlu nəticədə peyvəndin rolu danılmazdır. İnsanların zamanında vaksinasiyadan keçməsi xəstələrdə simptomların ağırlaşmamasının, habelə ölüm hallarının kəskin azalmasının səbəbidir.

Epidemioloji vəziyyətin qəlizləşməməsi üçün ehtiyat tədbirlərini də əldən verməməli, sanitar-gigiyenik qaydalara riayət etməliyik. Virusdan qorunma yolları isə dəyişməz olaraq qalır. Soyuq havalarda daha çox istifadə etdiyimiz qapalı məkanlarda, ictimai nəqliyyatda tibbi maskadan istifadə, otaqları tez-tez havalandırmaq, insanların sıx toplaşdığı yerlərdə iştirakı minimuma endirmək, sosial məsafəni gözləmək vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.11.23-cü il tarixi saat 23:00-dan etibarən 03.11.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**ASCO-nun struktur idarələrinə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 noyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

**AM132 "AXDG" QSC-nin "ZIĞ" Gəmi Təmiri Tikinti Zavodunun**
**2 saylı yanalma körpüsündəki kranaltı yollarının əsaslı təmiri xidmətinin (mal-material və işçilik birlikdə) satın alınması üçün**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 noyabr 2023-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***


# Qarşıdakı bir həftə ərzində paytaxtda hava necə olacaq?

Bakıda və Abşeron yarımadasında bir həftə ərzində gözlənilən hava şəraiti açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 2-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 20-25° isti olacaq.

Noyabrın 3-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 12-15°, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır.




Noyabrın 4-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 17-22° isti olacağı bildirilir.

Noyabrın 5-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Noyabrın 6-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 13-16°, gündüz 19-24° isti olacağı ehtimalı var.

Noyabrın 7-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 17-22° isti olacağı gözlənilir.

Noyabrın 8-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 13-16°, gündüz 18-22° isti olacaq.


"Səba" ASC-nin mülkiyyətində olan Frontal yükləyici LİUGONG CLG375 markalı texnikanın TH-026768 saylı qeydiyyat şəhadətnaməsi və 90T602 nömrəli dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhəri Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədri Rəfail Mehralıyevə əzizi

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5314
Sifariş 2837

Qiyməti 40 qəpik